# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW
№ 448 Mart 2025



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

# “XƏZƏR”DƏ NOVRUZ ŞƏNLİYİ




*Azad Ağaoğlu, Orhan Baldane, Mehdi Gəncəli, Hamlet İsaxanlı*

Martın 19-da Xəzər Universitetində Novruz şənliyi keçirildi. Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları, tələbələr və türkiyəli qonaqlar - Marmara Universitetindən Dos. Mehdi Gəncəli, Sağlık Bilimleri Universitetindən Dos. Resul Köse, Pamukkale Universitetindən Dr. Orhan Baldane və İstanbul Universitetindən Dr. Azad Ağaoğlu iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı çıxış edərək, şənlik iştirakçılarını təbrik etdi, onlara şəxsi həyatlarında, təhsil və fəaliyyətlərində uğurlar arzuladı.





Qeyd etdi ki, Xəzər Universitetinin yaranması da 1991-ci il martın 18-də rəsmiləşdiyinə görə Novruz günlərinə təsadüf etdiyi üçün əlamətdardır. Sonra Hamlet İsaxanlı Bayram tonqalını alovlandırdı və şənlik başladı.

Universitetin tələbə qızlardan ibarət rəqs qrupu (bədii rəhbər Səbinə İsmayılova), universitetin müəllimləri aşıq Ramin Qarayev və müğənni Məhsəti Azaflı konsert proqramı təqdim etdilər.

Bayram şənliyi tələbələrin tonqal ətrafında kütləvi rəqsi ilə davam etdi və xoş əhval-ruhiyyə ilə başa çatdı.





# NOWRUZ CELEBRATION AT KHAZAR UNIVERSITY



A Nowruz celebration was held at Khazar University on March 19. The event was attended by university leadership, staff members, students, and guests from Türkiye - Assoc. Prof. Mehdi Ganjali from Marmara University, Assoc. Prof. Resul Köse from Health Sciences University, Dr. Orhan Baldane from Pamukkale University and Dr. Azad Aghaoghlu from Istanbul University.

Professor Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees extended his congratulations to all participants and wished them success in their personal lives, education, and professional endeavors. He emphasized the significance of Khazar University's establishment on March 18, 1991, coinciding with the Nowruz holiday period. Then he ignited the traditional Nowruz bonfire, officially commencing the festivities.



The university's female student dance ensemble (under the artistic direction of Sabina Ismayilova), along with university faculty members ashug Ramin Garayev and vocalist Mahsati Azafli, presented a concert program for the attendees.

The celebration continued with students participating in mass dancing around the bonfire and concluded in a jubilant atmosphere.

# İÇİNDƏKİLƏR

Şəhid oğlu: hədəfim Azərbaycanın kosmos strategiyasında rol oynamaqdır ....6
SORG4NOBAL layihəsinin yekun tədbiri Xəzər Universitetində ....8
"Xəzər"in doktorantı məruzəsinə görə təltif olunub ....11
Məzun məktubları ....12
ABŞ-da magistr təhsili haqqında ....16
Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş tədbir ....18
"Xəzər" ölkə mediasında ....19
"Sərhədsiz dizayn: bir yaradıcının səyahəti" mövzusunda vorkşop ....20
"Ekstremal vəziyyətlərdə zərərçəkmiş şəxslərlə psixoloji işin təşkili" mövzusunda seminar ....21
"Xəzər"in əməkdaşı "İnklüziv təhsil: nailiyyətlər və qarşıda duran vəzifələr" mövzusunda I Respublika Elmi Konfransında ....22
"AGILE: yanaşmalar və praktiki tətbiqi" adlı seminar ....24
USJ PhD Tədqiqat seminarında Dr. Məhəmməd İmran dil təhsilində süni intellekt mövzusunda əsas məruzə ilə çıxış edib ....26
O.P. Jindal Qlobal Universitetinin nümayəndə heyəti "Xəzər"də ....27
Turan Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalanıb ....28
"Xəzər"in xarici nəşrləri ....30
AIESEC Azərbaycan təşkilatının tələbələrlə görüşü ....32
Xəzər Universitetinin vebsaytlarında yerləşdirilmiş xəbərlər haqqında müqayisəli məlumat ....33
Fikrət Əmirov I Ümumrespublika Musiqi Festivalı çərçivəsində Xəzər Universiteti Kamera orkestrinin konserti ....34
"Satira bayramı" ....36
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ....38
*Əlirza Balayev.* Töhmətdən töhmətə ....40
Dərs zamanı Çərşənbə adətləri ....55
Tarix və arxeologiya departamentinin müdiri BDU-da keçirilmiş tədbirdə ....56
Televiziya və radio aparıcısı Saleh Bağırovla tələbələrin görüşü ....58
Fizika və elektronika departamentində Elektrik Güc Sistemləri laboratoriyası yaradıldı ....60
Tələbələr Bakı Yunus Əmrə İnstitutunda ....61
Latviyanın keçmiş prezidenti Xəzər Universitetində ....62
Xəzər Universitetinin məzunu tələbələr üçün seminar keçirdi ....64
Tarix və arxeologiya departamentinin müdiri və müəllimləri beynəlxalq elmi konfransda ....65
Tələbələrin dekan Dr. Raziyə İsayeva ilə görüşü ....66
Xəzər Universiteti və Qusar Rayonu Cibir kənd məktəbinin birgə Novruz bayramı ....68
Novruz xonçasının dizayn edilməsi mövzusunda ustad dərsi ....70
Özbək doktorantın Xəzər Universitetində elmi təcrübəsi ....74
"Xəzər"in ölkə nəşrləri ....75

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan

**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Son of Martyr: "My Ambition is to Play a Role in Azerbaijan's Space Strategy"............................6
Final Event of the SORG4NOBAL Project Held at Khazar University..............................................8
PhD Student of Khazar Awarded for Her Presentation ......................................................................11
Letters from Alumni ..............................................................................................................................12
About Master's Education in the USA....................................................................................................16
Event Dedicated to World Civil Defense Day ........................................................................................18
"Khazar"in Country`s Media ....................................................................................................................19
Workshop on "Design Without Borders: A Creator's Journey" .........................................................20
Seminar on "Organization of Psychological Work with Victims in Extreme Situations"...........21
Faculty Member of Khazar at I Scientific Republic Conference titled "Inclusive Education: Achievements and Challenges Ahead"...........................................................................................22
"AGILE Approaches and Practical Application" Seminar ..................................................................24
Dr. Muhammad Imran Delivered the Keynote Address on AI in Language Education at the USJ PhD Research Seminar ..................................................................................................................26
Delegation from O.P. Jindal Global University Visits "Khazar".........................................................27
Collaboration Agreement Signed with Turan University ..................................................................28
"Khazar"s Foreign Publications ..............................................................................................................30
AIESEC Azerbaijan Organization Meets with Students ....................................................................32
Comparative Information about the Number of News Posted on University's Website ............33
Concert by Khazar University Chamber Orchestra within the Framework of First Fikret Amirov Republic-wide Music Festival.......................................................................................................34
"Celebration of Satire" ..............................................................................................................................36
News of the Institute of ANAS Named after Nizami (*in Azerbaijani*) ................................................38
*Alirza Balayev.* From Reprimand To Reprimand.......................................................................................40
Charshanba Traditions During Class Time...........................................................................................55
Head of History and Archaeology Department Attends Event at BSU ............................................56
Meeting of Students with TV and Radio Host Saleh Bagirov............................................................58
Electric Power Systems Laboratory Established at the Department of Physics and Electronics ..................................................................................................................................................60
Students at Baku Yunus Emre Institute ..................................................................................................61
Former President of Latvia Visits Khazar University.........................................................................62
Khazar University Alumna Conducts Seminar for Students ............................................................64
Head and Faculty of History and Archaeology Department Participate in International Scientific Conference..................................................................................................................................65
Meeting of Students with Dean Dr. Raziya Isayeva ...............................................................................66
Khazar University and Qusar District Jibir Village School Celebrate Novruz Together.............68
Masterclass on Designing the Novruz Khoncha ......................................................................................70
Uzbek Doctoral Student's Academic Internship at Khazar University...........................................74

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Photo**: Multimedia Centre

Khazar University

Adress: 41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Circulation: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli
**Computer graphics:**
Gunel Akbarova

## ŞƏHİD OĞLU: HƏDƏFİM AZƏRBAYCANIN KOSMOS STRATEGİYASINDA ROL OYNAMAQDIR

## SON OF MARTYR: "MY AMBITION IS TO PLAY A ROLE IN AZERBAIJAN'S SPACE STRATEGY"

*AZƏRTAC-ın Xəzər Universitetinin Türkiyədə tələbə təcrübə mübadiləsində olan tələbəsi Mətləb Səmidli (Humanitar, təhsil və sosial elmlər fakültəsi, Politologiya ixtisası, I kurs) haqqında yazısını oxucularımıza təqdim edirik.*

*We present to our readers AZERTAC's article about Matlab Samidli (School of Humanities, Education and Social Sciences, Political Science major, 1st year), a student of Khazar University participating in a student exchange program in Türkiye.*




*Mətləb Səmidli*

"Türkiyədə keçirilən tələbə təcrübə mübadiləsində iştirakımın mənə verdiyi ən böyük dəstək oxuduğum diplomatiya sahəsini kosmik diplomatiyaya inteqrasiya edə bilməyimə təkan verməsi olub.

Fikrimcə, günümüzdə kosmik diplomatiya olduqca mühüm sahələrdən biridir. Gələcəklə bağlı

"The most significant benefit I've gained from participating in the student exchange program in Türkiye has been the impetus to integrate cosmic diplomacy into my diplomatic studies.

In my estimation, space diplomacy constitutes an extraordinarily vital field in contemporary times. My aspirations for the future revolve around further developing my expertise in this domain to

planlarım da bu sahə üzrə özümü daha çox inkişaf etdirərək, ölkəmizə kosmik diplomatiya sahəsində mühüm töhfələr verməkdir. Hədəfim Azərbaycanı bu sahə üzrə dünyada təmsil etmək, ölkəmizin 2030-cu ilədək kosmos strategiyası çərçivəsində güclənməsində rol oynamaqdır.”

Bu sözləri *AZƏRTAC*-a müsahibəsində Xəzər Universitetində politologiya ixtisası üzrə tələbəsi, Vətən müharibəsi şəhidi, polkovnik Babək Səmidlinin oğlu Mətləb Səmidli ifadə edib.

Tələbələrimizin iştirakı ilə Türkiyədə kosmos, aerokosmos, aviasiya, innovasiyalar, texniki elmlər, süni intellekt və mühəndislik sahələrində təcrübə mübadiləsində iştirak edən Mətləb layihənin ona verdiyi ən böyük üstünlüklərdən birinin də sosiallaşmaq olduğunu deyib: “Bu gün Türkiyənin texnologiya sahəsi üzrə tələbələri ilə tanışlığımız gələcəkdə ortaq fəaliyyətimizin təməlləri ola bilər. Burada kosmos, texnologiya fənləri, süni intellekt kimi gələcəkdə bizə dəstək olacaq sahələr üzrə məhsuldar təcrübələrə cəlb edilirik. Bu imkanları qazandığım üçün çox xoşbəxtəm. Çünki biz burada təcrübə qazanmaqla yanaşı, həm də çox gözəl münasibətlər qururuq. Təşkilatçılara təşəkkürümü bildirmək istəyirəm”.

Xatırladaq ki, Azərbaycan universitetlərinin tələbələri kosmos, aerokosmos, aviasiya, innovasiyalar, texniki elmlər, süni intellekt və mühəndislik sahələrində Türkiyədə təcrübə mübadiləsi keçirlər.

“Azərkosmos”un KOSMİK Akademiyasının təşkilatçılığı və Türkiyənin Gökmen Aerokosmik və Aviasiya Mərkəzinin (GUHEM-Gökmen Uzay ve Havacılık Merkezi) dəstəyi, eləcə də Azərbaycan Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və SABAH qruplarının əməkdaşlığı ilə həyata keçirilən layihəyə “Zəfər” təşkilatının əməkdaşlığı ilə üç şəhid və qazi övladı cəlb olunub.

**İstanbul, 16 mart, Günel Karatepe**

make substantial contributions to our nation's advancement in space diplomacy. My objective is to represent Azerbaijan globally in this field and to contribute to strengthening our country's position within the framework of its space strategy through 2030."

These sentiments were articulated to *AZERTAC* by Matlab Samidli, a political science student at Khazar University and son of Colonel Babek Samidli, a martyr of the Patriotic War.

Matlab, who is participating in an exchange program in Türkiye focusing on space, aerospace, aviation, innovation, technical sciences, artificial intelligence, and engineering disciplines alongside other Azerbaijani students, emphasized that one of the most substantial advantages afforded by the project has been socialization: "Our acquaintance with Türkiye’s technology students today could potentially establish foundations for collaborative endeavors in the future. Here, we are engaged in productive experiences across fields that will support our future development, including space, technology subjects, and artificial intelligence. I am exceedingly fortunate to have been granted these opportunities. Beyond acquiring practical experience, we are also cultivating exceptional relationships. I wish to express my profound gratitude to the organizers."

It should be noted that students from Azerbaijani universities are undertaking exchange programs in Türkiye in the fields of space, aerospace, aviation, innovation, technical sciences, artificial intelligence, and engineering.

The project is being implemented under the organization of "Azercosmos" COSMIC Academy with support from Türkiye’s Gökmen Aerospace and Aviation Center, as well as in collaboration with Azerbaijan's Ministry of Education, State Agency for Science and Higher Education, and SABAH groups. Three children of martyrs and veterans have been incorporated into the project through collaboration with the "Zafar" organization.

**Istanbul, March 16, Gunel Karatepe**

*https://azertag.az/xeber/sehid_oglu_hedefim_azerbaycanin_kosmos_strategiyasinda_rol_oynamaqdir-3465647*

## SORG4NOBAL LAYİHƏSİNİN YEKUN TƏDBİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

2023-2025-ci illər üzrə İsveç Kənd Təsərrüfatı Elmləri İnstitutu tərəfindən qalib elan edilən SORG4NOBAL beynəlxalq elmi-tədqiqat layihəsinin yekun tədbiri Azərbaycanda təşkil olunmuşdur. Tədbirdə Xəzər Universitetinin Həyat Elmləri Departamentinin müdiri Dr. Cəmalə Eldarova və departamentin dosenti Dr. Cavid Ocaqi iştirak etmiş, layihənin əldə etdiyi nəticələr, sorqo bitkisinin kənd təsərrüfatı və ekosistemlərə töhfəsi müzakirə olunmuşdu.



*Cavid Ocaqi*

Tədbir 11 və 12 mart 2025-ci il tarixlərində keçirilmişdi. Seminarın 1-ci günü "Təbiət əsaslı Həllər və Aqroekologiya"ya həsr olunmuş və Bakıdakı Radisson hotelində keçirilmişdir. Seminarda Xəzər Universitetinin dosenti Cavid Ocaqi "Xəzər Universitetində təbiət əsaslı həllər" mövzusunda məruzə etmişdir. Həmçinin cari tədbirdə İsveç Kənd Təsərrüfat Universitetinin əməkdaşı və eyni zamanda layihə rəhbəri Dr. Məhbubjon Rahmatov, Latviyanın Kənd təssərüfatı və Meşəçilik Tədqiqat Mərkəzinin əməkdaşları Dr. Rita Amoniene və Dr. Monika Toleikiene, Estoniya Kənd Təsərrüfatı Araşdırmaları və Bilik Mərkəzinin əməkdaşı Dr. Priit Pechter, Ukraynanın Bitki Seleksiyası və Genetika İnstitutu – Milli Toxum və Genotip Tədqiqat Mərkəzi əməkdaşı Dr. Olena Yarmolska, İsveçin Orqanik Kənd Təsərrüfatı Fermerləri Assosiasiyası nümayəndəsi Josefine Johansson və Lund Universitetinin tələbəsi Habiba Allam məruzə etmişlər.

## FINAL EVENT OF THE SORG4NOBAL PROJECT HELD AT KHAZAR UNIVERSITY



*Monika Toleikiene*

The final event of the international research project SORG4NOBAL, selected for funding by the Swedish University of Agricultural Sciences for the period 2023–2025, was held in Azerbaijan. The event brought together researchers and stakeholders to discuss the project's outcomes, focusing on the contribution of the sorghum plant to agriculture and ecosystems. Dr. Jamala Eldarova, Head of the Department of Life Sciences at Khazar University, and Associate Professor Dr. Javid Ocaqı participated in the discussions.



*Habiba Allam*

Tədbirin 2-ci günu "Təbiət əsaslı həllər və dayanıqlı şəhərlərə" həsr olunmuş, Xəzər Universitetinin Mərmər zalında keçirilmişdir. Lund Universitetindən Bernadett Kiss, ADA Universitetindən Fidan Namazova, FAO-dan İradə Qaraxanova, ADİU-dən Elmira Fərzəliyeva, Göyçay peşə təhsili mərkəzindən Əzizağa Atakişiyev seminar zamanı məruzə etmişlər. Həmçinin seminar çərçivəsində layihə icraçıları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Genetik Ehtiyatlar İnstitutuna da (GEİ) səfər edərək, institutun baş direktoru AMEA-nın müxbir üzvü, professor Zeynal Əkpərov ilə görüşmüş, institutda aparılan elmi-tədqiqat işləri, Milli Genbank və Mərkəzi Məlumat Bazası haqqında məlumat əldə etmişlər.



*Josefine Johansson*

Yekun görüşdə İsveç, Estoniya, Ukrayna, Latviya və Azərbaycandan olan tədqiqatçılarla yanaşı, fermerlər, FAO, ADA Universiteti və Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları da iştirak etmişlər. Layihənin əsas məqsədi iqlim dəyişikliklərinə davamlı sorqonun introduksiyası vasitəsilə evtrofikasiya və pestisid çirklənməsinin azaldılması, eləcə də qida təhlükəsizliyi və ekoloji dayanıqlığın artırılması olub.

Tədbirdə həmçinin yeni beynəlxalq əməkdaşlıq imkanları və gələcək layihələrin icrası müzakirə olundu. Mütəxəssislər davamlı kənd təsərrüfatı təcrübələri, aqrar biomüxtəlifliyin artırılması, fermerlərin maarifləndirilməsi və sorqonun bioenerji, yem və insan qidası kimi istifadəsinin genişləndirilməsi ilə bağlı təkliflər irəli sürdülər.

Bu görüş Təbiətə-əsaslanan Həllər (Nature-based Solutions) çərçivəsində yeni yanaşmaların inkişaf



*Bernadett Kiss*

The event took place on March 11–12. The first day of the seminar, dedicated to "Nature-Based Solutions and Agroecology," was held at the Radisson Hotel. The seminar opened with a presentation by Dr. Javid Ocagi titled "Nature-Based Solutions at Khazar University." Other contributors included Dr. Mahbubjon Rahmatov, project coordinator and researcher at the Swedish University of Agricultural Sciences; Dr. Rita Amoniene and Dr. Monika Toleikiene from the Lithuanian Research Centre for Agriculture and Forestry; Dr. Priit Pechter from the Estonian Centre for Agricultural Research and Knowledge; Dr. Olena Yarmolska from the Ukrainian Institute of Plant Breeding and Genetics – National Center for Seed and Genotype Research; Josefine Johansson, representative of the Swedish Association of Organic Farmers; and Habiba Allam, a student from Lund University.



*Rita Amoniene*

etdirilməsi və 2030 Dayanıqlı İnkişaf Strategiyalarına uyğun olaraq, iqlim dəyişikliyi, biomüxtəlifliyin qorunması və kənd təsərrüfatının dayanıqlılığına dair inteqrasiya olunmuş həllərin işlənib hazırlanması istiqamətində mühüm addım olmuşdur.



*Olena Yarmolska,Priit Pechter*

The second day, focused on "Nature-Based Solutions and Sustainable Cities," was held at the Marble Hall of Khazar University. Presentations were delivered by Bernadett Kiss from Lund University, Fidan Namazova from ADA University, Irada Garakhanova from FAO, Elmira Farzaliyeva from Azerbaijan State University of Economics (UNEC), and Azizagha Atakishiyev from Goychay Vocational Education Center. As part of the seminar, project participants also visited the Genetic Resources Institute (GRI) under the Ministry of Science and Education of the Republic of Azerbaijan, where they met with the institute's Director General, Professor Zeynal Akparov, a corresponding member of ANAS. The delegation was briefed on the institute's research activities, the National Genebank, and the Central Information Database.

The final meeting was attended by researchers from Sweden, Estonia, Ukraine, Lithuania, and Azerbaijan, as well as farmers and representatives from FAO, ADA University, and the Ministry of Agriculture. The project aimed to mitigate eutrophication and pesticide pollution through the introduction of climate-resilient sorghum, while enhancing food security and ecological sustainability.

The event also served as a platform to explore new opportunities for international collaboration and the implementation of future projects. Experts presented proposals on promoting sustainable agricultural practices, enhancing agricultural biodiversity, raising farmer awareness, and expanding the use of sorghum for bioenergy, animal feed, and human nutrition.

This gathering marked a significant step toward developing new approaches within the framework of Nature-Based Solutions, and contributed to the elaboration of integrated solutions for climate change adaptation, biodiversity conservation, and agricultural resilience, aligned with the 2030 Sustainable Development Goals.



## "XƏZƏR"İN DOKTORANTI MƏRUZƏSİNƏ GÖRƏ TƏLTİF OLUNUB

Siyasi elmlər və fəlsəfə departamentinin doktorantı Burcu Temür 2025-ci il fevralın 27-28-də Bakı Dövlət Universitetinin Tarix fakültəsinin təşkilatçılığı ilə keçirilmiş" "Dünya azərbaycanlıları: tarix və müasirlik" adlı V Beynəlxalq elmi konfransda iştirak etmişdir. Burcu Temür "Natural resources and nation-building: the case of Azerbaijan petroleum" ("Təbii resurslar və millət quruculuğu: Azərbaycan nefti nümunəsi") mövzusunda məruzəsinə görə təltif olunmuşdur.

Bakı Dövlət Universitetinin 105 illik yubileyinə həsr edilmiş beynəlxalq elmi konfransda Vətən müharibəsindən sonra tarixi-demoqrafik proseslərin daha dərindən araşdırılması, innovativ istiqamətlərin müəyyənləşdirilməsi, gənc tədqiqatçıların elmi araşdırmalara cəlb edilməsi və əldə edilən elmi nəticələrin beynəlxalq səviyyədə müzakirəsi həyata keçirilmişdir.

## PHD STUDENT OF KHAZAR AWARDED FOR HER PRESENTATION

Burcu Temur, a doctoral student in the Department of Political Sciences and Philosophy, participated in the 5th International Scientific Conference titled "World Azerbaijanis: History and Modernity" organized by the Faculty of History at Baku State University on February 27-28. Burcu Temur was awarded for her presentation on "Natural resources and nation-building: the case of Azerbaijan petroleum."

The international scientific conference, dedicated to the 105th anniversary of Baku State University, focused on deeper research of historical-demographic processes after the Patriotic War, identifying innovative directions, involving young researchers in scientific research, and discussing scientific results at an international level.




*Burcu Temür*

# MƏZUN MƏKTUBLARI

*1991-ci il martın 18-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə yaradılmış Xəzər Universiteti Novruz günlərində 35-ci yubiley ilinə qədəm qoydu. Bu münasibətlə məzunlardan gələn məktubları Karyera və Məzunlar Mərkəzi təqdim edir.*



## Xəzər Universitetinin hörmətli üzvlərinə

1991-ci ildən bəri möhtəşəm inkişaf yolunda inamla irəliləyən Xəzər Universiteti növbəti mərhələyə qədəm qoyur. Bir Xəzər məzunu olaraq bu təhsil müəssisəsinin inkişafa və təhsildə mükəmməlliyə dair sarsılmaz bağlılığı ilə qürur duyuram.

Xəzər Universiteti illər boyu təkcə akademik mühitə töhfə verməklə kifayətlənməyib, eyni zamanda minlərlə tələbənin həyatında dönüş nöqtəsi olub. Müəllim heyətinin səyi, innovativ tədris proqramı və zəngin akademik mühit burada gələcəyin liderlərinin yetişməsi üçün möhkəm zəmin yaradıb.

Xəzər Universitetinin ali təhsil sahəsində daha böyük nailiyyətlər qazanacağına ürəkdən inanıram.

**Dr. Sevinc İskəndərova**
**Nolen Biznes və Peşəkar Tədqiqatlar Məktəbi,**
**Bridgewater Kolleci, Virciniya, Amerika Birləşmiş Ştatları**

## Dear Esteemed Members of Khazar University

Khazar University is reaching another milestone in its remarkable journey since its founding in 1991. As an alumnus of Khazar, I take immense pride in the institution's evolution and its unwavering commitment to excellence in education.

Over the years, Khazar University has not only contributed to the academic landscape but has also played a pivotal role in shaping the lives of countless students. The dedication of the faculty, the innovative curriculum, and the vibrant community have all fostered an environment where future leaders are nurtured.

I sincerely believe that Khazar University will achieve greater achievements in the field of higher education.

**Dr. Sevinj Iskandarova**
**Nolen School of Business and Professional Studies Bridgewater College,**
**Virginia, United States of America**

## Hörmətli Xəzər Universitetinin kollektivi!



Bu illər ərzində təhsil və tədqiqat mükəmməlliyinə olan fədakarlığınız saysız-hesabsız insanın həyatına dərin təsir göstərmişdir. Biz məzunlar universitetin irsinə töhfə vermiş uzaqgörənləri, pedaqoqları, əməkdaşları və tələbələri hörmətlə xatırlayırıq. Bilik, innovasiya və təşviq etmək üçün sarsılmaz öhdəliyiniz hamımızı ruhlandırmaqda davam edir. Gələcək üçün ən xoş arzular!

**Raul Əliyev**
**Müqavilələr üzrə mütəxəssis,**
**Shell Iraq Petroleum Development B.V, Qətər Dövləti**

## Dear Khazar University Community

Your dedication to excellence in education and research over the years has profoundly impacted countless lives. As alumni, we respectfully commemorate the visionaries, educators, staff, and students who have contributed to the university's legacy. Your unwavering commitment to knowledge, innovation, and encouragement continues to inspire us all. Wishing you the very best for the future.

**Raul Aliyev**
**Contracts Specialist, Shell Iraq Petroleum Development B.V.**
**State of Qatar**

# LETTERS FROM ALUMNI

*During the Novruz days, Khazar University, which was founded on March 18, 1991, by the Republic of Azerbaijan's Cabinet of Ministers, began its 35th anniversary year. The Career and Alumni Center is sharing letters from alumni on this special occasion.*

## Əziz Xəzərlilər!



Ölkəmizin nüfuzlu ali təhsil ocaqlarından olan, Azərbaycan təhsil sistemində bir sıra ilklərə imza atmış doğma Xəzər Universiteti təkcə ali təhsil müəssisəsi deyil, həm də saysız hesabsız dostluqların, geniş əlaqələrin, düzgün karyeranın qurulmasının başlanğıc nöqtəsidir. Çox sevindiricidir ki, Xəzər Universiteti məzunlarının uğurlarını həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda müşahidə etmək mümkündür. Universitetin məzunları arasında gözlə görünməyəcək qədər incə, lakin hiss edilə biləcək qədər möhkəm bağların mövcudluğu təhsil illərinin aşıladığı misilsiz bir dəyərdir. İnanıram ki, bu ənənə bundan sonra da davam edəcək.

**Emin Rüstəmov**
**Azərbaycan Respublikasının Belçika Krallığında, Lüksemburq Böyük Hersoqluğunda səfirliyi, eyni zamanda Avropa İttifaqı yanında Nümayəndəliyi, birinci katib**

## Dear Khazar University Staff

As one of the most prestigious higher education institutions in our country, Khazar University has pioneered numerous innovations within Azerbaijan’s education system. More than just a university, it serves as a foundation for lifelong friendships, extensive professional networks, and the establishment of successful careers. It is truly gratifying to witness the achievements of Khazar University alumni not only in Azerbaijan but also beyond its borders. The invisible yet deeply felt bonds among the university’s graduates are a testament to the invaluable experiences gained during their academic years. I firmly believe that this tradition will continue.

**Emin Rustamov**
**Embassy of the Republic of Azerbaijan in the Kingdom of Belgium and the Grand Duchy of Luxembourg, Mission to the European Union First Secretary**



## Doğma Xəzərim!

Adın gələndə hələ də üzümdə gülüş, ürəyimdə titrəmə hiss edirəm. Qürurla, minnətdarlıqla xatırlayıram Səninlə keçən o illəri.

Sən tək düşünən, araşdıran, yeniliklərə açıq təhsil ocağı deyil, eyni zamanda bizə dostluqlar, xoş xatirələr, dəyərlər qazandıran bir ocaqsan.

Başda çox sevdiyim və dəyər verdiyim Hamlet müəllim olmaqla adın hər zaman uğurlara imza atsın, daim zirvələrdə ol Xəzər Universiteti!

**Kəmalə Bəbirova,**
**“Memorial Hospital”ın Nərimanov filialının baş həkimi, həkim-radioloq**

## My Beloved Khazar!

Even now, the mere mention of your name brings a smile to my face and a heartfelt tremor of emotion. I recall with immense pride and gratitude the years spent with you.

You are not only an institution that fosters critical thinking, research, and openness to innovation but also a place that has gifted us with lifelong friendships, cherished memories, and invaluable values.

May your name always be associated with success, and may you continue to reach new heights especially under the esteemed leadership of my dear and respected teacher Mr. Hamlet Isakhanli.

**Kamala Babirova**
**Chief Physician, Radiologist Memorial Hospital, Narimanov Branch**



## Əziz Xəzərim!

Mən, Sadiq Dadaşov Sədiyar oğlu 2005-2011 ci illərdə Xəzər Universitetində "Müalicə işi" ixtisası üzrə bakalavır təhsili almışam. Müxtəlif illərdə Almaniya və Türkiyədə təhsilimi davam etdirmişəm. Lənkəran Rayon Mərkəzi Xəstəxanası və "Lenkeran Hotel and Resopt Company" Məhdud Məsuliyyətli Cəmiyyətində həkim-terapevt, Lənkəran Dövlət Universiteti və Lənkəran Tibb Kollecində müəllim işləmişəm. Hazırda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Lənkəran filialının rəhbəri vəzifəsində çalışıram.

Çox xoşbəxtəm ki, 2005 - ci ildə Xəzər Universitetini seçmişəm. Universitetin müəllim heyəti, ingilis dilində tədrisi, yüksək standartlara cavab verən təhsil sistemi mənim həm elmi sferada, həm də sosial cəhətdən şəxsi inkişafıma kömək olmuşdur. Universitet illərində qazandığım bilik və bacarıqlar karyeramın qurulmasında da əhəmiyyətli rol oynamışdır. Xatırlayıram ki, tələbələr arasında belə bir deyim vardı: Xəzər Universitetinə bir girən sevinir, bir də bitirən. Təbii ki, bu, dərslərin çətin olmasından və şəffaf aparılmasından irəli gəlirdi. Amma çəkilən əziyyətin nəticəsidir ki, bir çoxumuz məzun olduqdan sonra müvafiq sahədə peşəkar şəkildə fəaliyyət göstəririk.

Universitetin daim inkişaf etməsi yüksək idarəetmənin və əlbəttə ki, peşəkar kollektivin uğurudur. Alim və ictimai xadim, fizika-riyaziyyat elmləri doktoru, şair, yazıçı və publisist, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof. Hamlet İsaxanlı başda olmaqla doğma Xəzərimin bütün işçi heyətinə bol uğur arzu edirəm!

**Sadiq Dadaşov,**
**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Lənkəran Filialının rəhbəri**

## My Dearest Khazar!

I, Sadiq Dadashov Sadiyar oglu, pursued my undergraduate study in "General Medicine" at Khazar University from 2005 to 2011. Over the years, I have continued my education in Germany and Türkiye. Throughout my career, I have served as a physician-therapist at Lankaran District Central Hospital and "Lankaran Hotel and Resort Company" LLC, as well as a lecturer at Lankaran State University and Lankaran Medical College. Currently, I hold the position of Head of the Lankaran Branch of the State Agency for Mandatory Health Insurance.

I feel truly fortunate to have chosen Khazar University in 2005. The distinguished faculty, English-medium instruction, and high academic standards have significantly contributed to my professional and personal development, both in academia and beyond. The knowledge and skills I acquired during my university years played a crucial role in shaping my career. I fondly recall a saying among students: "A student is happy when they first enter Khazar University and once again when they graduate." This was, of course, a reflection of the university's rigorous academic environment and commitment to transparency. However, the challenges we faced were ultimately rewarding, as many of us have gone on to establish successful careers in our respective fields.

The continuous growth and development of the university stand as a testament to its strong leadership and highly professional team. I extend my heartfelt wishes for continued success to my beloved Khazar University, led by the esteemed scholar and public figure, Doctor of Physical and Mathematical Sciences, poet, writer, and publicist, Professor Hamlet Isakhanli, along with the entire university staff.

**Sadiq Dadashov**
**Head of the Lankaran Branch State Agency for Mandatory Health Insurance**



## Əziz və doğma Xəzərim!

O qədər dərin və gözəl xatirələr bəxş etmisən ki, sözlə ifadə etmək qeyri-mümkündür.

Təhsil aldığım 4 il ərzində peşəkar kadrlardan aldığım biliklər daim həyatıma müsbət yön verib. Mənəvi inkişafa yönələn dərslər isə həyata baxışımı dəyişib. Düşünürəm ki, Xəzər Universiteti bizim üçün təkcə ali təhsil ocağı olmadı, burada biz həm də özümüzü dogma evimizdəki kimi hiss etdik. Rektorumuz Hamlet müəllimə bizə Xəzər kimi möhtəşəm təhsil ocağını bəxş etdiyi üçün təşəkkür edirəm.

Əziz Hamlet müəllim, sizin kimi ziyalı, səmimi və mehriban rektorumuzun olmağı xüsusi xoşbəxtlik idi. Artıq 15 ildir ki, İctimai Televiziyada böyük redaktor vəzifəsində çalışıram. Hər zaman fəxrlə deyirəm ki, mən Xəzər kimi nəhəng universiteti bitirmişəm.

Bütün müəllimlərimə də "çox sağ olun" deyirəm. Hər biriniz dəyərlisiniz. Yaddaşımda gözəl izlər buraxmısınız. Hazırda Xəzər Universitetində təhsil alan tələbələrə də uğurlar arzulayıram!

**Leyla Sultanova,**
**İctimai Televiziyanın böyük redaktoru**

## My Dearest and Beloved Khazar!

You have given me such deep and beautiful memories that words cannot fully express them.

The knowledge I gained from highly professional educators during my four years of study has always guided me in a positive direction. The courses focused on personal development have profoundly shaped my outlook on life. I truly believe that Khazar University was not just an institution of higher education for us it was a place where we felt at home. I extend my heartfelt gratitude to our esteemed Rector, Hamlet Isakhanli, for establishing such an exceptional academic institution as Khazar University.

Dear Mr.Isakhanli, having a rector as intellectual, sincere, and kind as you was a privilege. For the past 15 years, I have worked as a senior editor at Public Television, and I always take pride in saying that I graduated from such a prestigious university as Khazar.

I also want to express my deepest appreciation to all my professors—you are all truly invaluable. You have left an unforgettable mark on my life.

To the current students of Khazar University, I wish you all the best in your academic journey!

**Leyla Sultanova**
**Senior Editor, Public Television**



## Dərin minnətdarlıq hissi ilə!

1993-1997-ci illərdə Xəzər Universitetinin Humanitar elmlər fakültəsinin İngilis və ərəb dilləri ixtisasında təhsil aldığım illəri xatırlayarkən, qazandığım dəyərli bilik və təcrübələr üçün dərin minnətdarlıq hissi duyuram. Mənə yol göstərən və bu müddət ərzində dəstək olan dəyərli müəllimlərim – Bəylər Hacıyev, Hüseynağa Rzayev, Roza Arazova, Hikmət Əkbərov, Sədaqət Təhməzova və digər görkəmli pedaqoqların fədakarlığı və tədrisə olan sevgisi mənim həm şəxsi, həm də peşəkar inkişafımda silinməz iz qoyub.

Ümid edirəm ki, Xəzər Universiteti gələcək nəsilləri ruhlandırmağa və onları gücləndirməyə davam edəcək.

Dərin minnətdarlıq və ən xoş arzularımla,

**Kamran Nəsirov**
**Baker Hughes Gömrük və logistika meneceri**

## With Deepest Gratitude!

Reflecting on my time at Khazar University from 1993 to 1997, I am filled with gratitude for the invaluable experiences and knowledge I gained as a student in the School of Humanities, Faculty of English and Arabic Languages. I was fortunate to have been guided by exceptional teachers such as Beyler Hajiyev, Huseynaga Rzayev, Roza Arazova, Hikmet Akperov, Sedaget Tahmazova, and many others. Their dedication and passion for teaching have left an indelible mark on my personal and professional journey.

I hope that Khazar University will continue to inspire and empower future generations.

With heartfelt gratitude and best wishes,

**Kamran Nasirov,**
**Baker Hughes Customs Logistics Manager**




*Zərifə Əliyeva*

# ABŞ-DA MAGİSTR TƏHSİLİ HAQQINDA

# ABOUT MASTER'S EDUCATION IN THE USA

Fevralın 27-də Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə "İB Academy"-nin Xəzər Universitetinin sonuncu kurs tələbələri ilə görüşü keçirildi. Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva tədbir iştirakçılarını salamlayaraq, mərkəzin missiyası, fəaliyyət istiqamətləri, tələbələrə göstərilən xidmətlər barədə məlumat verdi.

On February 27, a meeting was held between "IB Academy" and final-year students of Khazar University, organized by the Career and Alumni Center. The Director of the Career and Alumni Center, Zarifa Aliyeva, welcomed the event participants and provided information about the center's mission, areas of activity, and services offered to students.



Görüşdə şirkətin nümayəndələri direktor Pərviz Mayılov, koordinator Sona Babayeva, İnkişaf və əməliyyatlar üzrə menecer İnarə Mayılova, Qəbul və sənədləşdirmə üzrə mütəxəssis Fərid Rəhimli öz təqdimatlarında İB Academy-in fəaliyyəti, xaricdə təhsil, əməkdaşlıq etdikləri xarici universitetlər, Amerika və Kanada universitetlərinə qəbul prosesi haqqında ətraflı məlumat verdilər. Tədbirin sonunda şirkətin əməkdaşları tələbələri maraqlandıran sualları cavablandırdılar.

Tədbirdə iştirak edən beş nəfər tələbəyə ABŞ-da magistr təhsili almaq üçün şirkət tərəfindən tamamilə ödənişsiz xidmət göstəriləcək. Həmçinin, digər tələbələrə 50% endirim xidmətləri təklif olundu.



*İnarə Mayılova*



*Fərid Rəhimli, Sona Babayeva*

At the meeting, company representatives - Director Parviz Mayilov, Coordinator Sona Babayeva, Development and Operations Manager Inara Mayilova, and Admissions and Documentation Specialist Farid Rahimli - gave detailed information in their presentations about IB Academy's activities, education abroad, foreign universities they collaborate with, and the admission process to American and Canadian universities. At the end of the event, the company's employees answered questions from interested students.

Five students who participated in the event will receive completely free services from the company to pursue master's education in the USA. Additionally, other students were offered services with a 50% discount.



*Günel Kərimova (Xəzər Universiteti)*

## ÜMUMDÜNYA MÜLKİ MÜDAFİƏ GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR

## EVENT DEDICATED TO WORLD CIVIL DEFENSE DAY

Fevralın 28-də Xəzər Universitetinin Həyat elmləri departamentinin təşkilatçılığı ilə "1 Mart Ümumdünya Mülki Müdafiə Günü"nə həsr olunmuş tədbir keçirilib. Tədbirdə universitetin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Tədbiri Həyat elmləri departamentinin müəllimi Aslan Rzayev açaraq, mülki müdafiənin əhəmiyyəti və əhalinin fövqəladə hallara hazırlığı barədə danışıb.



Aslan Rzayev



Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbəsi Məhəmməd Ağazadə Beynəlxalq Mülki Müdafiə Təşkilatının tarixi və Azərbaycanın bu qurumdakı rolu barədə ətraflı məlumat verib.

Departamentin müəllimi Gülafət Şəfiyeva "Fövqəladə hallar zamanı təhlükələr, qorxu və insan psixologiyası" mövzusunda çıxış edərək, mühüm məqamlara toxunub.

Tədbirin praktiki hissəsində ilk yardım və xilasetmə tədbirləri nümayiş etdirilib. Həyat elmləri departamentinin müəllimi Şahanə İbrahimova süni tənəffüs və ürəyin qapalı masajının qaydalarını, Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbəsi Aydan Nəsirli isə dəm qazından zəhərlənmə zamanı ilk yardım üsullarını izah edib.

Sonda Həyat elmləri departamentinin müəllimi Mais Talışxanov və Xəzər Universitetinin Media və ictimaiyyətlə əlaqələr üzrə direktoru Ələvsət Əmirbəyli insanların təhlükəsizliyinin təmin edilməsinin, həmçinin təbii və texnogen xarakterli fövqəladə hallarda əhalinin mühafizəsinin vacibliyini vurğulayıblar. Tədbir tələbələrin suallarının cavablandırılması ilə yekunlaşıb.

On February 28, an event dedicated to "World Civil Defense Day" (March 1) was organized by the Department of Life Sciences at Khazar University. The university's faculty members and students participated in the event.

Opening the event, Aslan Rzayev, instructor at the Department of Life Sciences, spoke about the importance of civil defense and public preparedness for emergency situations. Muhammad Aghazadeh, a student from the Faculty of Humanities, Education and Social Sciences, provided comprehensive information about the history of the International Civil Defense Organization and Azerbaijan's role in this institution.

Gulafat Shafiyeva, an instructor from the department, addressed crucial aspects in her presentation on "Dangers, Fear, and Human Psychology During Emergency Situations." The practical portion of the event featured demonstrations of first aid and rescue operations. Shahana Ibrahimova, instructor at the Department of Life Sciences, explained the procedures for artificial respiration and closed cardiac massage, while Aydan Nasirli, a student from the School of Humanities, Education and Social Sciences, elucidated first aid techniques for carbon monoxide poisoning.

In conclusion, Mais Talishkhanov, instructor at the Department of Life Sciences, and Alovsat Amirbayli, Director of Media and Public Relations at Khazar University, emphasized the significance of ensuring public safety and protecting the population during natural and man-made emergencies. The event concluded with a question-and-answer session with students.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ *APA*-YA MÜSAHİBƏ VERİB

## LANGUAGES AND LITERATURES DEPARTMENT INSTRUCTOR GIVES INTERVIEW TO *APA*

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri Dos. Rasim Heydərov fevralın 25-də *APA*-ya müsahibə verib. Müsahibə ərzində dilin tərkibi, dilə əcnəbi sözlərin gətirilməsi, onların xalq tərəfindən mənimsənilməsi prosesi, dil hadisələrində dilçi alimlərin, yazıçıların, tərcüməçilərin və xalqın rolu, yeni lüğətlərin yaranma prinsipləri, TV, radio və ümumilikdə, medianın dilə təsiri, gənclərin nitq bacarıqlarında müasir təhsilin funksiyası və adların qoyulmasında Dilçilik İnstitutunun rolu kimi məsələlərin müzakirəsi əksini tapıb.

Alim bütün bu mövzulara konkret, aydın və lakonik izahlar verərək, müzakirəyə qoyulan məqamları aydınlaşdırmağa çalışıb.

Assoc. Prof. Rasim Heydarov, instructor at Khazar University's Department of Languages and Literatures and head of department at ANAS Institute of Linguistics named after Nasimi, has given an interview to *APA* on February 25.

The interview covered discussions on language composition, the introduction of foreign words into the language, their adoption process by the public, the role of linguists, scholars, writers, translators, and the general public in language phenomena, principles of creating new dictionaries, the influence of TV, radio, and media in general on language, the function of modern education in young people's speech skills, and the role of the Institute of Linguistics in naming.

The scholar provided concrete, clear, and concise explanations on all these topics, attempting to clarify the points under discussion.

*https://apa.az/sosial/alim-kondisioner-sozunu-rahatliqla-istifade-edirik-amma-rozetka-hamini-narahat-edir-musahibe-889996*

## DEPARTAMENT MÜDİRİ TRAMP “YENİDƏNQURMA”SI VƏ ABŞ-AVROPA MÜNASİBƏTLƏRİNİ TƏHLİL EDİB

## DEPARTMENT HEAD ANALYZES TRUMP'S "RECONSTRUCTION" AND US-EUROPE RELATIONS

Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlunun iştirakıyla Azərbaycan Dövlət Televizyasında hazırlanan analitik proqramın növbəti xüsusi buraxılışı 3 mart tarixində yayınlanıb. Verlişdə dünya gündəminin də əsas mövzularlndan biri olan Tramp Amerikasında başlayan “yenidənqurma” prosesi, bunu zəruri edən daxili idari-iqtisadi səbəblər, Çinin yüksəlməsiylə birlikdə Amerikanın qlobal hegemoniyasının önündə duran maneələr, ABŞ - Avropa münasibətləri xəritələr, qrafiklər əsasında geniş şəkildə təhlil edilmişdir.

A special edition of an analytical program prepared by Azerbaijan State Television featuring Associate Professor Telman Nusratoglu, head of the History and Archaeology Department, was broadcast on March 3. The broadcast extensively analyzed one of the main topics on the global agenda - the "reconstruction" process that has begun in Trump's America, the internal administrative and economic reasons that made it necessary, the obstacles facing America's global hegemony with the rise of China, and US-Europe relations, using maps and graphics.

*https://www.facebook.com/share/v/1DADU9KyJd/*



*Səbinə Əhməd*

## “SƏRHƏDSİZ DİZAYN: BİR YARADICININ SƏYAHƏTİ” MÖVZUSUNDA VORKŞOP

Martın 3-də Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı, Memarlıq və dizayn departamentinin dəstəyi ilə Xəzər Universitetinin “Təsviri incəsənət müəllimliyi”, “Dizayn” və “Memarlıq” ixtisası üzrə təhsil alan tələbələri üçün Xəzər Televiziyasının baş rəssamı, Xəzər Universitetinin məzunu Səbinə Əhməd tərəfindən “Sərhədsiz dizayn: bir yaradıcının səyahəti” mövzusunda vorkşop təşkil olundu. S. Əhməd dizayn sahəsindəki geniş təcrübəsinə əsaslanaraq tələbələrlə 3D dizayn, qrafik dizayn, studiya dizaynı və bədii tərtibat mövzularında öz biliklərini bölüşdü. O, həmçinin, tələbələrə dizayner və quruluşçu rəssam olaraq həyata keçirdiyi layihələri, dizayn etdiyi məkanları nümayiş etdirdi.

Tədbirin sonunda S.Əhməd tələbələri maraqlandıran sualları cavablandırdı.

## WORKSHOP ON "DESIGN WITHOUT BORDERS: A CREATOR'S JOURNEY"

On March 3, a workshop titled "Design Without Borders: A Creator's Journey" was organized by the Career and Alumni Center with the support of the Architecture and Design Department for Khazar University students studying "Fine Arts Teaching," "Design," and "Architecture." The workshop was conducted by Sabina Ahmad, Chief Artist of Khazar Television and a Khazar University alumna.

Drawing on her extensive experience in the design field, S. Ahmad shared her knowledge with students on topics including 3D design, graphic design, studio design, and artistic arrangement. She also presented projects she had implemented as a designer and art director, as well as spaces she had designed. At the end of the event, S. Ahmad answered questions from the students.






*Şəhla Abbasova*



## “EKSTREMAL VƏZİYYƏTLƏRDƏ ZƏRƏRÇƏKMİŞ ŞƏXSLƏRLƏ PSİXOLOJİ İŞİN TƏŞKİLİ” MÖVZUSUNDA SEMİNAR

Martın 3-də Xəzər Universitetinin Psixologiya departamenti və Psixologiya klubunun birgə təşkilatçılığı ilə Psixologiya departamentinin əməkdaşı, Xəzər Psixoloji Xidmət Mərkəzinin psixoloqu Mirsadiq Muxtarov tərəfindən “Ekstremal vəziyyətlərdə zərərçəkmiş şəxslərlə psixoloji işin təşkili” mövzusunda seminar keçirildi. Tədbirdə universitetin müəllim və tələbələri iştirak edirdilər. Seminar xüsusilə psixologiya ixtisası üzrə təhsil alan tələbələr üçün vacib və faydalı məlumatları özündə ehtiva edirdi.

Mirsadiq Muxtarov ekstremal şərait anlayışını izah edərək, insanlarda baş verən psixi prosesləri vurğulamışdır. Ekstremal vəziyyətlərdə psixoloji dəstəyin əhəmiyyətindən danışaraq, ilkin psixoloji yardımın əsaslarını qeyd etmiş, tətbiq edilən əsas metod və yanaşmalar barədə geniş məlumat vermişdir.

Seminar zamanı təlimçi tərəfindən iştirakçıların çoxsaylı sualları cavablandırılmışdır. Tədbir tələbələrin nəzəri biliklərini dərinləşdirməklə yanaşı, real situasiyalarda psixoloji yanaşmaların praktik cəhətlərini də əhatə etmişdir.





*Mirsadiq Muxtarov*

## SEMINAR ON "ORGANIZATION OF PSYCHOLOGICAL WORK WITH VICTIMS IN EXTREME SITUATIONS"

On March 3, a seminar on "Organization of Psychological Work with Victims in Extreme Situations" was conducted by Mirsadiq Muxtarov, staff member of Khazar University's Psychology Department and psychologist at the Khazar Psychological Service Center. The event was jointly organized by the Psychology Department and Psychology Club of Khazar University. University faculty and students participated in the event. The seminar contained particularly important and useful information for students studying psychology.

Mirsadiq Muxtarov explained the concept of extreme conditions, emphasizing the mental processes that occur in people. Speaking about the importance of psychological support in extreme situations, he noted the fundamentals of initial psychological aid and provided extensive information about the main methods and approaches applied.

During the seminar, numerous questions from participants were answered by the trainer. The event not only deepened students' theoretical knowledge but also covered practical aspects of psychological approaches in real situations.

## "XƏZƏR"İN ƏMƏKDAŞI "İNKLÜZİV TƏHSİL: NAİLİYYƏTLƏR VƏ QARŞIDA DURAN VƏZİFƏLƏR" MÖVZUSUNDA I RESPUBLİKA ELMİ KONFRANSINDA

Martın 4-5-də Naxçıvan Dövlət Universitetində (NDU) “Konstitusiya və Suverenlik İli”nə həsr olunan “İnklüziv Təhsil: Nailiyyətlər və Qarşıda Duran Vəzifələr” mövzusunda I Respublika Elmi Konfransı təşkil edilmişdir.

Konfrans inklüziv təhsilin inkişafını müzakirə edən və bu sahədə atılan addımları dəyərləndirən əhəmiyyətli bir platforma olub.

Tədbir ölkənin müxtəlif ali təhsil müəssisələrinin, o cümlədən Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə həyata keçirilmişdir. Konfransa Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də dəstək göstərmişdir.

Konfransın açılışında Xəzər Universitetin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan vəzifəsini icra edən Aygün Verdiyeva “İnklüziv təhsil xüsusiyyətləri” mövzusunda əhatəli məruzə




*İsmayıl Əliyev (Naxçıvan Dövlət Universiteti), Aygün Verdiyeva*

## FACULTY MEMBER OF KHAZAR AT I SCIENTIFIC REPUBLIC CONFERENCE TITLED "INCLUSIVE EDUCATION: ACHIEVEMENTS AND CHALLENGES AHEAD"

On March 4-5, Nakhchivan State University (NSU) hosted the First Republican Scientific Conference on "Inclusive Education: Achievements and Challenges Ahead," dedicated to the "Year of Constitution and Sovereignty." The conference served as a significant platform for deliberating the advancement of inclusive education and evaluating progress in this critical domain. The prestigious event was jointly organized by various higher education institutions across the country, including Azerbaijan State Pedagogical University, Baku Slavic University, and Khazar University, with substantial support from the Ministry of Education and the Ministry of Labor and Social Protection of the Nakhchivan Autonomous Republic.

During the opening ceremony, Aygun Verdiyeva, Acting Dean of the School of Humanities, Education and Social Sciences at Khazar University, delivered a comprehensive presentation on "Characteristics of Inclusive Education."

ilə çıxış etmişdir.

O, inklüziv təhsilin tətbiqində qarşıya çıxan çətinliklər və bu sahədə qarşıda duran hədəflər barədə müzakirələr aparmışdır.

Tədbir çərçivəsində Xəzər Universitetinin digər nümayəndələri də inklüziv təhsilin müxtəlif aspektlərinə dair çıxış etmişlər.

Universitetin müəllimi Aynur Abdullayeva "Sağlamlıq imkanları məhdud kiçik yaşlı məktəblilərin cəmiyyətə adaptasiyası üçün Polşa təcrübəsinin tətbiqi" mövzusunda məruzə etmiş və bu sahədəki beynəlxalq təcrübələrdən necə istifadə oluna biləcəyini vurğulamışdır.

Tədbirin sonunda NDU İnklüziv Təhsil Mərkəzinin açılışı baş tutmuşdur.

Mərkəzin direktoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Taleh Xəlilov mərkəzin məqsədləri və fəaliyyət istiqamətləri barədə məlumat verərək, burada xüsusi qayğıya ehtiyacı olan tələbələr üçün təlim dəstəyi və reabilitasiya şəraiti yaradıldığını qeyd etmişdir.

Konfransın yekununda tədbirin təşkilatçıları və tərəfdaş universitetlərə təşəkkür plaketləri təqdim edilmiş, iştirakçılar NDU-nun Texnologiya Mərkəzində tələbələr tərəfindən hazırlanmış əl işləri ilə tanış olmuşlar.

Her discourse encompassed an in-depth analysis of the obstacles encountered in implementing inclusive education and strategic objectives for future development in this sphere.

Within the conference framework, additional representatives from Khazar University addressed various aspects of inclusive education. University instructor Aynur Abdullayeva presented on "Application of Polish Experience for Social Adaptation of Young Schoolchildren with Limited Health Capabilities," emphasizing methodologies for effectively integrating international best practices in this field.



The event culminated with the inaugural opening of the NSU Inclusive Education Center. The Center's Director, Associate Professor Taleh Khalilov, Ph.D. in Pedagogy, elucidated the center's mission and operational directions, highlighting the establishment of educational support and rehabilitation facilities specifically designed for students requiring specialized care. At the conclusion of the conference, commemorative plaques were presented to the organizers and partner universities in recognition of their contributions. Participants were subsequently invited to view handcrafted works prepared by students at NSU's Technology Center.

## "AGILE: YANAŞMALAR VƏ PRAKTİKİ TƏTBİQİ" ADLI SEMİNAR



*Ülvi Əsədli*



## "AGILE APPROACHES AND PRACTICAL APPLICATION" SEMINAR



Martın 6-da Xəzər Universitetinin İqtisadiyyat və Menecment departamentinin təşkilatçılığı ilə "AGILE Yanaşmalar və Praktiki Tətbiqi" mövzusunda seminar keçirildi.

Seminarın qonaq spikeri SOCAR Downstream şirkətinin Biznes Prosesləri Supervayzerı Ülvi Əsədli idi. Təcrübəli mütəxəssis tələbələrə Agile metodologiyasının əsas prinsipləri, bu yanaşmanın müasir biznes mühitində tətbiqi və üstünlükləri haqqında ətraflı məlumat verdi.

Tədbir zamanı Ülvi Əsədli real iş təcrübəsindən nümunələr gətirərək, Agile-in layihə idarəetməsində necə effektiv istifadə olunduğunu göstərdi. Xüsusilə Scrum və Kanban kimi populyar Agile metodlarının praktiki tətbiqinə diqqət yetirildi.

Seminarın interaktiv hissəsində iştirakçılar suallarını təqdim etdilər və müzakirələr aparıldı. Tələbələr əldə etdikləri nəzəri bilikləri təcrübədə necə tətbiq edə biləcəkləri barədə dəyərli məsləhətlər aldılar.



On March 6, a seminar on "AGILE Approaches and Practical Application" was organized by the Department of Economics and Management at Khazar University.

The guest speaker of the seminar was Ulvi Asadli, Business Process Supervisor at SOCAR Downstream. The experienced specialist provided detailed information to students about the main principles of Agile methodology, its application in the modern business environment, and its advantages.

During the event, Ulvi Asadli shared examples from his real work experience, demonstrating how Agile is effectively used in project management. There was a particular focus on the practical application of popular Agile methods such as Scrum and Kanban.

In the interactive part of the seminar, participants presented their questions and actively participated in discussions. Students received valuable advice on how to apply their theoretical knowledge in practice.

## "BURAXILIŞ İMTAHANINA PSİXOLOJİ HAZIRLIQ " ADLI VEBİNAR

## WEBINAR ON "PSYCHOLOGICAL PREPARATION FOR GRADUATION EXAMS"

Martın 7-də Xəzər Universiteti İsmayıllı rayonundakı Niyal kursları ilə birgə "Buraxılış imtahanına psixoloji hazırlıq" adlı vebinar keçirmişdir. Niyal kursları nın müdiri Həsən Məmmədov giriş sözü ilə çıxış etmiş və vebinarın əhəmiyyətini vurğulamışdır.

Vebinarda Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy universitetin tədris prosesi və təhsil imkanları barədə ətraflı məlumat vermişdir. Psixologiya departamentinin koordinatoru, psixoloq Mələk Kərimova vaxtın idarə edilməsi, imtahan prosesində həyəcanın aradan qaldırılması və səmərəli çalışma metodları ilə bağlı tövsiyələrini  vermiş, şagirdlərin suallarını cavablandırmışdır.

On March 7, Khazar University conducted a webinar on "Psychological Preparation for Graduation Exams" in collaboration with Niyal Courses in Ismayilli district. Hasan Mammadov, director of Niyal Courses, delivered opening remarks and emphasized the importance of the webinar.

During the webinar, Ulvi Babasoy, instructor from the Department of Languages and Literature, provided detailed information about the university's educational process and opportunities. Malak Karimova, coordinator of the Psychology Department and psychologist, gave recommendations on time management, reducing anxiety during exams, and effective study methods, and answered students' questions.

## TƏLƏBƏLƏR  METAK ŞİRKƏTİNDƏ



## STUDENTS AT METAK COMPANY

Martın 7-də Kimya və kimya mühəndisliyi departamentinin Kimya mühəndisliyi ixtisası üzrə təhsil alan 2-ci kurs tələbələri METAK şirkətində ekskursiyada olublar.  Tələbələr böyük Texnoloq Xaqani Nəsibovun rəhbərliyi və SƏTƏM üzrə mütəxəssis İsa Məmmədovun müşayiəti ilə istehsalat prosesi ilə yaxından tanış olublar.

Tələbələr istehsalat prosesini  izləyərək, sahə mütəxəssislərindən praktiki biliklər əldə ediblər.

On March 7, second-year students majoring in Chemical Engineering from the Department of Chemistry and Chemical Engineering visited METAK on an excursion. Under the guidance of Senior Technologist Khagani Nasibov and accompanied by HSE specialist Isa Mammadov, the students closely familiarized themselves with the production process.

By observing the manufacturing process, they gained practical knowledge from industry experts.

聖若瑟大學
UNIVERSITY OF SAINT JOSEPH
MACAO

## USJ PHD TƏDQİQAT SEMİNARINDA DR. MƏHƏMMƏD İMRAN DİL TƏHSİLİNDƏ SÜNİ İNTELLEKT MÖVZUSUNDA ƏSAS MƏRUZƏ İLƏ ÇIXIŞ EDİB

## DR. MUHAMMAD IMRAN DELIVERED THE KEYNOTE ADDRESS ON AI IN LANGUAGE EDUCATION AT THE USJ PHD RESEARCH SEMINAR

Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin adyunkt professoru Dr. Muhammad İmran fevralın 28-də USJ Təhsil PhD Tədqiqat seminarında "Təhsilin transformasiyası: süni intellekt tədris və öyrənməni necə dəyişdirir?" mövzusunda məruzə etmişdir. Seminar müxtəlif ölkələrdən gələn təqdimatçılar, USJ tədqiqatçıları, fakültə üzvləri və doktorantura tələbələrinin iştirakı ilə keçmişdir.



Makau`da Müqəddəs Cozef Universitetinin (USJ) Təhsil fakültəsi tərəfindən təşkil edilmiş bu seminar DOC104 - İnteqrativ Tədqiqat Seminarları proqramının bir hissəsidir və doktorantura tələbələrini müxtəlif tədqiqat sahələri ilə tanış etmək məqsədi daşıyır. Dr. İmran məruzəsində dil təhsilində Süni İntellektin (Sİ) inkişaf edən rolu haqqında dərin məlumatlar təqdim etmiş, onun tədris metodologiyalarına, tələbə iştirakına və gələcək təlim paradiqmalarına təsirini araşdırmışdır. Onun təqdimatı iştirakçılar arasında maraqlı müzakirələrə səbəb olmuş, akademiyada Sİ tərəfindən idarə olunan transformasiyalar haqqında tənqidi dialoqu təşviq etmişdir.

Dr. Muhammad Imran, Adjunct Professor in the Department of English Language and Literature, delivered a compelling keynote session on "Transforming Education: How Artificial Intelligence Changes Teaching and Learning?" on February 28th at the USJ Education PhD Research Seminar, attended by presenters from different countries, USJ researchers, faculty, and PhD students.

Organized by the School of Education at the University of Saint Joseph (USJ), this seminar is part of DOC104 - Integrative Research Seminars, designed to expose PhD students to diverse research areas. Dr. Imran’s session provided deep insights into the evolving role of Artificial Intelligence (AI) in language education, exploring its impact on teaching methodologies, student engagement, and future learning paradigms. His presentation sparked engaging discussions among attendees, fostering critical dialogue on AI-driven transformations in academia.




*Rahul Bhandari, Məhəmməd Nuriyev*

# O.P. JINDAL QLOBAL UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ “XƏZƏR”DƏ

# DELEGATION FROM O.P. JINDAL GLOBAL UNIVERSITY VISITS "KHAZAR"

Martın 3-də O.P. Jindal Qlobal Universitetinin (Hindistan) İnstitusional irəliləyiş və strateji qlobal əlaqələr ofisinin direktoru Rahul Bhandari və Reytinqlər, bençmarkinq və institusional transformasiya ofisinin baş meneceri Svapnil Bhosale ilə görüş keçirilmişdir.

Görüşdə Xəzər Universitetinin rektor vəsifəsini icra edən Prof. Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor Prof. İsaxan İsaxanlı, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Dr. Günel Bahəddinova, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər. Görüşdə ikitərəfli əlaqələrin qurulması istiqamətində müzakirələr aparılıb. Hər iki tərəf təmsil etdikləri universitetlər haqqında təqdimat nümayiş etdirərək, ətraflı məlumat veriblər.

Görüşün sonunda hədiyyələr təqdim olunub və xatirə şəkilləri çəkilib.

A high-level diplomatic engagement transpired on March 3, 2025, as representatives from O.P. Jindal Global University (India), including Rahul Bhandari, Director of the Office for Institutional Advancement and Strategic Global Relations, and



*Svapnil Bhosale*

Svapnil Bhosale, Senior Manager of the Office for Rankings, Benchmarking and Institutional Transformation, conducted an official visit to Khazar University. The substantive bilateral discussions were attended by a distinguished contingent of Khazar University officials, comprising Prof. Muhammad Nuriyev, Acting Rector; Prof. Isakhan Isakhanli, Vice-Rector for Administration and Student Affairs; Dr. Fakhranda Afandiyeva, Dean of the School of Science and Engineering; Dr. Gunel Bahaddinova, Dean of the Graduate School of Science, Art and Technology; Dr. Milana Abbasova, Head of the Department of English Language and Literature; Dr. Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy; and Fatima Valiyeva, Director of the International Relations Department. The productive dialogue centered on establishing comprehensive bilateral relations between the academic institutions. Each delegation delivered meticulous presentations, providing extensive insights into their respective universities. At the end of the meeting, gifts were presented and commemorative photos were taken.

# TURAN UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANIB

# COLLABORATION AGREEMENT SIGNED WITH TURAN UNIVERSITY




*Gulzhanat Tayauova, Məhəmməd Nuriyev*

Martın 5-də TURAN Universitetinin (Qazaxıstan Respublikası) Beynəlxalq əlaqələr üzrə prorektoru Dr. Gulzhanat Tayauova ilə görüş keçirilmişdir.

Görüşdə Xəzər Universitetinin rektor vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsaeva, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Dr. Günel Bahəddinova, Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Quliyev, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər.

Görüşdə ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə dair müqavilə imzalanıb, eləcə də təhsil müəssisələri arasında tərəfdaşlıq və əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılıb.

Görüşün sonunda hədiyyələr təqdim olunub və xatirə şəkilləri çəkilib.

On March 5, a high-level meeting was convened with Dr. Gulzhanat Tayauova, Vice-Rector for International Relations at TURAN University (Republic of Kazakhstan).

The strategic gathering was attended by a distinguished delegation from Khazar University, including Acting Rector Prof. Muhammad Nuriyev, Dean of the School of Economics and Management Dr. Raziya Isayeva, Dean of the School of Science and Engineering Dr. Fakhranda Afandiyeva, Dean of the Graduate School of Science, Art and Technology Dr. Gunel Bahaddinova, Head of the Department of History and Archaeology Associate Professor Telman Guliyev, Head of the Department of Political Sciences and Philosophy Associate Professor Orkhan Valiyev, Director of Public Relations and Media Alovsat Amirbayli, and Head of the International Relations Department Fatima Valiyeva. During the substantive discussions, a bilateral cooperation agreement was formalized, solidifying the institutional partnership. The comprehensive dialogue encompassed numerous avenues for strengthening collaborative initiatives and fostering academic synergies between the educational establishments. At the end of the meeting, gifts were presented and commemorative photos were taken.

## MƏDƏNİ ANTROPOLOGİYA VƏ FOLKLOR İNSTİTUTUNUN KOORDİNATORU *MƏDƏNİYYƏT TV*-DƏ

Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnsitutunun koordinatoru Dos. Aynur Qəzənfərqızı 2025-ci il martın 4-də *AZTV*-nin Mədəniyyət kanalında yayımlanan “Gözəlsən” verlişində çıxış edib.

Verlişin mövzusu “Novruz bayramı: Od çərşənbəsi” olub. A. Qəzənfərqızı Novruz bayramının dini xarakter daşımadığını və qədim inancların atəşpərəstliklə əlaqəsi olmadığını bildirib.

O, Novruzun folklor köklərindən danışaraq, Od çərşənbəsinin təbiət və insan həyatında simvolik mənasını izah edib.

Vurğulayıb ki, Novruz bayramı Azərbaycan xalqının mədəniyyət və ənənələrinin ayrılmaz hissəsidir, onun əsas dəyərləri nəsildən-nəsilə ötürülməlidir.

## CULTURAL ANTHROPOLOGY AND FOLKLORE INSTITUTE COORDINATOR ON *CULTURE TV*

Associate Professor Aynur Gazanfargizi, coordinator of Khazar University's Institute of Cultural Anthropology and Folklore, made a guest appearance on the "Gozalsan" program broadcast on *AZTV*'s Culture channel on March 4, 2025.

The program's theme centered on "Novruz Festival: Fire Tuesday." During her discourse, Gazanfargizi emphasized that the Novruz celebration bears no religious connotations and that its ancient beliefs have no connection to Zoroastrianism. Delving into the folkloric roots of Novruz, she elucidated the symbolic significance of Fire Tuesday in both nature and human existence.

The academic underscored that the Novruz festival constitutes an indispensable component of Azerbaijani cultural heritage and traditions, asserting that its fundamental values must be transmitted intergenerationally to preserve this cultural cornerstone for posterity.

*https://youtu.be/bANKCZhshlg?si=v8oUwB7dSX8-ARHY*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ *YENİ TV*-DƏ

## DEPARTMENT HEAD OF POLITICAL SCIENCE AND PHILOSOPHY ON *YENI TV*

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev 2025-ci il martın 7-də *Yeni TV*-də “Qardaşlıq, strateji tərəfdaşlıq və qarşılıqlı əməkdaşlıq” mövzusunda çıxış etmişdir. Çıxışında, Dos. Vəliyev Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri ilə bağlı gedən müzakirələrə dair öz dərin təhlil və fikirlərini paylaşmış, səfərin Azərbaycanın xarici siyasətindəki önəmini və ikitərəfli münasibətlərin inkişafına olan töhfəsini vurğulamışdır.

Link: *https://www.youtube.com/live/uBjH-ff76sA*

On March 7, the Head of the Department of Political Sciences and Philosophy, Assoc. Prof. Orkhan Valiyev, gave a speech on the topic “Brotherhood, Strategic Partnership, and Mutual Cooperation” on *Yeni Tv*. Assoc. Prof. Valiyev shared his in-depth analysis and views on the discussions surrounding President Ilham Aliyev's working visit to Türkiye, emphasizing the significance of the visit in Azerbaijan's foreign policy and its contribution to the development of bilateral relations.

Link: https://www.youtube.com/live/uBjH-ff76sA

VESTNIK ST. PETERSBURG UNIVERSITY, MATHEMATICS

# RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ “*VESTNİK OF SAİNT PETERSBURG UNİVERSİTY. APPLİED MATHEMATİCS. COMPUTER SCİENCE. CONTROL PROCESSES*” JURNALINDA

# JOINT ARTICLE BY MATHEMATICS DEPARTMENT PROFESSORS PUBLISHED IN "*VESTNIK OF SAINT PETERSBURG UNIVERSITY. APPLIED MATHEMATICS. COMPUTER SCIENCE. CONTROL PROCESSES*" JOURNAL

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlının və eyni departamentin professoru Biləndər Allahverdiyevin “Nonlinear impulsive Hahn-Sturm-Liouville problems on the whole line” (“Bütün oxda verilən qeyri-xətti impulsiv Han-Şturm-Liuvill məsələləri”) adlı birgə məqaləsi “*Vestnik of Saint Petersburg University. Applied Mathematics. Computer Science. Control Processes*” jurnalında (2024, Cild 30, № 4) dərc edilmişdur. Qeyd edək ki, “*Vestnik of Saint Petersburg University. Applied Mathematics. Computer Science. Control Processes*” jurnalı “Web of Science” və “Scopus” verilənlər bazalarında indekslənib.

Məqalədə singulyar impulsiv Han-Şturm-Liuvill məsələləri tədqiq edilir. Bütün oxda verilən Veyl limit-çevrə halında olan belə tənliklərin həllərinin mövcudluğu araşdırılır. Əvvəlcə bu məsələnin Qrin funksiyası qurulur və sərhəd məsələsi sabit nöqtə məsələsinə gətirilir. Daha sonra Banax sabit nöqtə teoremindən istifadə edilərək, baxılan məsələnin həllinin mövcudluğu və yeganəliyi isbat edilir. Nəhayət, həllin yeganəliyi olmadan mövcudluq teoremi əldə edilir.

Məqaləyə keçid:

A collaborative scholarly publication titled "Nonlinear impulsive Hahn-Sturm-Liouville problems on the whole line" authored by Academician Hamlet Isakhanli, founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, and Professor of the Mathematics Department, in conjunction with Professor Bilandar Allahverdiyev from the same department, has been featured in the prestigious "*Vestnik of Saint Petersburg University. Applied Mathematics. Computer Science. Control Processes*" journal (2024, Volume 30, Issue 4). It is noteworthy that this academic journal is indexed in both the "Web of Science" and "Scopus" databases.

Impulsive Hahn-Sturm-Liouville problems in singular cases are discussed in the so-called article. The existence of solutions of such equations on the whole axis and in the case of Weyl’s limit-circle has been investigated. First, the corresponding Green’s function is constructed. This boundary-value problem is thus reduced to a fixed point problem. Later, the existence and uniqueness of the solutions to this problem was demonstrated by using the traditional Banach fixed point theorem. Finally, an existence theorem without considering the solution’s uniqueness was derived.

Link to the article:

*https://applmathjournal.spbu.ru/article/view/18274*
*https://applmathjournal.spbu.ru/issue/view/992*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ "*AKADEMİK TARİH VE DÜŞÜNCE DERGİSİ*"NDƏ

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Tərlan Orucovanın "The Analysis of Multicultural Concept in Azerbaijani Medium Secondary School "Knowledge of World" Textbooks" ("Azərbaycan orta məktəblərindəki "Dünya biliyi" dərsliklərində çoxmədəniyyətlilik anlayışının təhlili") mövzusunda məqaləsi "*Akademik Tarih ve Düşünce Dergisi*"ndə dərc edilmişdir. (Cild 12, № 1, 2025, Səh.506-520).

Qeyd edək ki, "*Akademik Tarih ve Düşünce Dergisi*" ERIH PLUS və digər bir sıra indekslərə daxildir.

Məqavələyə keçid:

## ARTICLE BY LECTURER OF DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY IN "*ACADEMIC JOURNAL OF HISTORY AND THOUGHT*"

An article titled "The Analysis of Multicultural Concept in Azerbaijani Medium Secondary School "Knowledge of World" Textbooks" by Ph.D. Candidate Tarlan Orujova, lecturer of Khazar University's Department of Political Science and Philosophy has been published in "*Academic Journal of History and Idea*" (Volume 12, Issue 1, 2025, Page 506-520).

It should be noted that "*Academic Journal of History and Idea*" is included in a number of indexes, including ERIH PLUS.

Link to the article:

*https://dergipark.org.tr/tr/pub/atdd/issue/90310/1646377*

## TARİX VƏ ARXEOLOGİYA DEPARTMENTİ MÜƏLLİMLƏRİNİN DƏ HƏMMÜƏLLİFİ OLDUQLARI MƏQALƏ "*ARCHAEOLOGICAL RESEARCH IN ASIA*" JURNALINDA




## ARTICLE CO-AUTHORED BY HISTORY AND ARCHAEOLOGY DEPARTMENT FACULTY PUBLISHED IN "*ARCHAEOLOGICAL RESEARCH IN ASIA*" JOURNAL

Xəzər Universiteti Tarix və arxeologiya departmentinin müəllimləri Ülviyyə Səfərova və Dr.Yaqub Məmmədovun da həmmüəllifi olduqları "Human figurines in the Mesolithic-Neolithic transition of the South Caucasus: New evidence from the Damjili cave, Azerbaijan" ("Cənubi Qafqazın mezolit-neolit keçidində insan heykəlcikləri: Damcılı mağarasından yeni sübutlar") adlı məqalə Web of Science (WOS) və SCOPUS bazalarına daxil, Q1 kateqoriyalı "*Archaeological Research in Asia*" jurnalının 2025-ci il 42-ci cildində çap olunmuşdur.

Məqalə Damcılı mağarasında aparılan tədqiqatlar zamanı əldə olunmuş nadir qum daşından hazırlanmış fiqura həsr olunmuşdur. Qeyd edək ki, Kür və onun qonşuluğunda məlum mezolit abidələrindən buna bənzər heç bir insan heykəlcikləri əldə edilməmişdir. Nümunə mezolit-neolit keçidi probleminin araşdırılması sahəsində çox böyük əhəmiyyətə malikdir.

Məqalənin linki aşağıdadır.

An article titled "Human figurines in the Mesolithic-Neolithic transition of the South Caucasus: New evidence from the Damjili cave, Azerbaijan," co-authored by Khazar University History and Archaeology Department faculty members Ulviyya Safarova and Dr. Yaqub Mammadov, has been published in Volume 42 (2025) of the prestigious Q1-category journal "*Archaeological Research in Asia,*" which is indexed in both Web of Science (WOS) and SCOPUS databases.

The scholarly publication focuses on a rare sandstone figurine discovered during excavations at the Damjili cave. Notably, no comparable human figurines have been unearthed from known Mesolithic sites in the Kura River valley and its vicinity. This exceptional specimen holds tremendous significance for investigating the complex transition between the Mesolithic and Neolithic periods in the region.

The link to the full article is provided below.

*https://www.sciencedirect.com/science/article/abs/pii/S2352226725000212*

## AIESEC AZƏRBAYCAN TƏŞKİLATININ TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ

Martın 7-də Xəzər Universiteti Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə Xəzər Universitetinin Neftçilər, Nərimanov və Bakıxanov korpuslarında AIESEC Azərbaycan təşkilatı tərəfindən Universitetin tələbələri üçün İnfodesk təşkil olunmuşdur.

AIESEC təşkilatının məqsədi beynəlxalq və yerli təcrübə proqramları vasitəsilə gənclərin liderlik, satış, marketinq, layihə idarəetməsi, maliyyə, insan resursları kimi bir çox sahədə olan bacarıqlarını üzə çıxarmaq və inkişaf etdirməkdir.



*Jalə Zeynalzadə*

AIESEC Azərbaycan 3 mübadilə proqramı həyata keçirir: "Global Volunteer" (Qlobal Könüllü), "Global Teacher" (Qlobal Müəllim) və "Global Talent" (Qlobal İstedad). Artıq 17 ildir ki, AIESEC Azərbaycan təşkilatı minlərlə gənci mübadilə proqramları vasitəsilə xaricə göndərərək və xaricdən qəbul edərək Azərbaycan cəmiyyətinin inkişafında aktiv şəkildə iştirak edir.

Görüş zamanı Lokal komitə üzrə marketinq və ictimaiyyətlə əlaqələr üzrə direktor Jalə Zeynalzadə, marketinq meneceri Aysu Həmzəyeva, layihə meneceri Ruslan Cabbarov və digərləri təşkilatın həyata keçirdiyi mübadilə proqramları haqqında tələbələrə ətraflı məlumat verdilər, onları maraqlandıran sualları cavablandırdılar.

## AIESEC AZERBAIJAN ORGANIZATION MEETS WITH STUDENTS

On March 7, an Info Desk was organized for Khazar University students by AIESEC Azerbaijan at the University's Neftchilar, Narimanov, and Bakikhanov buildings, coordinated by the Career and Alumni Center of Khazar University.

The goal of AIESEC is to uncover and develop young people's skills in many areas such as leadership, sales, marketing, project management, finance, and human resources through international and local experience programs.

AIESEC Azerbaijan implements three exchange programs: "Global Volunteer," "Global Teacher," and "Global Talent."

For 17 years, AIESEC Azerbaijan has been actively participating in the development of Azerbaijani society by sending thousands of young people abroad and hosting foreign participants through exchange programs.

During the meeting, Jala Zeynalzadeh, Director of Marketing and Public Relations for the Local Committee, Aysu Hamzayeva, Marketing Manager, Ruslan Jabbarov, Project Manager, and others provided detailed information to students about the exchange programs implemented by the organization and answered their questions.

## XƏZƏR UNİVERSİTETİNİN VEBSAYTLARINDA YERLƏŞDİRİLMİŞ XƏBƏRLƏR HAQQINDA MÜQAYİSƏLİ MƏLUMAT

Xəzər Universitetinin vebsaytı (www.khazar.org): 2008 - 2024 - cü illər

**2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547; 2017 – 702; 2018 – 700; 2019 – 775; 2020 – 516; 2021 – 705; 2022 – 690; 2023 – 750; 2024-800.**

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının vebsaytı (www.hisaxanli.org): 2009 - 2024 - cü illər

**2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158; 2017 – 126; 2018 – 175; 2019 – 121; 2020 – 77; 2021 – 117; 2022 – 113; 2023 – 127; 2024 –181**

**"Xəbər-News"qrupu**

## COMPARATIVE INFORMATION ABOUT THE NUMBER OF NEWS POSTED ON UNIVERSITY'S WEBSITE

Khazar University Website (www.khazar.org): 2008-2024

**2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547; 2017 – 702; 2018 – 700; 2019 – 775; 2020 – 516; 2021 – 705; 2022 – 690; 2023 – 750; 2024-800.**

Website of Professor Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees (www.hisaxanli.org): 2009-2024

**2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158; 2017 – 126; 2018 – 175; 2019 – 121; 2020 – 77; 2021 – 117; 2022 – 113; 2023 – 127; 2024 –181**

**"Khabar-News" group**

# FİKRƏT ƏMİROV I ÜMUMRESPUBLİKA MUSİQİ FESTİVALI ÇƏRÇİVƏSİNDƏ XƏZƏR UNİVERSİTETİ KAMERA ORKESTRİNİN KONSERTİ



Martın 8-də Beynəlxalq Muğam Mərkəzində Fikrət Əmirov I Ümumrespublika Musiqi Festivalı çərçivəsində Xəzər Universiteti Kamera orkestrinin konserti oldu. Konsertdə həm Kamera orkestrinin bədii rəhbəri, Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqovanın müşayiəti, həm də orkestrin müşayiəti ilə Fikrət Əmirovun əsərləri ifa olundu. Konsertdə səs-

On March 8, the Khazar University Chamber Orchestra performed at the International Mugham Center as part of the First Fikret Amirov Republic-wide Music Festival. The concert featured compositions by Fikret Amirov performed both with accom-paniment by the Chamber Orchestra's artistic director, head of Khazar University's Music and



*İbrahim Quliyev*



*Nigar Əsgərova*

# CONCERT BY KHAZAR UNIVERSITY CHAMBER ORCHESTRA WITHIN THE FRAMEWORK OF FIRST FIKRET AMIROV REPUBLIC-WIDE MUSIC FESTIVAL



*Əliəhməd İbrahimov*

ləndirilən əsərləri kamera orkestri üçün işləyən bəstəkar Sevda Rəhimovadır.

Beynəlxalq Muğam Mərkəzinin solistləri – Kamilə Nəbiyeva "Gecə keçdi", Ayşən Mehdiyeva "Lay-lay", Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Günel Hacıyeva "Gülüm", əməkdar artist Əliəhməd İbrahimov "Evləri var xana-xana" mahnılarını, Nigar Əsgərova "Azərbaycan elləri", İbrahim Quliyev "Gülərəm gülsən", Nuray Şuşalı "Mən səni araram", Nurlan Gəncili qoboy və fortepiano üçün "Qızların rəqsi"ni ifa etdilər. Sonda "Min bir gecə" baletindən "Şəhrizadın bayramı" ifa olundu.

Konsert tamaşaçıların alqışları ilə başa çatdı.



*Nurlan Gəncili*

Arts Department, honored teacher and renowned pianist Zulfiyya Sadigova, as well as with full orchestral accompaniment. Composer Sevda Rahimova arranged the performed works for chamber orchestra.

Soloists from the International Mugham Center – Kamila Nabiyeva performed "Night Has Passed," Ayshan Mehdiyeva performed "Lullaby," soloist of the Azerbaijan State Academic



*Nuray Şuşalı*

Opera and Ballet Theater Gunel Hajiyeva performed "My Flower," and honored artist Aliahmed Ibrahimov performed "Houses with Chambers." Additionally, Nigar Asgarova performed "Lands of Azerbaijan," Ibrahim Guliyev performed "I'll Smile if You Smile," Nuray Shushali performed "I Will Search for You," and Nurlan Ganjili performed "Dance of the Girls" for oboe and piano. The concert concluded with "Scheherazade's Celebration" from the ballet "A Thousand and One Nights."

The concert concluded amid enthusiastic applause from the audience.





Sevil Fuks

## "SATİRA BAYRAMI"

Martın 10-da Xəzər Universitetinin Mərmər zalında Memarlıq və dizayn departamenti tərəfindən təşkil olunmuş "Satira bayramı" adlı seminarın qonağı tanınmış karikaturaçı rəssam Rızvan Quliyevin qızı Sevil Fuks Azərbaycan karikatura sənətinin ilk nəsil nümayəndəsi olan atasının yaradıcılığını geniş şəkildə təqdim etmişdir.

Təqdimatda S. Fuks "Kirpi" jurnalının 1952-1991-ci illər arasındakı təxminən 40 illik dövrünü ətraflı şəkildə analiz edərək, jurnalın Azərbaycan mətbuatındakı yerini, rolunu və cəmiyyətə olan təsirini vurğulamışdır. "Kirpi" jurnalı yalnız dövrün aktual məsələlərini satirik şəkildə işıqlandırmaqla



## "CELEBRATION OF SATIRE"

On March 10, the Marble Hall of Khazar University hosted a distinguished seminar titled "Celebration of Satire," organized by the Department of Architecture and Design. The featured guest, Sevil Fuks, daughter of renowned caricaturist Rizvan Guliyev, delivered a comprehensive presentation on her father's artistic legacy as a pioneering figure in Azerbaijani caricature art.

During her erudite exposition, Ms. Fuks conducted an exhaustive analysis of the "Kirpi" (Hedgehog) magazine's influential four-decade span from 1952 to 1991, emphasizing its significant position, function, and societal impact within Azerbaijani press. The publication distinguished itself not merely through its satirical illumination of contemporary issues but also through its incisive satirical approach to social and political challenges, thereby occupying a pivotal role in societal development.

Ms. Fuks, an Azerbaijani expatriate residing in Germany, has published several German-language volumes dedicated to promoting Azerbaijani culture, including "Nizami-Bibliography," "Nizami in Poetry and Prose," and "Fitna," all focusing on the illustrious Azerbaijani poet Nizami Ganjavi. The design and illustrations for "Fitna" were crafted by Iskandar Mammadov, a faculty member of Khazar University's Department of Architecture and Design.

Among the attendees, Fuad Akhundov, a journalist and researcher of Baku's history, highlighted the substantial journalistic significance of "Kirpi" magazine during its publication era and acknowledged Rizvan Guliyev's considerable contributions to caricature artistry, while commending the thoroughness of Ms. Fuks's presentation.

The event catalyzed extensive discussions from both artistic and historical perspectives, reaffirming for participants the magazine's crucial societal role.

The gathering concluded with Ms. Fuks generously donating her published works to the Khazar University library.



*Fuad Axundov*

deyil, eyni zamanda sosial və siyasi problemlərə satirik yanaşması ilə də cəmiyyətin inkişafında mühüm yer tutmuşdur.

Almaniyada yaşayan həmvətənlimiz Sevil Fuks Azərbaycanı tanıtmaq məqsədilə dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığına aid “Nizami-biblioqrafiya”,”Nizami nəzm və nəsrdə”, “Fitnə” kitablarını alman dilində nəşr etdirib. “Fitnə” kitabının dizayn-illustrator işi Xəzər Universitetinin Memarlıq və dizayn departamentinin müəllimi İskəndər Məmmədova aiddir.



*Şəhla Abbasova*




Tədbir qonaqlarından jurnalist və Bakı tarixi üzrə tədqiqatçı Fuad Axundov çıxışında "Kirpi" jurnalının zamanında jurnalistikada böyük əhəmiyyətə malik olduğunu, Rizvan Quliyevin karikatura sənətinə töhfələrini vurğulamış və Sevil Fuksun çıxışının çox ətraflı olduğunu diqqətə çatdırmışdır.

Tədbir həm sənət, həm də tarix baxımından geniş müzakirələrə yol açmış və iştirakçılara "Kirpi" jurnalının cəmiyyətdəki mühüm yerini bir daha xatırlatmışdır.

Tədbirin sonunda Sevil Fuks nəşr etdiyi kitabları Xəzər Universitetinin kitabxanasına hədiyyə etmişdir.

## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




### "AZƏRBAYCANIN QADIN YAZARI – MƏNZƏR NİYARLI" KİTABI ÇAP EDİLİB

AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Şəhla Hüseynlinin AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutun böyük elmi işçisi, yazıçı Mənzər Niyarlının bədii yaradıcılığı haqqında müxtəlif illərdə qələmə alınmış elmi məqalə və esselərdən ibarət "Azərbaycanın qadın yazarı – Mənzər Niyarlı" adlı kitabı çapdan çıxıb.

Topluda Azərbaycan Yazıçılar Birliyinin üzvü Mənzər Niyarlı haqqında otuza yaxın professor, alim və yazıçının xanım yazarın yaradıcılığına həsr etdikləri məqalələr yer alıb.

AMEA-nın professoru, filologiya elmləri doktoru Salidə Şərifova topluya yazdığı "Ön söz"ündə Mənzər Niyarlının bədii yaradıcılıq fəaliyyətini yüksək dəyərləndirmiş və ədəbi-elmi cameənin diqqət mərkəzində olmasını vurğulamışdır: ""Həmin axşam", "Yarımçıq məzuniyyət", "Qara örpək", "Oğuz gözəlləməsi", "Qızıl Qaval", "Seçilmiş əsərlər", "Qürbətə aparan qatar" (rus dilində), "Əkizlər və onların fındıqburun bacıları", "Vətəndən vətənə", "Dügün gününün sabahı" (türk dilində), "Sənətin sehri" və s. kimi kitabların müəllifi Mənzər Niyarlının əsərlərində çatdırmaq istədiyi ideyaları kamil səviyyədə çatdırmasının şahidi oluruq. Mənzər Niyarlı qələmə aldığı bədii nümunələrlə öz imzasını Azərbaycan ədəbiyyatına həkk etdirməsi yazıçının sənətkarlığının göstəricisidir".

Toplunun elmi redaktoru və ön sözün müəllifi filologiya elmləri doktoru, AMEA-nın professoru Salidə Şərifova, rəyçiləri AMEA-nın müxbir üzvü, professor Tehran Əlişanoğlu və filologiya üzrə fəlsəfə doktoru, dosent Safura Quliyevadır.

## BƏXTİYAR VAHABZADƏNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ ELMİ SESSİYA



*Əlizadə Əsgərli, Cavanşir Feyziyev, Esmira Fuad, İsa Həbibbəyli, Elnarə Akimova, Vaqif Yusifli, Aygün Bağırlı*

Ədəbiyyat İnstitutunda Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyinə həsr olunmuş "Ədəbiyyatımızın Bəxtiyarı" adlı elmi sessiya keçirilib. Tədbirdə millət vəkilləri, tələbələr, media mənsubları və başqaları iştirak ediblər. Əvvəlcə şairin həyat və fəaliyyətini əks etdirən sərgiyə baxış olub, kitabları nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli açıb. Akademik İsa Həbibbəyli müasir Azərbaycan ədəbiyyatının ən parlaq simalarından olan Bəxtiyar Vahabzadənin mübariz şəxsiyyəti və çoxşaxəli yaradıcılığı ilə bədii fikrimizin zənginləşməsində mühüm rol oynadığını bildirib. O, bugünkü elmi sessiyanın Prezident İlham Əliyevin "Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında" 21 fevral 2025-ci il tarixli Sərəncamının işığında ölkə üzrə şairin yubileyinə həsr olunan ilk tədbir kimi böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Bəxtiyar Vahabzadə istiqlal ədəbiyyatımızın bayraqdarı, Azərbaycan istiqlal hərəkatının görkəmli nümayəndəsidir. Qüdrətli şair daim milli azadlıq və istiqlal eşqi ilə yaşayıb, XX əsrdə ana dilimiz haqqında ən cəsarətli şeiri yazıb.

Bəxtiyar Vahabzadəni fəlsəfi və böyük vətəndaşlıq poeziyasının yaradıcısı kimi xarakterizə edən AMEA prezidenti onun zəngin poetik söz dünyasının milli çalarlarından danışıb, ədibin fəal vətəndaşlıq mövqeyi ilə fikirlərini cəsarətlə qələmə aldığını bildirib. Vurğulayıb ki, Bəxtiyar Vahabzadə milli azadlıq hərəkatında ən fəal ziyalılardan, azadlıq mücahidlərindən olub. Şairin poeziyası milli istiqlal, azadlıq uğrunda savaş müstəvisində tarixi yaşadan, istiqlal, azadlıq, haqq-ədalət, dirəniş, mübarizə yoluna, yolçuluğuna yönələn poeziyadır. Onun dramaturgiyası da fəlsəfi məzmun daşıyır.

Çıxışının sonunda akademik İsa Həbibbəyli şairin Azərbaycan və türk dünyası üçün böyük söz adamı olduğunu, yaradıcılığının oxucular tərəfindən sevilərək oxunduğu söyləyib. O, görkəmli sənətkarın 100 illik yubileyi ilə bağlı AMEA-nın elmi müəssisə və təşkilatlarında, regional elmi bölmə və mərkəzlərində silsilə tədbirlərin keçiriləcəyini, yeni nəşrlərin hazırlanacağını bildirib.

Sonra çıxış edən millət vəkili Cavanşir Feyziyev Bəxtiyar Vahabzadənin Azərbaycanın və dünyanın ən qüdrətli şairləri sırasında layiqli yer tutduğunu bildirib, Türk dünyasının da dərdlərini daima özünəməxsus istedad və cəsarətlə qələmə aldığını deyib.

Elmi sessiyada filologiya elmləri doktorları Vaqif Yusifli "Poeziyamızın Bəxtiyarı", Elnarə Akimova "Bəxtiyar Vahabzadənin poetik məni", Əlizadə Əsgərli "Bəxtiyar Vahabzadə yaradıcılığında insan konsepsiyası" və Esmira Fuad "Bəxtiyar Vahabzadənin yaradıcılığında ana dili mövzusu" adlı məruzələrlə çıxış ediblər.

**Gülnar Səma**
**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,**
**İctimaiyyətlə əlaqələr şöbəsi**



Əlirza Balayev

# TÖHMƏTDƏN TÖHMƏTƏ

*("Həyatın hər üzü" adlı sənədli romandan hissə)*

*Əvvəli jurnalın 447-ci (fevral 2025-ci il) nömrəsində*

## Sonrakı töhmətlər: yeni iş yerində

Sonrakı töhmətlərim "Azərbaycan pioneri"-"Пионер Азербайджана" qəzetinin redaktoru (bir müddət sonra mənim təklifimlə Azərbaycan LKGİ MK-nın qərarı ilə komsomolun mətbuat orqanlarının rəhbərləri "baş redaktor" adlandırıldı) işlədiyim dövrə təsadüf edir. İş yerimi dəyişməyim həm də özümdən asılı oldu və qısa tarixçəsi.

Sov. İKP MK katibliyi müttəfiq respublikalarda pioner qəzetlərinin rusdilli variantları ilə çap olunması haqqında qərar qəbul etmişdi. Bu o vaxt idi ki, "Azərbaycan gəncləri" redaksiyasında yaranmış vəziyyətə görə işdən getməyi qərarlaşdırmışdım. Çox güman ki, partiya Mərkəzi Komitəsinin Təbliğat və Təşviqat Şöbəsində də bu barədə məlumatlı idilər. Şöbənin sektor müdiri Vahid Əziz (hazırda Azərbaycanın Xalq şairi Vahid Əziz; mətbuatda işə başladığım vaxtdan səmimi münasibətimiz olan Vahid) zəng edib, yeni yaranmaqda olan "Azərbaycan pioneri"-"Пионер Азербайджана" qəzetində redaktor vəzifəsini təklif etdi. Bəlkə, təşəbbüskar da özü idi. Qeyd edim ki, komsomolun Mərkəzi Komitəsinin iki redaktoru ("Azərbaycan gəncləri" və "Молодёжь Азербайджана") partiya MK bürosunun nomenklaturasına daxil idi, digərləri də partiyanın Mərkəzi Komitəsi ilə razılaşdırılaraq təyin edilirdi.

Azərbaycan LKGİ MK-nın birinci katibi Sahib Ələkbərov (hazırda Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini) zəng etdi. Hiss etdim ki, iş yerimi dəyişməyim Sahib müəllimin ürəyindən deyil. Lakin məni dinləyib fikrimi biləndən sonra razılıq verdi.

Qəzetin redaktoru, görkəmli uşaq yazıçısı, nəcib insan, dostumuz Əmrah müəllim iş otağıma gəldi. Dedi ki, rus dilini yaxşı bilmədiyinə görə yerinə başqasının təyin olunması üçün komsomolun Mərkəzi Komitəsinə müraciət edib və mənə bu vəzifədə onu əvəz etməyi məsləhət bildi.

Bu iş mənim ampluam olmasa da, vəziyyətdən çıxış yolu kimi müvəqqəti olacağı ümidi ilə razılaşmışdım.

Sov. İKP MK-nın qərarından sonra ikidilli qəzet ÜİLKGİ MK-nın nomenklaturasına daxil edildiyinə görə təsdiq olunmaq üçün Moskvaya göndərildim. Azərbaycan LKGİ MK bürosunun 28 may 1987-ci il tarixli qərarı ilə "Aərbaycan pioneri" - "Пионер Азербайджана" qəzetinin redaktoru vəzifəsinə təyin edildim, sonra MK-nın plenumunda təsdiq olundum. Əmrah müəllim redaksiyada baş məsləhətçi kimi işini davam etdirdi.

# Doğma məkanda

...Səksən səkkizinci ilin payızına doğru respublikada ictimai-siyasi vəziyyət getdikcə mürəkkəbləşirdi. Vüsət almaqda olan demokratik hərəkat Ermənistanın və Dağlıq Qarabağ ermənilərinin Azərbaycan dövlətçiliyinə və xalqına qarşı törətməkdə olduqları təxribat nəticəsində ümummilli xarakter daşımağa başlayırdı. Noyabrın 17-də Hökumət evinin qarşısında başlanan Meydan hərəkatı bu kütləvi narahatçılığın məntiqi nəticəsi idi.

Biz – "Azərbaycan pioneri"-"Пионер Азербайджана" qəzetinin əməkdaşları da işdən sonra meydana gəlir, xalqla bir yerdə olurduq və təbii ki, qəzet üçün yazılar hazırlanırdı. Qəzet öz imkanları daxilində, bəzən də bu imkanları aşaraq, respublikada cərəyan edən hadisələrə münasibət bildirməklə uşaq və yeniyetmələrdə milli şüurun və milli təəssübün daha da güclənməsinə çalışırdı. Qəzetin bu fəaliyyəti Azərbaycandakı oxucularımız tərəfindən rəğbətlə qarşılanırdı. Lakin "Пионер Азербайджана" qəzetinə ölkə üzrə abunə aparıldığına görə, SSRİ-nin müxtəlif bölgələrindən məktub alırdıq. Həmin günlərdə Rusiya Federasiyasından hiddət və qəzəb dolu teleqram və məktublar gəlməyə başladı.



*Sahib Ələkbərov, Seyran Seyranov (Azərbaycan LKGİ MK katibi), Əlirza Balayev, Yusif Kərimov*

Noyabrın 25-də qəzetin şöbə müdiri Akif Aslanın "Решительность сыновей страны огней" ("Odlar yurdu övladlarının qətiyyəti"), 30-da isə redaktor müavini Valeh Mirzənin daha iri həcmli və daha kəskin "Наш путь единственно – верный" ("Millət yoludur, haqq yoludur tutduğumuz yol") adlı məqalələri çap olundu. Valeh Mirzənin məqaləsinə gözəl bir foto vermişdik, tarixi bir foto... Hökumət evi meydanındakı neçə yüz min nəfərlik mitinqdə çıxış etmək istəyən, lakin boyu mikrofona çatmadığı üçün şair Nüsrət Kəsəmənlinin yuxarı qaldırdığı məktəbli qız Vəfa... Qəzetdə məktəblilərin ermənilərə hiddət bildirən məktubları da dərc olunurdu.

**Noyabrın 30 da Rusiyanın Çelyabinsk vilayətinin Çebarkul şəhərindən redaksiyaya teleqram:**

"Город Баку. Газета "Пионер Азербайджана". Отдел писем. К вам обращаются школьники Урала. Друзья, мы призываем вас не поддерживать шовинизм взрослых. Призываем защищать

жизнь каждого человека. Вы влияйте на взрослых. Они должны решать все мирным путём. Долой смерть и насилие.

**Клуб интернациональной дружбы "Рланета друзей", школа номер 4. г. Чебаркуль, Челябинской области."**

(Tərcüməsi: *"Bakı şəhəri. "Пионер Азербайджана" qəzeti. Məktublar şöbəsi. Sizə Ural məktəbliləri müraciət edir. Dostlar, biz sizi yaşlıların şovinizmini müdafiə etməməyə çağırırıq. Hər bir insanın həyatını qorumağa çağırırıq. Siz böyüklərə təsir göstərin. Onlar hər şeyi sülh yolu ilə həll etməlidirlər. Rədd olsun ölüm və zorakılıq.*

**Beynəlmiləl dostluq klubu "Dostların planeti", 4 nömrəli məktəb. Çebarkul şəhəri, Çelyabinsk vilayəti.**)"

Rusiyanın Kaluqa şəhərindən göndərilmiş məktubun Valeh Mirzənin məqaləsindən sonra yazıldığı bilinir.

**Həmin məqalədən**: "События в Карабахе и вокруг него никого не оставили равнодушным... И это такой грех, такое преступление, что никогда не будет прощения совершившим его. Они будут прокляты так же, как и фашисты!"

(*Tərcüməsi: "Qarabağ və onun ətrafındakı hadisələr böyükdən-kiçiyə hamını düşündürür... Bu elə bir günahdır ki, bu elə bir cinayətdir ki, tarix onu heç vaxt, heç kimə bağışlamayacaq. Bu elə bir cinayətdir ki, onu törədənləri faşist kimi lənətləyəcəklər"*).

Göründüyü kimi, sovet mətbuatında **Erməni**-ni "**Faşist**" adlandıran ilk və yeganə qəzet "Azərbaycan pioneri"-"Пионер Азербайджана" olmuşdur.

Uraldan gələn teleqramdan fərqli olaraq, Kaluqadan olan məktub kəskin və təhqiramiz idi.

**"А. Балаеву!**

Товарищи из газеты "Пионер Азербайджана"! Пишет вам классный руководитель группы одного из техникумов г. Калуги. Прошу вас ответить на мой вопрос, точнее несколько.

Первый: почему вы не любите детей? Ведь обучая их ненависти, вы убиваете в детях человечность, любовь, достоинство.

И еще один вопрос. Почему вы в газете пишете фашистские лозунги? Кто дал вам это право? Или ваши родные не гибли в Великой Отечественной?

Почему все ваши газеты не написаны крупными красными буквами: "Советские люди – братья!" Или вы уже несоветские в своей пионерской газете? Вы сволочи, не уважающие людей, озверевщие в своих статьях! Простите за антипедагогику, но вы этого заслужили и незнаю сможете ли вы смыть свой позор и заслужить уважение людей советских – всех национальностей. 2.XII-88."

(Tərcüməsi: *"Ə.Balayevə! "Пионер Азербайджана" qəzetindən olan yoldaşlar! Sizə Kaluqa şəhərindəki texnikumlardan birində qrupun sinif rəhbəri olan şəxs yazır. Mənim sualıma, daha dəqiqi, bir neçə sualıma cavab verin.*

*Birincisi: siz niyə uşaqları sevmirsiniz? Axı siz onlara nifrət etməyi öyrətməklə uşaqlarda insaniyyəti, sevgini, ləyaqəti öldürürsünüz.*

*Daha bir sual: niyə siz qəzetdə faşist şüarları yazırsınız? Bu hüququ kim sizə verib? Yoxsa sizin doğmalarınız Böyük Vətən Müharibəsində həlak olmayıb? Niyə sizin bütün qəzetlər iri qırmızı hərflərlə yazmırlar ki, "Sovet adamları – qardaşdırlar"! Yoxsa siz artıq öz pioner qəzetinizdə sovet adamı deyilsiniz? Siz insanlara hörmət etməyən, məqalələrinizdə vəhşiyə çevrilmiş alçaqlarsınız! Antipedaqojiliyə görə bağışlayın, lakin siz buna layiqsiniz və bilmirəm bu ləkəni öz üzərinizdən yuya biləcəksinizmi ki, bütün millətlərdən olan sovet adamlarının hörmətini qazanasınız". 2.XII-88."*).

Məktubu, yəqin ki, düşünərək – qəsdən beynəlmiləlləşdirərək, müxtəlif millətlərdən olanlar (aralarında 3 nəfər azərbaycanlı da var idi) imzalayıblar – 27 nəfər. Lakin diqqət yetirməyiblər ki, aralarında erməni yoxdur.

"Или ваши родные не гибли в Великой Отечественной?" sualına cavab olaraq qeyd edim ki, ailənin sonbeşiyi olan kiçik əmim Hüseynbala Baladayı oğlu Böyük Vətən Müharibəsində həlak olub. Adı

"Azərbaycan Respublikası Xatirə Kitabı"na salınıb (*Azərbaycan Respublikası Xatirə Kitabı, 5-ci cild, Azərbaycan Respublikası Xatirə Kitabı Redaksiyası, Bakı – 2005, s. 512*).

Redaksiyaya belə müraciətlərin müəlliflərini başa düşmək lazım idi. Bir tərəfdən sovet beynəlmiləl tərbiyə sistemi görmüş, digər tərəfdən ermənilərin necə bir əlahiddə tayfa olmaları haqda heç bir təsəvvürü olmayan bu adamlar hadisənin mahiyyətini anlaya bilməzdilər. Hərçənd ki, elə rus klassiklərinin (Puşkin, Lermontov, Veliçko və b.) bəzi əsərləri onlardan gizlədilməsəydi, həmin əsərlərlə tanış olsaydılar, ermənilər haqqında bəzi həqiqətləri öyrənə bilərdilər.

Qəzetin dərc etdiyi məqalələr Bakıda olan Moskva jurnalistlərinin və komsomolun Mərkəzi Komitəsində əyləşmiş ÜİLKGİ MK işçilərinin nəzərindən yayına bilməzdi. Elə həmin günlərin birində səhər iş otağıma daxil olan kimi telefon zəng çaldı. Səmimi münasibətimiz olan şair Çingiz Əlioğlu idi. Çingiz redaksiya ilə həmrəyliyini bildirirdi, mənsə söhbətin nədən getdiyini bilməsəm də, ona minnətdarlıq etdim.

Qəzetlərə baxmağa başladım. "Комсомольская правда"nın həmin günkü – 1988-ci il 1 dekabr tarixli nömrəsində "Меньше эмоций, больше мудрости!" (*"Emosiyaları azaltmalı, müdrikliyi çoxaltmalı"*) adlı məqaləni görəndə Çingizin nə üçün zəng etdiyini anladım. O yaxşı bilirdi ki, Moskvada qığılcım alışanda, Bakıda tonqal qalanır.

Sonra AMEA-nın institutlarından, orta və ali təhsil məktəblərindən, digər təşkilatlardan, dostlardan, oxuculardan zənglər oldu. "Комсомольская правда" qəzetinin redaksiyasına məqalə əleyhinə teleqramlar göndərdiklərini bidirirdilər və s.

"**Комсомольская правда"nın xüsusi müxbirləri A. Romanov və A. Teplyuk** (*А. Романов, А. Теплюк*) **məqalədə yazırdılar**:

"На площади ежедневно бывают сотни тысяч человек. Среди них множество ребятишек... Они с радостью примкнули к старшим братьям и сестрам на митингах... и пропускают занятия. Мальчишка выкрикивает, а старшие умиляются.

Нас потрясла заметка в газете "Пионер Азербайджана" с подзаголовком "Решительность сыновей страны огней" (25 ноября 1988 г.).

"Среди демонстрантов есть и ваши сверстники, – с восторгом пишет Акиф Асланоглы. – В большинстве бакинских школ занятия прерваны. Ребята группами сбегаются на площадь, не желая отставать от родителей, старших братьев и сестер. Несоответствующие возрасту этих прекрасных ребят-патриотов гнев, тревога, решимость, чистые и ясные взгляды трогают сердца, и мы с гордостью говорим: "Молодцы".

А далее – попросту подстрекательский пассаж: "... Когда родина попадает в беду, когда на ее земли посягают, потомки Бабека, Кёр-оглы, Наби и Хаджар готовы на борьбу и подвиг во имя народа". И ни слово о том, что на занятия школьники обязаны ходить. Может быть, ЦК ЛКСМ, Республиканский совет пионерской организации Азербайджана дадут должную оценку "патриотизму в коротких штанишках", проявленному автором и редактором газеты А. Балаевым?!"

(Tərcüməsi: *"Meydanda hər gün yüz minlərlə adam olur... Onlar sevinclə mitinqlərdəki böyük qardaş və bacılarına qoşulublar... Və dərsə getmirlər. Oğlan uşağı var səsilə qışqırır, böyüklərsə riqqətə gəlirlər.*

*"Пионер Азербайджана" qəzetində "Odlar yurdu oğullarının qətiyyəti" sərlövhəli yazı canımıza üşütmə saldı. (25 noyabr 1988-ci il).*

*Akif Aslanoğlu şövqlə yazır: nümayişçilər arasında sizin yaşıdlarınız da var. Bakı məktəblərinin əksəriyyətində dərslər kəsilib. Uşaqıar öz valideynlərindən, böyük qardaş və bacılarından geri qalmağı istəməyərək, dəstələrlə meydana axışırlar. Bu gözəl uşaqların yaşlarına uyğun olmayan qəzəbi, həyəcanı, qətiyyəti, saf və aydın baxışları qəlbləri riqqətə gətirir və biz fəxrlə deyirik: əhsən!*

*Sonra, sadəcə olaraq, qızışdırıcı passaj gəlir: "... Vətən ağır vəziyyətə düşəndə, onun torpaqlarına əl uzadanda Babək, Koroğlu, Nəbi və Həcərin davamçıları vətən naminə mübarizəyə və igidliyə hazırdırlar." Məktəblilərin dərsə getmək vəzifəsi haqqında bir kəlmə də yoxdur. Yəqin ki, LKGİ MK, Azərbaycan Pioner Təşkilatının Respublika Şurası müəllif və qəzetin redaktoru Ə. Balayev tərəfindən nümayiş etdirilən "qısa şalvarlı vətənpərvərliyə" lazımı qiymət verərlər"*).

Göründüyü kimi, rus jurnalıstləri "qısa şalvarlı vətənpərvərlik" deməklə məqalənin müəllifini və məni məsxərəyə qoyurdular. Halbuki, dünya mütəfəkkirlərinin deyil, elə rus pedaqoqları Uşinski`nin

(*Константин Дмитриевич Ушинский*), Makarenko`nun (*Антон Семенович Макаренко*) və digərlərinin əsərlərini oxusaydılar, nəinki vətənpərvərliyin, ümumiyyətlə bütün mənəvi keyfiyyətlərin balacalıqdan aşılanması lüzumundan xəbərdar olardılar.

Müəlliflər tərəfindən daha bir qeyri-səmimiliyə yol verilmişdi. İndi – medianın qaragüruhcasına özbaşınalığı şəraitində yaşlı nəsildən olan jurnalistlər yaxşı xatırlayırlar ki, haqqında yazılan şəxslə hökmən görüşmək və yazı barədə ona məlumat vermək qaydası, rəsmi olmasa da, mövcud idi və hamı buna əməl edirdi. A. Teplyuk isə, noyabrın 30-da mənimlə telefon əlaqəsi saxladığına baxmayaraq, belə məqalənin yazıldığı və ertəsi gün qəzetdə çıxacağı barədə bir kəlmə də deməmişdi. Görünür, həmin telefon zəngi, yeri gələndə, mənimlə təmasda olduğunu söyləmək üçün bəhanə imiş.

Məqalə ilə tanış olandan sonra qəzetin növbəti nömrəsini hazırlamaqla məşğul idik və təbii ki, yuxarı orqanların reaksiyasını gözləyirdim. İlk zəng edən Azərbaycan KP MK katibi Rafiq Zeynalov oldu. Mənə görə narahatçılıq keçirən Rafiq müəllim səmimi və nəzakətli bir şəkildə belə məqalələri çap etməyin lazım olmadığını söylədi. Mənim cavabım indiki kimi yadımdadır: Rafiq müəllim, nə vaxtadək Moskvadan iki rus gəlib bizim işimizə qiymət verəcək?

Sonra Azərbaycan KP MK Partiya-Təşkilat İşi Şöbəsinin müdiri, Azərbaycan KP MK bürosunun üzvü Vaqif Hüseynov zəng elədi. Qarşılıqlı ədəbsiz söhbət oldu. Vaqif elə onu tanıdığım gündən bir qədər soldafon idi. İndi düşünürəm ki, bəlkə respublikadakı ağır ictimai-siyasi vəziyyət bəzi rəhbərlərin fikir-düşüncəsində çaşqınlıq yaratmışdı? Bu telefon zəngindən bir neçə gün əvvəl Vaqiflə onun Mərkəzi Komitəsindəki iş otağında ikilikdə söhbət edərkən özünü məmnun halda Fridrix Engelsə bənzətdi. Bəs Karl Marks harda idi? Yenə elə həmin günlərin birində Mərkəzi Komitədə növbəti iclasın başlanmasına bir qədər qalmış Nəcəf Nəcəfovla durub söhbət edirdik. Vaqif Hüseynov yaxınlaşdı və üzünü Nəcəfə tutub hirslə, mənasını indiyəcən anlaya bilmədiyim – "эта не молодёжная, а какая-та религиозно-мистическая газета" (bu, gənclər qəzeti deyil, hansısa bir dini-mistik qəzetdir") – dedi, Nəcəfə də danışmağa imkan verməyərək, yoluna davam etdi. İndi də anlaya bilmirəm "Молодёж Азербайджана" hara, "религиозно-мистическая" hara? Nəcəflə mən təəccüblə bir-birimizin üzünə baxıb, iclasa yollandıq... Əvvəlki illərdə Vaqif Hüseynov özü də bir müddət "Молодёж Азербайджана" qəzetinin redaktoru olmuşdu...

Vəzirovun da hərəkətlərində qəribəliklər olurdu. Geniş iclasların birində dedi: Elə gün olur ki, Moskvaya iki dəfə gedib qayıdıram. Sonra üzünü rəyasət heyətində əyləşənlərdən birinə çevirib, düzmü deyirəm – soruşdu. O da təsdiq elədi. Yaxud, təxminən bir ay ərzində Mərkəzi Komitənin geniş iclas zalında iri televizor qoydurub, hər iclasdan əvvəl Polad Bülbüloğlunun Qorbaçovla mükaliməsini nümayiş etdirməsi... Ə. Vəzirov sonralar Moskvada ikən bir müsahibəsində Bakıda MK-nın birinci katibi olduğu zaman özünün arada anlaşılmaz vəziyyətlərinə işarə eləmişdi...

Ertəsi – cümə günü keçdi, şənbə günü Sahib müəllim evə zəng edib, məni Mərkəzi Komitəyə büro iclasına çağırdı. Bürodan əvvəl ikilikdə söhbət etdik. Dedi ki, Rafiq müəllimlə (*Azərbaycan KP MK katibi* – **Ə.B.**) məsləhətləşmişik, bizim büroda sizə töhmət vermək istəyirik ki, bəlkə partiya MK-sının bürosunda sizin məsələnin müzakirəsinə ehtiyac qalmasın. Mən, təbii ki, razılaşdım və üstəlik, fəaliyyətimlə Sahib müəllimi, həmçinin komsomolun Mərkəzi Komitəsini namünasib vəziyyətə saldığıma görə narahatçılığımı bildirdim.

Qeyd edim ki, komsomolun Mərkəzi komitəsində çalışdığım beş il ərzində ÜİLKGİ MK-nın komsomol işçisi üçün nəzərdə tutulan mükafatlarının, demək olar ki, çoxunu almışdım. SSRİ Ali Soveti Rəyasət Heyətinin təsis etdiyi "Vladimir İliç Leninin anadan olmasının 100 illiyi münasibətilə" yubiley medalı ilə təltif olunmuşdum.

Büro toplaşdı. Adətən həmişə büro iclaslarında iştirak edən şöbə müdirləri, digər vəzifəlilər dəvət olunmamışdı. ÜİLKGİ MK-nın iki işçisi də iclasda idi. İclası Sahib müəllim açaraq, redaksiyanın müəyyən səhvlərə yol verdiyini adi tərzdə nəzərə çatdırdı. Lakin Azərbaycan LKGİ MK-nın ikinci katibi Tyaqli (*Василий Николаевич Тягли*) odlu çıxışa başladı.

Tyaqli ilə səmimi münasibətimiz yox idi, əksinə, hər iki tərəfdən soyuqluq hiss olunurdu. Bunun da mən tərəfdən səbəbi vardı. Mən komsomola işə gələndə ikinci katib, yerli – İvanovka (İsmayıllı rayonu) rusu, çox yüksək mənəvi keyfiyyətlərə malik Matvey Radayev (*Матвей Радаев*) idi. Ondan sonra respublika partiya Mərkəzi Komitəsində illərdən bəri mövcud olan metod – ikinci katiblərin Moskvadan göndərilməsi komsomolda da tətbiq edilməyə başlandı. Bu, komsomol funksionerləri tərəfindən laqeydliklə qəbul olunsa da, komsomolun kütləvi informasiya vasitələrində çalışan bizlər və

bizə yaxın ziyalılar tərəfindən ikrahla qarşılanırdı. Matvey Radayevdən sonra Moskvadan göndərilən ilk ikinci katib Gennadiy Orlov (*Геннадий Орлов*) oldu. Mən o zaman hələ komsomolda işlədiyimə görə arada isinişmə vardı. Sonra Ukraynadan Tyaqli göndərildi. Baxışlarımdan oxuyurdu ki, ondan soruşuram: sən burda neyləyirsən, Tyaqli?

Tyaqlidən sonra ÜİLKGİ MK-nın işçiləri də çox sərt çıxış etdilər. Müzakirənin istiqamətini başqa yönə çevirmək istəsələr də, Sahib müəllim buna imkan vermirdi. Hətta belə bir mülahizə də söylədi ki, bəlkə mətnlər rus dulinə tərcümə edilərkən qəsdən təhrifə yol verilib? Söylədim ki, mətnləri müqayisə etmədiyimizə görə bir söz deyə bilmərəm. Redaksiyada tərcüməçi ştatını tutan hələ Əmrah müəllimin vaxtında qəzet rus dilində çıxmağa başlayandan Vladimir Abramyan idi. Bir-iki gün əvvəl redaksiyanın işçiləri ilə (təhlükəsizlik mülahizələrinə görə) onu ailəsi ilə birlikdə dəmiryol vağzalından yola salmışdıq. "Azərbaycan gəncləri" qəzetinin baş redaktoru, büro üzvü Yusif Kərimov Azərbaycan dilində çıxış etdi.

Mən çıxışımda bəzi səhvlərə yol verdiyimizi etiraf elədim və büro iclası mənə töhmət elan etməklə sona yetdi.

## Sonuncu şiddətli töhmət

*Sonuncu ağır töhməti 1988-ci il dekabrın 6-da Azərbaycan KP MK bürosunda Əbdürrəhman Vəzirovun sədrliyi ilə keçən iclasda aldım. Lakin büro iclasına keçməzdən əvvəl, həmin vaxtadək Əbdürrəhman Vəzirovla bağlı xatirələrimi oxucularla bölüşmək istəyirəm.*

... Hələ universitet tələbəsi ikən bir azərbaycanlımızın Moskvada ÜİLKGİ MK katibi işlədiyini bilir və bundan qürur duyurduq. Universitetin komsomol komitəsi bizi məcburi qaydada "Azərbaycan gəncləri" və "Комсомольская правда" (*"Komsomolskaya pravda"*) qəzetlərinə abunə yazdırır və biz həm Azərbaycanın, həm də ölkənin həyatından xəbərdar olurduq. Əbdürrəhman Vəzirovun həmin vəzifədə işləməsi, sonralar bildim ki, müttəfiq respublikaların hər birinə təmsilçilik qaydası ilə verilən yer deyil, şəxsiyyətlə əlaqədardır. Vəzirovdan neçə illər sonra həmin vəzifədə Vaqif Hüseynov işlədi.

Vəzirovu ilk dəfə görməyim artıq Azərbaycan LKGİ MK-da işləyərkən, 1968-ci ilin fevral ayında keçirilən Azərbaycan komsomolunun XXVI qurultayında oldu. O, qurultayda iştirak etmək üçün Bakıya ezam olunmuşdu. Qurultayda geniş çıxış etdi və qurultaydan sonra da MK-nın aparatı və Bakının rəhbər komsomol işçiləri ilə görüş keçirdi, çıxış etdi, gələcək işimiz üçün tövsiyələrini bildirdi. Azərbaycan LKGİ MK-nın birinci katibi bu vəzifəyə yenidən seçilmiş Elmira Qafarova idi.

Vəzirovla şəxsi görüşüm neçə illər sonra, 1982-cü ilin oktyabr ayında Katmanduda oldu, Nepalda SSRİ-nin fövqəladə və səlahiyyətli səfiri idi. Həmin vaxt "Azərbaycan gəncləri" qəzetində redaktor müavini idim. Hindistan və Nepala səfərə çıxacağımı bilən Cəmil Əlibəyov məktub verdi ki, imkan olsa, Əbdürrəhmana çatdırarsan.

Hindistanda 15 günlük səfərimiz başa çatdı və Hindistan hava yollarına məxsus kiçik təyyarə ilə 5 gün ərzində də Nepal`la tanış olmaq üçün ölkənin paytaxtı Katmanduya uçduq. Hava limanına enəndə hələ illüminatordan Vəzirovun təyyarəni qarşıladığını gördüm. Hamı ilə əl verib görüşdü. Səfərin ötən günləri ərzində nəcib xanımlar kimi tanıdığımız iki qadınla çox səmimi görüşdü və onun bacıları olduğunu öyrəndik. Sonrakı günlər onu da öyrəndik ki, səfərin marşrutuna yalnız bir dəfə üçün Nepalın daxil edilməsi də Vəzirovun Moskvadakı dostlarından xahişi ilə olmuşdur.

Hava limanında Vəzirova yaxınlaşıb özümü təqdim etdim, Cəmil müəllimdən ona məktub gətirdiyimi söylədim, üzü güldü, xoşhal oldu, dedi ki, səfirlikdə sizi qəbul edəndə verərsən. Ertəsi, ya sonrakı gün qrupumuzu səfirliyə dəvət etdilər, məktubu çatdırdım, bizimlə səmimi söhbət etdi. Ümumiyyətlə, elə ilk baxışdan sadəliyi, təvazökarlığı, səmimiyyəti duyulurdu. Hiss etdik ki, həmişə qaynar həyat yaşamış bu insan Katmanduda darıxır. Onu da dedi ki, Azərbaycan xörəklərini çox xoşladığına görə Bakıdan səfirliyə məxsusi aşpaz qadın da çağırtdırmışdır.

Nepaldan sonra SSRİ-nin Pakistanda səfiri olmuş Vəzirovun 1988-ci il mayın 21-də Azərbaycan KP MK-nın birinci katibi təyin edilməsi həm özü, həm də xalqımız üçün faciəli oldu. Ancaq ilk vaxtlarda ümid yeri də vardı. Belə bir vaxtda Yeni Suraxanıdan zəng edib, məni kəndə çağırdılar. Kəndin hörmətli sakinləri dedilər ki, son illər kəndin problemləri həll olunmur, hakimiyyət dəyişib, yenidən məktubla

müraciət edək. Dedim ki, əvvəlcə deputatımızla məsləhətləşək. Ali Sovetin Rəyasət Heyətinə zəng edib öyrəndim ki, deputatımız səhhətinə görə uzun müddətdir fəaliyyət göstərmir. Dedim ki, belə olan halda onun geri çağırılmasını, dairə üzrə yeni seçkinin keçirilməsini təşkil etmək lazımdır. Bir neçə gün sonra "Kommunist" qəzetində dairədə yeni seçki keçiriləcəyi haqqında məlumat çap olundu.

Vəzirovun adına məktub hazırladıq və göndərdik. Məktuba kənd ağsaqqalları və ziyalılarının təkidi ilə belə bir cümlə də daxil edilmişdi ki, Əlirza Balayevi öz deputatları görmək istəyirlər. (O zaman Ali Sovetin deputatlarının sayı, səhv etmirəmsə, 350 olduğuna görə dairə ərazicə kiçik idi – Yeni Suraxanı, Hövsan və Köhnə Suraxanı adlandırdığımız ərazinin bir hissəsi).

Bir neçə gün sonra Azərbaycan LKGİ MK-nın birinci katibi Sahib Ələkbərovun yanında olanda, dedi ki, deputatlığa namizədlər Mərkəzi Komitədən irəli sürülür... Dedim ki, bəli, ancaq cəmiyyət dəyişməyə doğru gedir və özü ilə yeni qaydalar da gətirəcək. Günahım birinci olmağımdır? Həmişə təmkinli olan Sahib müəllim söhbəti davam etdirmədi...

Azərbaycan KP MK Partiya-Təşkilat İşi Şöbəsinin müdiri Vaqif Hüseynovun yanında olanda (Vəzirov onu Moskvadan çağırtdırıb, bu vəzifəyə təyin etmişdi) o  da təşəbbüsümə üstüörtülü narazılığını bildirdi. (Vaqiflə komsomolun Mərkəzi Komitəsində eyni vaxtda işləmişdik, otaqlarımız da yanaşı idi. O – İdman şöbəsinin müdiri, mən – Təbliğat və mədəni-kütləvi işlər şöbəsinin müdir müavini).

Həmin günlərdə partiya Mərkəzi Komitəsinin Təbliğat və Təşviqat Şöbəsinin təlimatçılarından biri zəng edib, məni MK-nın iclasına dəvət etdi. Bu, təəccüblü və gözlənilməz idi. Komsomol mətbuatından yalnız iki gənclər qəzetinin redaktorları dəvət olunardılar, özü də yalnız plenumlara və respublika üzrə keçirilən müşavirəyə, yaxud fəallar yığıncağına, iclaslara yox... Getdim, gənclər qəzetlərinin redaktorlarını orada görməyəndə təəccübüm daha da artdı. Sonra Vahid mənə dedi ki, Vəzirov tapşırıb: Balayevi bütün geniş iclaslara dəvət edin.

Növbəti iclasdan çıxıb, lifti gözləyirdim. Bir də gördüm Vahid cəld addımlarla  mənə yaxınlaşdı: Əlirza, tez gəl, Vəzirov səni çağırır. Və məni onun otağına ötürdü. Vəzirov dərhal sözə başladı (təbii ki, rus dilində): sənin barəndə kimdən soruşdumsa, ancaq yaxşı sözlər dedilər, yoxsa səninlə başqa cür danışardım. (öz dediyi: "*иначе я тебе шею свернул бы...*"). Məktubunuzu oxudum, Aydın Məmmədovla danış, ona tapşırıq vermişəm." Bərk tələsdiyini büruzə verirdi. Sağollaşıb getdi. (Sonradan Vahidin mənə dediyi kimi, Vəzirov ona "Balayevi çağır" deyəndə "Babayev" kimi başa düşüb və Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədr müavini Aqşin Babayevi onun yanına aparıb. Görünür, bu da onun vaxtını almışdı).

Vəzirov Azərbaycanda komsomol rəhbəri olarkən Aydın Məmmədov da komsomol işində çalışmışdı. Sonra Azərbaycan LKGİ MK-nın birinci katibi də seçilmişdi. Vəzirov Bakıda işə başlayanda Azərbaycan SSR əhaliyə məişət xidməti naziri vəzifəsində idi. (Sonra12 dekabr 1988-ci ildə Azərbaycan SSR Xalq Nəzarəti Komitəsinin sədri təyin olundu). Zəng edib, Aydın Məmmədovla görüşdüm. Vəzirov ona Yeni Suraxanıda əhalinin iştirakı ilə geniş iclas keçirib, məktubda qaldırılan məsələləri müzakirə etmək və tədbirlər planı hazırlamaq tapşırmışdı. Orconikidze (indiki Suraxanı) Rayon Partiya Komitəsinin təşkilatçılığı ilə iclas keçirildi. Əvvəlcə məktub oxundu. Ancaq tam yox – Əlirza Balayevin deputatlığa namizəd irəli sürülməsi hissəsi "ixtisar"a düşmüşdü. Kəndin söz sahiblərindən biri olan Bakıxan Hacıbala oğlu ayağa qalxıb, məktubun tam oxunmasını xahiş etsə də, əhəmiyyət verilmədi. Həmin iclasda planlaşdırılan tədbirlər də sonrakı hadisələr fonunda unuduldu.

Ancaq seçki təşəbbüsü davam edirdi. Yeni Suraxanıdakı fabrikdə bibimin nəvəsi Fərhadın başçılığı ilə namizədliyimin irəli sürülməsi üçün iclasın keçirilməsi artıq hazırlanmışdı. (Ali Sovetə deputatlığa namizəd yalnız əmək kollektivində irəli sürülə bilərdi). Belə bir vaxtda komsomolda mənimlə iş yoldaşı olmuş, Orconikidze Rayon Partiya Komitəsində ideoloji iş üzrə katib işləyən Telman Əliyev zəng etdi: Əlirza, bizi xilas elə, kimə lazımdır ev verək, torpaq sahəsi verək, ancaq fabrikdə iğtişaşı yatızdır. Mərkəzi Komitənin ikinci katibi səviyyəsində raykoma təcili tədbir görmək tapşırılıb. Dedim nə iğtişaş? Dedi ki, Hövsanda Vaqif Hüseynovun deputatlığa namizədliyi irəli sürüldüyünə görə fabrik işçiləri iğtişaşa başlayıblar. Dedim ki,  xəbərim yoxdur, yəqin məni axtarıb tapa bilməyiblər ki, məsləhətləşsinlər. Ev də, torpaq sahəsi də lazım deyil, Vaqif Hüseynovun namizədliyi irəli sürülübsə, zəng edib məsləhətimi verərəm. Fərhada zəng etdim, fabrikdə sakitlik yarandı. Seçkidə də Vaqif Hüseynov Ali Sovetə deputat seçildi.

Təbii ki, bu hadisələrdən Vəzirov da məlumatlı idi. Və düşünürdüm ki, bu dəfə  məni, yəqin ki, "*шею свернуть*" eləyəcək. Lakin...

1988-ci il "Azərbaycan pioneri" qəzetinin ilk nömrəsinin çapdan çıxmasının (1 avqust 1938-ci il) 50 illiyi idi. Komsomolun Mərkəzi Komitəsindən təbliğat üzrə katib Eldar Əzizov (hazırda Bakı Şəhər İcra Hakimiyyətinin başçısı) zəng edib dedi ki, Mərkəzi Komitədən sorğumuza cavab olaraq, redaksiyaya "Əməkdar jurnalist" və "Əməkdar mədəniyyət işçisi" fəxri adlarının hər birinə bir yer ayrılıb, müzakirə edib, namizədləri bizə göndərin.

Redaksiyanın uzun illər məsul katibi işləyən Reyhan Əzimovanı "Əməkdar jurnalist", qəzetin neçə onillik buraxıcısı olan (belə məsul vəzifə var idi, rus dilində "выпускающий") Böyükağa Abdullayevi "Əməkdar mədəniyyət işçisi" fəxri adına namizəd göstərib, komsomolun Mərkəzi Komitəsinə məktub göndərdik. Ertəsi gün Eldar müəllim zəng etdi, dedi ki, Mərkəzi Komitəyə məktub hazırlamışıq, sizi də Ali Sovetin Rəyasət Heyətinin Fəxri fərmanına təqdim edirik. Dedim ki, məsləhət sizindir. Bir müddət sonra "Kommunist" qəzetinin məsul katibi Şakir Yaqubov zəng edib, məni səmimi sözlərlə təbrik etməyə başlayanda, soruşdum ki, nə məsələdir? Cavab verdi ki, sizə "Əməkdar jurnalist" fəxri adı verilib. Dedim axı mən Fəxri fərman almağa təqdim olunmuşam. Dedi ki, Azərinformun xəbəri əlimdədir, sabah qəzetlərdə çıxacaq...

Məsələ bir neçə gün sonra Mərkəzi Komitədə olarkən, Vahidin mənə söylədiklərindən aydınlaşdı.



*Şəkil Bakıda keçirilən ümumittifaq tədbirində çəkilib:Ön cərgədə soldan dördüncü Rəfail Nağıyev; arxa cərgədə: Nəcəf Nəcəfov, Şamil Şahməmmədov, Vahid Əziz, Əlirza Balayev*

... Mərkəzi Komitənin büro iclasında "Azərbaycan pioneri" qəzetinin 50 illik yubileyi münasibətilə əməkdaşların təltif olunması məsələsinə çatanda, Vəzirov qərar layihəsini oxuyur və sual verir: "Redaktora niyə bir parça kağız veririk?" Sonra zala müraciətlə: "Balayev haqqında kimsə danışmaq istəyirmi?" – deyib. "Kommunist" qəzetinin redaktor müavini Rəfail Nağıyev söz alıb, müsbət fikirlər söyləyir və qərar layihəsində düzəliş edilir. Bu, bəlkə də, elə ədalətli qərar idi. Həmin vaxtadək mən beş il ərzində komsomolun kütləvi informasiya vasitələrinə kuratorluq etmişdim, sonra on beş il idi ki, komsomolun mətbuat orqanlarında rəhbər işdə idim. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə isə mətbuat sahəsindəki xidmətlərimə görə hələ 26 noyabr 1979-cu il tarixli fərmanla təltif olunmuşdum... Sonrakı günlərdə Rəfail müəllimlə görüşəndə, gözləyirdim ki, bu barədə mənə deyəcək, özüm qəsdən söhbəti açmırdım. Sonrakı görüşlərdə də elə belə oldu və unuduldu. Nəciblik öyrədilmir, öyrənilmir, qanda olur.

Beləliklə, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Azərbaycan pioneri" qəzeti əməkdaşlarının təltif olunması haqqında" 17 oktyabr 1988-ci il tarixli fərmanı qəzetlərdə çap olundu və bir müddət sonra respublikadakı ictimai-siyasi vəziyyətə görə təntənəsiz, adi bir şəraitdə Azərbaycan SSR Ali Soveti



Rəyasət Heyətinin sədri Süleyman Tatlıyev vəsiqələri və diplomu bizə təqdim etdi.

**İndi isə Azərbaycan KP MK bürosunun 6 dekabr 1988-ci il tarixli iclası haqqında.** Dekabrın 4-dən 5-nə keçən gecə Meydan hərəkatı Rusiya ordusu tərəfindən dağıdılmış, yüzlərlə insan saxlanılmış, şəhərdə hələ bunun ardınca nə baş verəcəyi bilinməyən bir ab-hava hökm sürməkdə idi. Dekabrın 6-da axşam saat 5 radələrində hansısa tədbirdən evə gəldim, dedilər Mərkəzi Komitədən zəng ediblər ki, təcili saat 6-da büroda olasan. Mən MK-ya çatanda artıq 6-ya bir neçə dəqiqə qalırdı. Binanın xarici kimi, içərisi də əli avtomatlı rus əsgərləri tərəfindən qorunurdu. İclas zalına yaxınlaşanda, Təbliğat və Təşviqat Şöbəsinin təlimatçısı Şamil Məcidov tələsik mənə yaxınlaşıb, barmağını əlindəki sənədin bir cümləsinin üstünə qoydu, yəni oxu: "За публикацию материалов, наносящих вред политическому воспитанию подрастающего поколения редактору газеты "Азербайджан рионери"-"Пионер Азербайджана" А. Балаеву объявить строгий выговор с занесением в учетную карточку члена КПСС."

(*Tərcüməsi: "Böyümәkdə olan nəslin siyasi tərbiyəsinə ziyan vuran materialların dərcinə görə "Azərbaycan pioneri"-"Пионер Азербайджана" qəzetinin redaktoru Ə. Balayevə Sov.İKP üzvünün şəxsi uçot vərəqəsinə yazılmaqla şiddətli töhmət elan olunsun"*).

Məlum olduğu kimi, büroda məsələsi müzakirə olunan şəxslərin qərar layihəsi ilə tanış edilməsi qaydası mövcud idi. Şamil Məcidov vaxtın darlığından mənə yalnız veriləcək cəza ilə əlaqədar cümləni oxutmaqla bu missiyasını yerinə yetirmişdi.

Zala daxil olan kimi Nəcəf Nəcəfovun tək oturduğunu görüb, yanında əyləşdim. Zala nəzər yetirdim. Büro üzvləri yerlərini tutmuşdular. Azərbaycan LKGİ MK-nın birinci katibi Sahib Ələkbərov da iclasda idi. Burada da büro iclası qapalı tərzdə keçirilirdi. Adətən, siyahı üzrə dəvət olunan çoxlu şəxsdən yalnız partiya qəzetlərinin – "Kommunist" və "Бакинский рабочий" (*"Bakinskiy raboçiy"*) qəzetlərinin redaktorları Cəmil Əlibəyov və Gennadiy Qluşkov (*Геннадий Григорьевич Глушков*) iştirak edirdilər. Teleradio komitəsinin rəhbərləri Elşad Quliyev, Fuad Tarıverdiyev və Aqşin Babayev

də zalda idilər. Qapı açıldı, Vəzirov bir nəfərlə içəri girdi. Sonra bildim ki, onunla gələn SSRİ Nazirlər Soveti sədrinin müavini Boris Yevdokimoviç Şerbina`dır (*Борис Евдокимович Щербина*).

Vəzirov soruşdu ki, qərar layihəsi büro üzvlərinə paylanıbmı? Ümumi şöbədən "yox" cavabını eşidəndə (görünür, vaxt imkan verməmişdi), "это прикол в вашей работе" ("bu sizin işinizdə qüsurdur") – dedi və yenə rusca əlavə etdi: "onda oxuyun, dinləsinlər" deyib, arxa otağa keçdi.

Qərar layihəsi oxunarkən məlum oldu ku, "Молодёжь Азербайджана" və "Azərbaycan pioneri"-"Пионер Азербайджана" qəzetləri, Teleradio Komitəsi Ermənistan-Azərbaycan münaqişəsinin işıqlandırılmasında siyasi cəhətdən kobud səhvlərə yol vermiş və əslində, ictimai rəydə çaxnaşma yaratmışlar.

Qərar oxunduqdan sonra Vəzirov büro zalına qayıtdı, müzakirə başlandı. İclasın tələsikliyi aydın görünürdü. Rafiq Zeynalov, Vaqif Hüseynov qısa çıxış edərək, qərar layihəsinə uyğun mülahizələrini bildirdilər. Qərar qəbul olundu. Nəcəf Nəcəfova Sov.İKP üzvünün uçot vərəqəsinə yazılmaqla şiddətli töhmət verildi və tutduğu vəzifədən azad edildi. Mənə Sov.İKP üzvünün uçot vərəqəsinə yazılmaqla şiddətli töhmət, Elşad Quliyev, Fuad Tarıverdiyev və Aqşin Babayevə isə töhmət elan olundu.

"Kommunist" qəzetinin redaktoru Cəmil Əlibəyov söz alıb dedi ki, Nəcəf Nəcəfov kimi səriştəli, istedadlı jurnalisti itirmək olmaz. Vəzirov cavab verdi ki, Nəcəf partiya qəzetində şöbə müdiri səviyyəsində işlə təmin olunacaq, əlavə etdi ki, "Вышка" (*"Vışka"*) qəzetində.

Nəcəf Nəcəfova bundan daha qəribə bir təklif ediləcəyini təsəvvürə gətirmək mümkün deyildi... Bu da Vəzirovun dövlət xadimi kimi özünə və respublikaya yalnız təhlükə yarada biləcək sadəlövhlüyünə sübut idi. Belə sadəlövhlük sonrakı fəaliyyətində də özünü ardıcıl göstərdi... Nəcəf Nəcəfov isə "Azadlıq" qəzetinin ilk baş redaktoru oldu.

***

Mərkəzi Komitənin 6 dekabr tarixli qərarı mətbuatda və televiziya ilə elan olunmadı. Yalnız dekabrın 23-də Azərbaycan qəzetləri – "Kommunist", "Бакинский рабочий", "Kommunist" (erməni dilində) dərc etdikləri "Xalqın həqiqi mənafeyinə xidmət etməli" sərlövhəli bir səhifəlik rəsmi icmalda qərarın şərhinə də yer verildi. Qeyd edim ki, həmin məqalələrdə Ermənistan "qardaş Ermənistan" adlanırdı. Dekabrın 26-da isə Sov.İKP MK-nın orqanı "Правда" ("Pravda") qəzeti təxminən eyni məzmunda "Служить истинным интересам народа" (*"Xalqın həqiqi mənafeyinə xidmət etməli"*) adlı bir səhifəlik yazı çap etdi.

**"Правда" qəzeti yazırdı:** "В сложившейся острой ситуации крайне высока ответсвенность средств массовой информации и пропаганды, знаменем которой должна быть наивысшая партийная принципиальность. Следует прямо сказать, что не на высоте стоящих перед ними задач оказались телевидение и радиовещание, некоторые газеты... На страницах газет, в радио и телепередачах появлялись материалы, дезориентировавшие население, демонстрировавшие политическую незрелость...

Не сыграли в сложной ситуации своей роли воспитателя подрастающего поколения и печатные органы ЦК комсомола республики...

ЦК Компартии Азербайджана рассмотрел вопрос о серьезных недостаток в работе средств массовой информации республики. Отмечено, что имели место отступления от взвешенной и трезвой позиции, ряд публикаций способствовал нагнетанию страстей, обострению обстановки. Страницы газеты "Молодёжь Азербайджана" предостовлялись случайным авторам, выступавшим с безответственными, опасными заявлениями. В газете "Азербайджан пионери"-"Пионер Азербайджана" была допущена публикация репортажа с призывом к школьникам участвовать в несанкционированных митингах.

(Tərcüməsi: *"Yaranmış kəskin şəraitdə kütləvi informasiya və təbliğat vasitələrinin məsuliyyəti olduqca böyükdür. Onlar ən böyük partiya prinsipiallığı ilə hərəkət etməlidirlər. Açığını demək lazımdır ki, televiziya və radio, habelə bəzi qəzetlər qarşılarında duran vəzifələrin öhdəsindən gələ bilməmişlər... Qəzet səhifələrində, radio və televiziya verilişlərində əhalini düzgün məlumatlandırmayan, siyasi cəhətdən yetkin olmayan materiallar yer almışdır...*

*Mürəkkəb şəraitdə respublika komsomolu Mərkəzi Komitəsinin mətbuat orqanları da özünün böyüməkdə olan nəslin tərbiyəçisi rolunu yerinə yetirə bilməmişdir...*

*Azərbaycan KP MK respublika kütləvi informasiya vasitələrinin işində ciddi nöqsanlar haqqında məsələ müzakirə etmişdir... Qeyd olunmuşdur ki, kütləvi informasiya vasitələrində ölçülüb biçilməmiş və ağıllı mövqedən bəzən uzaqlaşmış bir sıra materiallar ehtirasların qızışmasına, vəziyyətin kəskinləşməsinə səbəb olmuşdur. "Молодёжь Азербайджана" qəzetinin səhifələrində məsuliyyətsiz, təhlükəli bəyanatlarla çıxış edən təsadüfi müəlliflərə yer verilmişdir. "Azərbaycan pioneri"-"Пионер Азербайджана" qəzetində məktəbliləri icazəsiz mitinqlərdə iştirak etməyə çağıran reportaj dərc olunmuşdur.*

*Siyasi cəhətdən səhv materiallar dərc edilməsi, hadisələrin qərəzli işıqlandırılması üstündə "Молодёжь Азербайджана" qəzetinin redaktoru N. Nəcəfova Sov.İKP üzvünün şəxsi uçot vərəqəsinə yazılmaqla şiddətli töhmət elan edilmişdir. O, vəzifəsindən azad olunmuşdur.*

*"Azərbaycan pioneri"-"Пионер Азербайджана" qəzetinin redaktoru Ə. Balayev, Azərbaycan SSR Dövlət Televiziya və Radio Komitəsinin sədri E.Quliyev, onun müavinləri F.Tarıverdiyev və A. Babayev ciddi partiya məsuliyyətinə cəlb olunmuşlar").*

"Комсомольская правда"nın həftəlik nəşri olan "Собеседник" (*"Sobesednik"*) "Biz birlikdə yaşamalıyıq!" adlı yeni rubrika (*Премьера рубрики: нам вместе жить!*) açaraq, "Тревожные дни Апшерона" (*"Abşeronun həyəcanlı günləri"*) adlı iki səhifəlik məqalədə yazırdı: "В других публикациях Нагорный Карабах выглядел своеобразным козлом отпущения, на которого можно легко валить любые проблемы. "Пионер Азербайджана" 7 декабря сообшил, что в плане одной из школьных пионерских дружин Баку нет ни одного мероприятия по интернациональному воспитанию. "Старшая пионервожатая Судаба Акперова объяснила это с событиями в Нагорном Карабахе и вокруг него", – невозмутимо пишет корреспондент Г. Рагимов... Строгий выговор с занесением в учетную карточку объявлен редактору А. Балаеву за публикацию материалов, наносящих вред политическому воспитанию подрастающего поколения. Жаль, что не появилось такая оценка хотя бы неделей раньше..." (*Константин Михайлов, спец.корр., № 3, январь 1989 г.*).

(Tərcüməsi: *"Digər çap olunmuş yazılarda Dağlıq Qarabağ üzərinə hər hansı bir problemi yıxmaq mümkün olan özünəməxsus bəhanəyə çevrilib. Dekabrın 7-də "Пионер Азербайджана" xəbər verir ki, Bakı məktəblərinin birində pioner drujinasının planında beynəlmiləl tərbiyəyə aid bir tədbir belə yoxdur. Müxbir H. Rəhimov soyuqqanlılıqla yazır: "Pioner baş dəstə rəhbəri Südabə Əkbərova bunu Dağlıq Qarabağ və ətrafındakı hadisələrlə izah etdi." Böyüməkdə olan nəslin siyasi tərbiyəsinə ziyan vuran materialların dərc edilməsinə görə redaktor Ə. Balayevə uçot vərəqəsinə yazılmaqla şiddətli töhmət elan olunmuşdir. Təəssüf ki, bu cəza, heç olmasa, bir həftə əvvəl verilməyib...". (Konstantin Mixaylov, xüsusi müxbir, № 3, yanvar 1989-cu il*).

Xatırlayıram ki, SSRİ Həmkarlar İttifaqları Şurasının qəzeti "Труд" ("*Trud*"), «Аргументы и факты"("*Arqumentı i faktı*") qəzeti də "Пионер Азербайджана"dan yazmışdılar. Lakin həmin qəzetlər arxivimdə saxlanmayıb.

Beləliklə, Azərbaycan və SSRİ ictimaiyyəti 6 dekabr tarixli qərardan yalnız 17-20 gün sonra xəbər tutdu. Bakıda AMEA institutlarından, ali məktəb və digər təsisatlardan yenə zənglər gəldi: qərara müxtəlif formalarda etiraz bildirmək, müdafiə komitələri yaratmaq təklifləri və s.

*Salyandan göndərilmiş otkrıtkada isə yazılırdı:*

"Azərbaycanın böyük oğlu Əlirza Balayev! Bu "balaca" qəzetdə böyük işiniz üçün sağ olun. "Millət yoludur, haqq yoludur tutduğunuz yol..." Sizi, Nəcəf Nəcəfovu yetirən xalqa qurban olum.

"Redaktor ürəyi qurd ürəyidir,
Ürəyi yoxdursa, çaqqaldır demək."

X. Rza

Qurd ürəyiniz var olsun! Sizin kimi oğullardan çox olsun, lap çox...
Evinizin Salyan filialı.
**M. Xəlilbəyli**" (*tarix yazılmayıb*).

Məktub bir xatirə sənədi olduğuna görə ona toxunmadım. Əminəm ki, oxucular həddən çox pafosla yazıldığını nəzərə alarlar.

O zaman məktubun müəllifi ilə maraqlanmamışdım. Bu yazı üzərində işləyərkən Xəlil Rzanın qar-

daşı Məhəmməd olduğunu öyrəndim. Həmin vaxt Salyanda rayon qəzetinin redaktoru imiş.

O zaman düşünürdüm ki, "Azərbaycan pioneri"-"Пионер Азербайджана" qəzetinin belə yüksək səviyyədə müzakirəsinə ehtiyac yox idi. Respublika komsomolunun Mərkəzi Komitəsində görülmüş tədbirlə kifayətlənmək olardı.

Sonralar MK-nın katibi Rafiq Zeynalovla söhbətdə öyrəndim ki, elə bu cür də nəzərdə tutulubmuş. Lakin MK-nın ikinci katibi Viktor Polyaniçko və Sov. İKP MK-nın Bakıda olan məsul işçilərinin təkidi ilə "Azərbaycan pioneri" - "Пионер Азербайджана" da qərara salınmışdır. Səbəb də bunu göstərmişlər ki, mərkəzi mətbuatda "Пионер Азербайджана" haqqında artıq yazılıb. Büronun qərarı haqqında da yazılacaq və büronun qərarına "Пионер Азербайджана"nın salınmaması anlaşılmazlıq yaradar. Həqiqətən də, ağlabatan səbəb olub.

***

Azərbaycan Kommunist Partiyası1991-ci il sentyabrın 14-də sonuncu – XXXIII fövqəladə qurultayında özünü buraxandan sonra bütün sənədlər "Partarxiv"ə (2009-cu ildən Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi sənədlər Arxivi) aparıldı. Elə həmin vaxt mən qərar üçün müraciət etdim. Tapılmadı. Moskva mətbuatında və yerli qəzetlərdə qərardan bəhs edildiyi mətnləri göstərdim. İkinci dəfə axtarıldı. Yenə tapılmadı. MK-nın Təbliğat və Təşviqat Şöbəsinin işçiləri ilə, xüsusən qərar əlində məni qarşılayan Şamil Məcidov ilə əlaqə saxladım ki, bəlkə kimsə nüsxəsini saxlamış ola. Bu axtarış da boşa çıxdı. Yəni, həmin qərar yoxdur!

1960-cı ildə ÜİLKGİ üzvünün şəxsi uçot vərəqəmə yazılmış şiddətli töhmətlə başlanan cəzalar seriyası 1988-ci ildə Sov.İKP üzvünün şəxsi uçot vərəqəmə yazılan şiddətli töhmətlə başa çatdı. Xalq şairi Cabir Novruz demişkən: "Ey həyat, sən nə qəribəsən?!"

# Hərbi komendantla üz-üzə

...1990-cı il dekabrın son günlərinin birində Bakı hərbi komendantının yanına çağırıldım. Çağırılacağımı gözləyirdim. Ancaq hara? Bilmirdim.

"Azərbaycan pioneri"-"Пионер Азербайджана" qəzetinin 1990-cı il 21, 26 və 28 dekabr tarixli nömrələrində yazıçı Qılman İsmayılovun "Qanlı yanvar" (*"Кровавый январь"*) povestini çap etmişdik. Bir qayda olaraq, bədii əsərlərin rus dilinə tərcüməsi çap olunmurdu. Lakin bu povesti mövzusunun zəruriliyinə görə çətinliklə də olsa, təcili tərcümə etdirə bildik. Tərcüməçi ad-soyadının göstərilməyəcəyi şərti ilə bu işi görmüşdü. Həmin dövrdən 30 ildən çox vaxt keçib. Tərcüməçinin kimliyini xatırlamıram...

**Povestdə yazıçı təxəyyülü və hiddəti ilə həmin gecə baş verənlər daha şiddətli tərzdə qələmə alınmışdı:**

"Советская солдатня, подобно фашистским подонкам, с каким-то жутким удовольствием истребляла беззащитных людей. Машины, стоящие на обочине дороги, под гусеницами танков превращались в железные "лепешки". Намеренно рушились телеграфные столбы, горели машины. Вооруженные автоматоми солдаты звериными криками приказывали людям сбиться в кучу и гнали их впереди себя, затем хладнокровно стреляли им в спину. Сраженные пулями убийц люди падали на изрытый асфальт, обильно поливая его кровью, те же, кто оставался в живых, стремился спрятаться за ближайшими деревьями. Прожекторы высвечивали раненых и их также хладнокровно добивали автоматными очередями." (*"Пионер Азербайджана", 28 декабря 1990 г.*).

(Tərcüməsi: *"Əsgər adına ləkə olan sovet soldatları faşist tör-töküntüləri kimi hansısa bir heyvani hisslə köməksiz adamları qırırdılar. Yolun kənarında duran maşınlar tankların tırtılları altında yastı dəmir parçalarına çevrilirdilər. Teleqraf dirəkləri qəsdən dağıdılır, maşınlar yanırdı. Əli avtomatlı soldatlar vəhşi qışqırıqlarla adamlara bir yerə cəm olmağı əmr edir, onları qovur, sonra arxadan güllələyirdilər. Qatillərin gülləsi ilə qətlə yetirilən adamlar dəlmə-deşik edilmiş asfaltı öz qanları ilə boyayırdılar. Sağ qalanlar isə yaxınlıqdakı ağacların arxasında gizlənməyə çalışırdılar. Projektorlar yaralıların üzərinə işıq salır, onları da soyuqqanlılıqla avtomatdan buraxılan güllə qatarı ilə yerə sərirdilər").*

*Əsərin baş qəhrəmanı, Böyük Vətən müharibəsinin iştirakçısı Zeynal baba qətlə yetirilməmişdən əvvəl nəvəsi Ənvərə deyir: "Черт возьми, они оказались хуже фашистов ("Bunlar faşistdən pis imiş ki!").*

Povest bütünlüklə bu ruhda yazılmışdı. Sovet mətbuatında, yəqin ki, ilk və sonuncu dəfə Sovet Ordusunun əsgəri "faşist" adlandırılırdı.

Bakıda fövqəladə vəziyyət və komendant saatı Meydan hərəkatının gedişində – noyabrın 24-də elan olunmuşdu. Səhv etmirəmsə, Bakı şəhəri fövqəladə rayonunun ilk hərbi komendantı Mixail Tyaqunov (Михаил Тягунов) idi. Sonra Dubinyak komendant olmuşdu. 1990-cı ilin may ayında Valeri Bünyadov (məşhur ictimai xadim, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun oğlu) komendant təyin olunmuş, 1991-ci il sentyabrın 9-dək bu vəzifəni icra etmişdi.

Hərbi komendatura Azərbaycan Respublikası Daxili İşlər Nazırliyində yerləşirdi. Polislərdən birinin müşayiəti ilə komendantın kabinetinə gətirildim. Otaqda iki nəfər rus hərbiçisi də vardı. Onlar təxminən yarım saatdan çox çəkən söhbətdə bir kəlmə də danışmadılar, yalnız dinlədilər. O zaman, indi də hərbi rütbələri tanımıram. Valeri Bünyadovun da məni hansı rütbədə qəbul etdiyini bilmirəm.

Komendant söhbətə sərt başladı və iradının məğzi bu idi ki, siyasi cəhətdən qüsurlu olduğuna görə qəzet həmin povesti dərc etməməliydi. Üstəlik, əsərdə Sovet Ordusu əsgərlərinin faşistlərdən də qəddar olması fikri təbliğ edilir və s.

Mən izah etməyə çalışdım ki, həmin gecə sovet əsgərlərinin törətdikləri vəhşiliklər həqiqətən faşistlərin cinayətlərindən geri qalmır. Mən də həmin gecə necə olubsa sağ qaldığıma görə indi onunla söhbət edə bilirəm. Digər tərəfdən, bədii əsərdə mübaliğəyə də yol verilə bilər.

Komendant sərt danışığını davam etdirəndə, dedim ki, sizin qəzeti bağlamaq və məni bir ay müddətinə həbs etmək səlahiyyətiniz var...

Bundan sonra Valeri Bünyadov bir qədər yumşaldı, söhbəti ümumrespublika problemlərinin üzərinə gətirdi və müxalifətə olan münasibətlərini izhar eləməyə başladı. Dedi ki, özlərini demokratik adlandıran qüvvələr hakimiyyətin normal fəaliyyət göstərməsinə imkan vermirlər. Respublikanın iqtisadiyyatı elə böhran vəziyyətinə düşüb ki, valyuta hesabında cəmi 6 min ABŞ dolları məbləğində vəsait vardır (o bunu məsxərə ilə söyləyirdi). Sonra komendant Kirovun heykəlindən söz açdı və dedi ki, heykəlin götürülməsinə bəhanə olaraq ağırlıq altında binanın çökəcəyini söyləyirlər. Halbuki biz ("biz" deyəndə kimləri nəzərdə tutduğunu anlamadım) ekspertlər çağırtdırıb müəyyənləşdirmişik ki, heykəl hələ yüz il də öz yerində qala bilər və s.

Söhbətin sonunda komendant bir daha belə əsərlər çap etməməyi tövsiyə etdi...

## Hərbi senzor hara baxırdı?

Burada daha bir bənzər sual doğur: bəs hərbi senzor hara baxırdı?

Mətbuatda hərbi senzuraya general-mayor Boris Leonidoviç Aleksandrov (Борис Леонидович Александров) başçılıq edirdi. Cənub Qoşunları Qrupu Siyasi İdarəsinin rəisi olan bu hərbiçi həm də Belorusiya Ali Sovetinin deputatı idi. Hərbi senzorlar tərəfindən qəzetlər ciddi oxunurdu.

Belə bir sərt şəraitdə necə olurdu ki, "Пионер Азербайджана" qəzeti sərbəst yazır və çap olunurdu? Və bu xətt ardıcıl davam etdirilmişdi. Nəhayət, Qılman İsmayılovun povesti...

Belə düşünmək olar ki, senzorlar məktəbli qəzeti olduğuna görə siyasi məqamların ortaya çıxacağını gözləmir və qəzetə baxmadan çapına icazə verirdilər. İşlərinin çoxluğu da nəzərə alına bilər. Bəzən qəzetləri oxutdurmaq üçün redaksiyalar növbəyə dururdu.

Ancaq bu münasibət 1988-ci il dekabrın 1-də A. Romanov və A. Teplyukun

"Комсомольская правда"da çap olunmuş "Меньше эмоций, больше мудрости!" adlı məqaləsindən sonra dəyişməli idi axı? Povestin "Кровавый январь" adı diqqəti cəlb etməli idi axı? Bu suallara cavab tapmaq çətindir...

Əsas odur ki, şərait yarandı və "Azərbaycan pioneri" - "Пионер Азербайджана" qəzeti öz işini gördü...

(*Son*)

# PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI “NARKOMANİYAYA SON” ADLI TELEVİZİYA PROQRAMINDA

# PSYCHOLOGY DEPARTMENT STAFF MEMBER APPEARS ON TELEVISION PROGRAM "END ADDICTION"



*Mirsadiq Muxtarov*

Martın 10-da Xəzər Universiteti Psixologya departamentinin əməkdaşı Mirsadiq Muxtarov *AZTV* strukturunda olan *İdman TV*-də “Narkomaniyaya son” adlı televiziya proqramında çıxış etmişdir. Proqramın məqsədi maddə asılılığının zərərlərinin vurğulanması, psixoprofilaktik olaraq əhalinin maarifləndirilməsi idi. Çıxışda maddə asılılığının qlobal problem olduğu qeyd edilmişdir.

Çıxış zamanı Mirsadiq Muxtarov davranış və maddə asılılığı anlayışlarına toxunaraq, bu problemin şəxsin bioloji, psixoloji və sosial faktorlarına təsirini izah etmişdir. Bununla yanaşı, o, asılılığın yaranma səbəbləri, profilaktik tədbirləri və bu mövzuda müasir yanaşmalar haqqında izləyicilərə geniş məlumat vermişdir. Maddə istifadəsi pozuntusunun klinik meyarları nəzərdən keçirilmişdir. Asılılıq anlayışının yalnız maddə istifadəsindən ibarət olmadığını qeyd edən Mirsadiq Muxtarov asılı şəxsin asılılıqla mübarizə mərhələsində ailə və çevrə dəstəyinin əhəmiyyətini vurğulamışdır.

Çıxışı aşağıdaki linkə keçid edərək, izləmək olar:

You can view the presentation by following the link below:

*https://youtu.be/EZwTe-mridA?si=HIStYtcPXuyUQx2n*

On March 10, Mirsadiq Mukhtarov, a researcher from Khazar University's Psychology Department, made an appearance on the television program "End Addiction" broadcast on *Sport TV*, a channel within the *AZTV* network. The program's objective was to emphasize the detrimental effects of substance dependency and to educate the population as a psycho-preventative measure. During the discussion, it was highlighted that substance addiction constitutes a global predicament.

In his comprehensive presentation, Mirsadiq Mukhtarov addressed the concepts of behavioral and substance addiction, elucidating their impact on an individual's biological, psychological, and social determinants. Additionally, he provided viewers with extensive information regarding the etiological factors of addiction, preventative interventions, and contemporary approaches to this multifaceted issue. The clinical criteria for substance use disorders were meticulously examined during the broadcast. Emphasizing that the concept of addiction extends beyond mere substance consumption, Mukhtarov underscored the significance of family and community support systems during an addicted individual's recovery journey.



*Maria Toro Troconis*

## “Sİ-NİN DAVAMLILIQ VƏ YAŞIL BACARIQLARIN İNKİŞAFINA TƏSİRİ” MÖVZUSUNDA SEMİNAR

## “HARNESSING AI TO ADVANCE SUSTAINABILITY AND GREEN SKILLS” SEMINAR HELD

Martın 10-da Xəzər Universitetinin təşkilatçılığı ilə “Dünya” məktəbində “Sİ-nin davamlılıq və yaşıl bacarıqların inkişafına təsiri” mövzusunda seminar keçirildi. Tədbirdə Xəzər Universitetinin və “Dünya” məktəbinin əməkdaşları iştirak etdilər.

Tədbirin açılışında Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayeva çıxış edərək, spikeri təqdim etdi və seminarın proqramı haqqında ümumi məlumat verdi.

Seminarın əsas məruzəçisi, Cambridge Universitetinin mütəxəssisi Dr. Maria Toro Troconis süni intellektin (Sİ) davamlılığın təmin edilməsində və yaşıl bacarıqların inkişafında oynadığı roldan bəhs etdi. O, Sİ texnologiyalarının ekoloji problemlərin həllində, karbon izinin azaldılmasında və təmiz enerjidən istifadənin genişləndirilməsində necə tətbiq oluna biləcəyini aydınlaşdırdı.

Seminar interaktiv müzakirələrlə yekunlaşdı. İştirakçılar süni intellektdən istifadə ilə müxtəlif fəaliyyətlərdə iştirak etdilər.

On March 10, a seminar on “Harnessing AI to Advance Sustainability and Green Skills” was held at Dunya School, organized by Khazar University.

The event began with an opening speech by Dr. Razia Isaeva, Dean of the School of Economics and Management at Khazar University. She introduced the speaker and provided an overview of the event’s agenda.

The keynote speaker, specialist of Cambridge University Dr. Maria Toro Troconis, delivered a presentation on how artificial intelligence can be leveraged to promote sustainability and enhance green skills. She discussed the application of AI technologies in solving environmental challenges, reducing carbon footprints, and supporting the use of clean energy.

The seminar concluded with interactive discussions, where participants had the chance to engage in activities using an AI app.

The event was attended by staff from both Khazar University and Dunya School.

# DƏRS ZAMANI ÇƏRŞƏNBƏ ADƏTLƏRİ

# CHARSHANBA TRADITIONS DURING CLASS TIME





*Aynur Qəzənfərqızı*

Martın 11-də Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dos. Aynur Qəzənfərqızı dərsdə Novruz adətlərini tətbiq etdi.

Müəllim əvvəlcə tələbələrə Novruz bayramının zəngin adət ənənələri barədə ümumi məlumat verdi. Sonra bu adətləri dərs mövzusuna uyğun şəkildə tətbiq etmək məqsədilə tələbələrinə vəsfi-hal mərasimini tanıtdı.



Vəsfi-hal Novruzun ənənəvi adətlərindən biridir. Bu mərasimdə hər bir iştirakçı özünə aid bir zinət əşyasını su dolu bir kasaya qoyur və kasanın üstü süfrə ilə örtülür.

Ardınca bayatı oxunur və kasadan bir zinət əşyası seçilir. Seçilən əşya kimə məxsussa, bayatının mənası ilə əlaqələndirilərək, o şəxsə xas təfsir edilir.

Dos. Aynur Qəzənfərqızının bu tətbiqi tələbələrə həm Novruzun əhəmiyyətini daha yaxşı anlamalarına kömək etdi, həm də milli mədəniyyətə marağı artırdı.

On March 11, Associate Professor Aynur Gazanfargizi, a lecturer at the Department of Languages and Literature at Khazar University, implemented Nowruz traditions during her class.

The professor first provided students with general information about the rich customs and traditions of Nowruz. She then introduced her students to the "Vasfi-hal" ceremony as a way to apply these traditions in a manner relevant to the lesson topic.

Vasfi-hal is one of the traditional customs of Nowruz.



In this ceremony, each participant places a personal jewelry item in a bowl filled with water, and the bowl is covered with a tablecloth. Then, a bayati (traditional poem) is recited, and one jewelry item is selected from the bowl. The meaning of the poem is interpreted in relation to the owner of the selected item, providing a personalized interpretation. Associate Professor Aynur Gazanfargizi's hands-on approach helped students better understand the significance of Nowruz while also increasing their interest in national culture.

# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ BDU-DA KEÇİRİLMİŞ TƏDBİRDƏ

# HEAD OF HISTORY AND ARCHAEOLOGY DEPARTMENT ATTENDS EVENT AT BSU

Martın 12-də Bakı Dövlət Universitetində (BDU) Türkiyə Cümhuriyyətinin müstəqillik simvolu olan Milli Marşın qəbul edilməsi və Mehmet Akif Ersoyun anım günü münasibətilə tədbir keçirilib. BDU və Bakı Yunus Əmrə İnstitutunun təşkilatçılığı ilə reallaşan tədbirdə universitetin prorektoru Prof. Fərda İmanov çıxışında Azərbaycan-Türkiyə münasibətlərinin qardaşlıq və dostluq prinsiplərinə əsaslandığını vurğulayıb.

On March 12, an event was held at Baku State University (BSU) to commemorate the adoption of the National Anthem, a symbol of independence of the Republic of Türkiye, and the remembrance day of Mehmet Akif Ersoy. At the event, organized by BSU and Baku Yunus Emre Institute, the university's Vice-Rector Prof. Farda Imanov emphasized in his speech that Azerbaijan-Türkiye relations are based on principles of brotherhood and friendship.




*Telman Nüsrətoğlu*

Universitetin Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan  Mehmet Akif Ersoyun Milli Marşı ilə daim xatırlandığını qeyd edib. Bakı Yunus Əmrə İnstitutunun rəhbəri Güvən Çolak "Anadolu ilə Xəzərin əli bir-birini sıx tutur, sərhədlərə baxmayaraq, könül dostluğu həmişə qalır, buna görə də hər iki ölkənin insanları bir-birinə "qardaş" deyə xitab edir",- deyə bildirib. Türkiyəli yazıçı Beşir Ayvazoğlu, türkoloq, Prof. Elman Quliyev tədbirdə çıxış ediblər.

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu "Türkiyənin milli mübarizə tarixi və Mehmet Akif  Ersoy"  mövzusundakı geniş məruzəsində Milli Marşının tarixi, bədii və siyasi əhəmiyyətindən danışaraq, onun istiqlal mübarizəsini əks etdirən dəyərli əsər olduğunu vurğulayıb.

Tədbirin sonunda BDU-nun Filologiya fakültəsinin tələbələri Türk ədəbiyyatına məxsus şeirləri səsləndiriblər.

The Dean of the University's Faculty of Oriental Studies, Aydan Khandan, noted that Mehmet Akif Ersoy is always remembered through the Independence March. The head of Baku Yunus Emre Institute, Guven Cholak, stated, "Anatolia and the Caspian hold each other's hands tightly; despite borders, friendship of hearts always remains, which is why people of both countries address each other as 'brothers'." Turkish writer Beshir Ayvazoglu and Turkologist Prof. Elman Guliyev also spoke at the event. Assoc. Prof. Telman Nusratoglu, Head of the History and Archaeology Department at Khazar University, in his extensive presentation on "Türkiye's National Struggle History and Mehmet Akif Ersoy," discussed the historical, artistic, and political significance of the Independence March, emphasizing that it is a valuable work reflecting the struggle for independence. At the end of the event, students from BSU's Faculty of Philology recited poems from Turkish literature.

## CƏNUBİ QAFQAZDA NEOLİT MƏDƏNİYYƏTİNİN GENEZİSİNƏ DAİR SEMİNAR

Martın 12-də Xəzər Universitetində Tarix və arxeologiya departamenti və Humanitar, təhsil və sosial elmlər fakültəsinin təşkilatçılığı ilə AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Neolit və Xalkolit dövrü arxeologiyası" şöbəsinin müdürü Dos. Xəqani Alməmmədovun "Cənubi Qafqazda erkən əkinçi-maldar mədəniyyətlərin təşəkkülü, inkişaf dinamikası və xronologiyası" mövzusunda elmi seminarı keçirilmişdir.

Seminarda Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Pərvin Kərimova, AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, Tarix və arxeologiya departamentinin müəllimi Dr. Yaqub Məmmədov, Tarix və Aarxeologiya departamentinin müəllimi Dr. Laçın Mustafayev, Bakı Ali Neft Məktəbinin müəllimi Faiq Nəsibov və Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi və Tarix və coğrafiya müəllimliyi ixtisasları üzrə təhsil alan tələbələri iştirak etmişdir.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru Tufan Axundovun xatirəsinə həsr olunmuş seminarda Dos. X. Alməmmədov Cənubi Qafqazda erkən əkinçi-maldar mədəniyyətlərin öyrənilməsi tarixindən, əldə olunmuş nəticələrdən, eləcə də, özünün bilavasitə iştirakı və rəhbərliyi ilə aparılan tədqiqatlar haqqında geniş məlumat vermişdir.

Sonda mövzu ətrafında müzakirə aparılmış, tələbələri maraqlandıran suallar cavablandırılmışdır.

## SEMINAR ON THE GENESIS OF NEOLITHIC CULTURE IN THE SOUTH CAUCASUS

On March 12, the Department of History and Archaeology and the School of Humanities, Education and Social Sciences at Khazar University hosted a scholarly seminar titled "The Formation, Development Dynamics, and Chronology of Early Agricultural-Pastoral Cultures in the South Caucasus." The seminar was presented by Associate Professor Khagani Almammadov, Head of the "Neolithic and Chalcolithic Archaeology" Department at the Institute of Archaeology and Anthropology of the Azerbaijan National Academy of Sciences (ANAS).

The seminar was attended by Parvin Karimova, Deputy Dean of the School of Humanities, Education and Social Sciences at Khazar University; Dr. Yagub Mammadov, Leading Researcher at the Institute of Archaeology and Anthropology of ANAS and lecturer at the Department of History and Archaeology; Dr. Lachin Mustafayev, lecturer at the Department of History and Archaeology; Faig Nasibov, lecturer at Baku Higher Oil School; and students specializing in History Teaching and History and Geography Teaching from the Faculty of Humanities, Education and Social Sciences.

Dedicated to the memory of Dr. Tufan Akhundov, Senior Researcher at the Institute of Archaeology and Anthropology of ANAS, the seminar featured Associate Professor Almammadov providing comprehensive information about the history of research on early agricultural-pastoral cultures in the South Caucasus, the findings obtained, and investigations conducted under his direct participation and leadership. The seminar concluded with a discussion on the topic, during which students' questions were addressed.



Saleh Bağırov



# TELEVİZİYA VƏ RADİO APARICISI SALEH BAĞIROVLA TƏLƏBƏLƏRİN GÖRÜŞÜ

Martın 12-də Karyera və Məzunlar Mərkəzinin və Dillər və Ədəbiyyatlar departamentinin birgə təşkilatçılığı ilə Xəzər Universiteti Nərimanov korpusunun İnciçiçəyi salonunda Azərbaycan dili və ədəbiyyat müəllimliyi və Filologiya (Azərbaycan dili və ədəbiyyatı)" ixtisası üzrə təhsil alan tələbələr üçün televiziya və Radio aparıcısı, aktyor Saleh Bağırovun "Qloballaşan dünyada ədəbi danışıq dilinin və düzgün nitqin əhəmiyyəti" mövzusunda seminarı keçirildi.

Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva tədbiri açaraq, Mərkəzin fəaliyyət istiqamətlərindən, xidmətlərindən, məzunlarla əlaqələrin əhəmiyyətindən bəhs etdi. Həmçinin o, təşkil olunan belə tədbirlərin tələbələrin şəxsi və karyera inkişafındakı müsbət təsirini də qeyd etdi.



Almaz Bədəlova



Sonra Saleh Bağırov gündəlik ünsiyyətdə ədəbi dil normativləri, düzgün nitqin əhəmiyyəti, ana dilinin zənginliyi, gənclərin şəxsi və peşəkar inkişafında mütaliənin vacibliyindən geniş söhbət açdı. Ədəbi dil normalarının sabitləşməsində və möhkəmlənməsində ali məktəblərin də xüsusi rolu olduğunu, tamaşa və teatrlara getməyin, yanıltmaclar oxumaq və səsli şəkildə mütaliə etməyin dili cilalamasında və fikrin formalaşmasında, danışıq mədəniyyətini inkişaf etdirməkdə əhəmiyyətlini qeyd etdi.

Tədbirdə Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova, müəllimləri Dr. Almaz Bədəlova, Dr. Qardaşxan Əzizxanlı və digərlərinin maraqlı çıxışları oldu.

Tədbir interaktiv şəkildə davam etdi, tələbə və müəllimlərin sualları cavablandırıldı.

# MEETING OF STUDENTS WITH TV AND RADIO HOST SALEH BAGIROV



*Dilbər Zeynalova*

On March 12, a workshop titled "The Importance of Literary Speech and Correct Articulation in a Globalizing World" was held at Khazar University's Narcissus Hall in the Narimanov campus. The event, jointly organized by the Career and Alumni Center and the Department of Languages and Literature, featured TV and radio host and actor Saleh Bagirov as the keynote speaker. The workshop was attended by students majoring in Azerbaijani Language and Literature Teaching and Philology (Azerbaijani Language and Literature).

The Director of the Career and Alumni Center, Zarifa Aliyeva, opened the event by highlighting the Center's core activities, services, and the significance of maintaining strong alumni relationships. She also emphasized the positive impact such events have on students' personal development and career advancement.

Following the introduction, Saleh Bagirov delivered an in-depth presentation on literary language standards in everyday communication, the importance of proper speech, the richness of the native language, and the vital role of reading in young people's personal and professional growth. He underscored the special responsibility universities bear in establishing and reinforcing literary language norms, and advocated for theater attendance, tongue-twister practice, and reading aloud as powerful tools for language refinement, thought development, and enhancement of conversational culture.

The event featured noteworthy contributions from Department of Languages and Literature representatives, including Department Head Assoc. Prof. Dilbar Zeynalova, Dr. Almaz Badalova, Dr. Gardashkhan Azizkhanli, and other faculty members.

The workshop proceeded in an interactive format, with questions from both students and instructors addressed throughout the session.



*Zərifə Əliyeva*



# FİZİKA VƏ ELEKTRONİKA DEPARTAMENTİNDƏ ELEKTRİK GÜC SİSTEMLƏRİ LABORATORİYASI YARADILDI



# ELECTRIC POWER SYSTEMS LABORATORY ESTABLISHED AT THE DEPARTMENT OF PHYSICS AND ELECTRONICS

Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakultəsinin Fizika və elektronika departamentində Türkiyənin "Yıldırım Elektronik" şirkəti tərəfindən Elektrik Güc Sistemləri laboratoriyası yaradılıb.

Laboratoriya elektrik və elektronika mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələrin nəzəri biliklərini praktiki şəkildə tətbiq edərək inkişaf etdirmələrinə imkan verir.

Laboratoriya elektrik enerjisinin istehsalı, ötürülməsi, yayılması və istifadəsi ilə bağlı müxtəlif sistemləri sınaqdan keçirmək və araşdırmaq üçün nəzərdə tutulmuşdur. Belə ki, bu laboratoriya elektrik maşınlarının təlim seti, güç sistemləri təlim seti, modul kompensasiya təlim seti, ötürücü xətlərin təlim seti və torpaqlama təlim setlərindən ibarətdir.

A new Electric Power Systems Laboratory has been established at the Department of Physics and Electronics within the School of Science and Engineering at Khazar University, developed by Türkiye's "Yıldırım Elektronik" company.

The state-of-the-art facility enables students pursuing degrees in electrical and electronics engineering to develop their practical skills by applying theoretical knowledge in hands-on environments. The laboratory is specifically designed for testing and researching various systems related to electricity generation, transmission, distribution, and utilization.

The comprehensive laboratory infrastructure includes electrical machinery training sets, power systems training modules, modular compensation training equipment, transmission line simulation units, and grounding system training apparatus.

# TƏLƏBƏLƏR BAKI YUNUS ƏMRƏ İNSTİTUTUNDA

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə tələbələri martın 13-də Yunus Əmrə İnstitutunda Beşir Ayvazoğlunun “Evə dönən şair: Yahya Kemal” adlı seminarında iştirak etdilər.




Seminar Yahya Kemal`ın keşməkeşli həyatına və ədəbi yaradıcılığına həsr olunmuşdu.

Tədbirin birinci hissəsi Yahya Kemal`ın ailə durumu, təhsili, maraqları kimi mövzuları əhatə etsə də, ikinci hissəsində ədibin şeirləri oxundu və həyatına dair bir çox şəkil təqdim edildi.

Sonra iştirakçıların mövzu ilə bağlı sualları cavablandırıldı və xatirə şəkli çəkildi.

# STUDENTS AT BAKU YUNUS EMRE INSTITUTE

Students from Khazar University's Department of Languages and Literature, specializing in Azerbaijani language and literature teaching, participated in Besir Ayvazoglu's seminar "The Poet Who Returned Home: Yahya Kemal" at the Yunus Emre Institute on March 13.

The seminar was dedicated to Yahya Kemal's tumultuous life and literary works. While the first portion of the event encompassed topics such as Yahya Kemal's family circumstances, education, and interests, the second segment featured readings of the writer's poetry and presentations of numerous photographs documenting his life.

Subsequently, participants' questions regarding the subject matter were addressed, followed by the capturing of a commemorative photograph.

# LATVİYANIN KEÇMİŞ PREZİDENTİ XƏZƏR UNİVERSİTETİNDƏ



*Hamlet İsaxanlı*



*Edqars Skuja, Andris Berzins*

# FORMER PRESIDENT OF LATVIA VISITS KHAZAR UNIVERSITY

Martın 14-də Xəzər Universiteti Latviyanın keçmiş prezidenti Andris Berzins, Latviyanın Azərbaycandakı səfiri Edqars Skuja, Latviya səfirliyinin mədəniyyət, təhsil və iqtisadi məsələlər üzrə müşaviri Elmira Mirzəyeva və keçmiş prezidentin assisteni Daina Bāre`ni qəbul edib.

Xəzər Universiteti tərəfindən görüşdə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, Rektor vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsaeva, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin

On March 14, Khazar University had the honor of welcoming the former President of Latvia, Andris Bērziņš. He was accompanied by Edgars Skuja, Ambassador of Latvia to Azerbaijan; Elmira Mirzayeva, Counselor for Culture, Education, and Economic Affairs at the Latvian Embassy; and Daina Bāre, the former president's assistant.

From Khazar University, the meeting was attended by the university's founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli; Acting Rector Prof. Mahammad Nuriyev; Dean of the School of Economics and Management



*Raziyə İsaeva, Aygün Verdiyeva, Lyudmila Sotova, Fatimə Vəliyeva,*



Daina Bāre



dekanı Prof. İnqilab Əhmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Dr. Günel Bahəddinova, Humanitar, Təhsil və Sosial Elmlər fakültəsinin Dekan vəzifəsini icra edən Aygün Verdiyeva, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər.

Görüşdə ikitərəfli əlaqələrin qurulması istiqamətində müzakirələr aparılıb. Latviyanın qabaqcıl universitetləri ilə əməkdaşlığın inkişaf etdirilməsində dəstəyin göstəriləcəyi qeyd olunub.

Xəzər Universiteti haqqında təqdimat nümayiş etdirilərək, ətraflı məlumat verilib.

Sonra xatirə şəkli çəkildi və hədiyyələr təqdim olundu.




Dr. Raziya Isayeva; Dean of the Graduate School of Economics and Business Prof. Inqilab Ahmadov; Dean of the School of Science and Engineering Dr. Fakhranda Afandiyeva; Dean of the Graduate School of Science, Art, and Technology Dr. Gunel Baheddinova; Acting Dean of the School of Humanities, Education and Social Sciences Aygun Verdiyeva; Director of the Quality Assurance Center Lyudmila Sotova; Head of the Department of Political Science and Philosophy Dr. Orkhan Valiyev; and Head of the International Affairs Office Fatima Valiyeva.

The meeting featured fruitful discussions focused on establishing bilateral cooperation. It was emphasized that support would be provided in developing partnerships with leading Latvian universities.

A presentation about Khazar University was delivered, offering guests a comprehensive overview of the institution.

The visit concluded with a commemorative photo session and the exchange of gifts.



*Yaqut Nuriyeva*

## XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU TƏLƏBƏLƏR ÜÇÜN SEMİNAR KEÇİRDİ

Martın 14-də Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə İngilis dili müəllimliyi və Tərcümə (ingilis dili) ixtisasları üzrə təhsil alan tələbələri üçün Cambridge Education Center-in təsisçisi, Xəzər Universitetinin məzunu Yaqut Nuriyeva tərəfindən "Duolingo vs TOEFL/IELTS, which is better?" mövzusunda seminar təşkil olundu.

Yaqut Nuriyeva çıxışında TOEFL/IELTS və Duolingo nədir, hansı ölkələrdə tanınır, test quruluşu necə olur, onlar arasında fərqlər nədən ibarətdir, Duolingonun mənfi və müsbət tərəflərindən bəhs etdi.

Həmçinin o, tələbələrə qrammatik suallar verdi, şifahi və yazılı testlər təqdim etdi. Tələbələr aktiv iştirak edərək sualları cavablandırdı.

Verilən testlər əsasında uğurlu nəticə göstərən beş tələbə Cambridge Education Center-də 1 aylıq ödənişsiz təhsil almaq imkanı qazanacaq.



## KHAZAR UNIVERSITY ALUMNA CONDUCTS SEMINAR FOR STUDENTS

On March 14, the Career and Alumni Center organized a seminar titled "Duolingo vs TOEFL/IELTS, which is better?" for students majoring in English Language Teaching and Translation (English language). The workshop was conducted by Yagut Nuriyeva, a Khazar University alumna and founder of Cambridge Education Center.

During her presentation, Ms. Nuriyeva elucidated the fundamental distinctions between TOEFL/IELTS and Duolingo, elaborating on their international recognition, test structures, and the comparative advantages and disadvantages of Duolingo.



Additionally, she challenged students with grammatical questions and administered both oral and written assessments. Students demonstrated enthusiastic participation in responding to the inquiries.

Based on the evaluation outcomes, five high-performing students will be granted the opportunity to receive a one-month complimentary education program at Cambridge Education Center.



# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ VƏ MÜƏLLİMLƏRİ BEYNƏLXALQ ELMİ KONFRANSDA

# HEAD AND FACULTY OF HISTORY AND ARCHAEOLOGY DEPARTMENT PARTICIPATE IN INTERNATIONAL SCIENTIFIC CONFERENCE

HEYDƏR ƏLİYEV MƏRKƏZİ




*Ülviyyə Səfərova, Yaqub Məmmədov,Telman Nüsrətoğlu, Könül İbrahimli*

Martın 14-16-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Qədim insan məskənlərinin mühafizəsi: təhdidlər və müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

Konfransda bir sıra ölkələrdən elm adamları, tədqiqatçılar, ekspertlər, eləcə də qeyri-hökumət təşkilatlarının təmsilçiləri və media nümayəndələri bir araya gəliblər. İştirakçılar əvvəlcə Azərbaycan ərazisindəki qədim yaşayış məskənlərindən aşkar olunan eksponatlardan ibarət sərgi ilə tanış olublar.

Konfransda Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu, müəllimlər Dr. Yaqub Məmmədov, Orxan Zamanov və Ülviyyə Səfərova, Tarix müəllimliyi ixtisasında təhsil alan III kurs tələbəsi Könül İbrahimli iştirak edib.

From March 14-16, an international scientific-practical conference titled "Preservation of Ancient Human Settlements: Threats and Contemporary Approaches" was held at the Heydar Aliyev Center, organized by the Ministry of Culture of the Republic of Azerbaijan. The conference brought together scholars, researchers, experts from various countries, as well as representatives of non-governmental organizations and media personnel. Participants initially familiarized themselves with an exhibition featuring artifacts discovered from ancient settlements throughout Azerbaijan's territory.

Associate Professor Telman Nusratoglu, Head of the History and Archaeology Department at Khazar University, participated in the conference alongside faculty members Dr. Yagub Mammadov, Orkhan Zamanov, and Ulviyya Safarova, as well as third-year History Education major Konul Ibrahimli.

# TƏLƏBƏLƏRİN DEKAN DR. RAZİYƏ İSAYEVA İLƏ GÖRÜŞÜ




*Raziyə İsayeva*



Martın 17-də Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayeva universitetin tələbələri ilə görüş keçirdi. O, çıxışında fakültə haqqında ümumi məlumat verdi, fakültənin cari təşəbbüsləri, gələcək planları barədə danışdı.

Görüşdə tələbələrin bir sıra mühüm məsələlərə toxunduğu sual-cavab sessiyası da keçirildi. Bu məsələlər karyera inkişafı proqramlarından, tədqiqat imkanları və təcrübələrə qədər geniş bir spektri əhatə etdi.

Sessiya tələbələrin həm akademik, həm də universitetin qeyri-akademik həyatında iştirakının əhəmiyyətini vurğuladı.

Dr. İsayeva tələbələri əyləncəli bir bilik yarışmasına da cəlb edərək, universitetlə bağlı suallar verdi və mükafat olaraq kitablar təqdim etdi. Sonda tələbələr dekanla belə açıq və konstruktiv bir mühitdə qarşılıqlı əlaqə qurma imkanı üçün təşəkkürlərini bildirdilər.




# MEETING OF STUDENTS WITH DEAN DR. RAZIYA ISAYEVA

On March 17, Dr. Raziya Isayeva, Dean of the School of Economics and Management at Khazar University, held a meeting with the university's students. In her speech, she provided an overview of the faculty, touching upon its ongoing initiatives and future plans.

The meeting featured a dynamic Q&A session, during which students raised a variety of important topics ranging from career development programs to research opportunities and internships.

The session underscored the importance of student engagement in both academic and extracurricular life at the university. Adding a touch of fun to the gathering, Dr. Isayeva also hosted an engaging knowledge quiz focused on university-related topics. Winners were awarded books as prizes.

At the end of the meeting, students expressed their gratitude for the opportunity to interact with the dean in such an open and constructive atmosphere.

# NİYAL KURSLARININ DİNLƏYİCİLƏRİ İLƏ GÖRÜŞ




*Ülvi Babasoy*



*Mələk Kərimova*

Martın 17-də Xəzər Universitetinin Mərmər salonunda İsmayıllı şəhəri Niyal kurslarının dinləyiciləri ilə görüş keçirilmişdir. Universitetin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy abituriyentlərə universitetin tədris prosesi və təhsil imkanları barədə ətraflı məlumat vermişdir. Niyal kurslarının məzunu, Xəzər Universitetinin İbtidai sinif müəllimliyi ixtisasının 3-cü kurs tələbəsi Sevda Nəbiyeva universitetdəki pozitiv ovqat və keyfiyyətli tədris prosesi ilə bağlı öz təəssüratlarını bölüşmüşdür.

Universitetin Psixologiya Mərkəzinin direktoru Mələk Kərimova vaxtın idarə edilməsi, imtahan prosesində həyəcanın aradan qaldırılması və səmərəli çalışma metodları ilə bağlı tövsiyələrini vermişdir.

Universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli Xəzər Universiteti haqqında geniş çıxış etmişdir.

Sonda abituriyentlər universitetin kitabxana və laboratoriyaları ilə tanış olmuşlar.

## MEETING WITH ATTENDEES OF NIYAL COURSES

On March 17, a meeting was held with attendees of Niyal courses from Ismayilli city in the Marble Hall of Khazar University. Ulvi Babasoy, instructor at the Department of Languages and Literature, provided prospective students with comprehensive information regarding the university's educational process and academic opportunities. Sevda Nabiyeva, a third-year Elementary Education major at Khazar University and alumna of Niyal courses, shared her impressions about the positive atmosphere and high-quality educational environment at the university.

Malak Karimova, Director of the University's Psychology Center, offered valuable recommendations on time management, strategies for overcoming examination anxiety, and effective study methodologies.

Alovsat Amirbayli, Director of Public Relations and Media at the university, delivered an extensive presentation about Khazar University.

The session concluded with the prospective students touring the university's libraries and laboratories.



*Sevda Nəbiyeva*



# XƏZƏR UNİVERSİTETİ VƏ QUSAR RAYONU CİBİR KƏND MƏKTƏBİNİN BİRGƏ NOVRUZ BAYRAMI

*Ramin Qarayev*

Martın 18-də Qusar rayonunda Xəzər Universiteti və Qusar rayonu Cibir kənd məktəbinin birgə təşkilatçılığı ilə Novruz bayramı keçirildi. Tədbirdə Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutunun koordinatoru Dos. Aynur Qəzənfərqızı və Cibir kənd məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi, Xəzər Universitetinin məzunu Nəcibə Zeynalova çıxış edərək, iştirakçıları Novruz bayramı münasibətilə təbrik etdilər, belə ənənəvi bayramların birliyi və mədəni dəyərləri yaşatmaq baxımından önəmli, şagird və tələbələrin bu bayramı birgə qeyd etməsinin sevindirici olduğunu vurğuladılar.

Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli Novruz bayramının Azərbaycan mədəniyyətində xüsusi yer tutduğunu, bu bayramın insanları bir araya gətirən və dostluğu gücləndirən mühüm bir dəyər olduğunu qeyd etdi.

Tədbirdə Qusar Təhsil Sektorunun əməkdaşı İldırım Zeynalov, Özbəkistandan gəlmiş qonaq Dilbər Haydarova, Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan əvəzi Aygün Verdiyeva, universitetin müəllimi Elmira Kekeç də çıxış ediblər.

Novruz şənliyində Cibir kənd məktəbinin şagirdləri bayrama həsr olunmuş səhnəciklər, milli rəqslər nümayiş etdirdilər. Xəzər Universitetinin müəllimi aşıq Ramin Qarayev öz ifaları ilə, Xəzər Universitetinin rəqs qrupu da öz çıxışı ilə tədbirə əlavə gözəllik bəxş etdilər.



*Aynur Qəzənfərqızı*

Tədbirin sonunda Aynur Qəzənfərqızı bayram şənliyinin təşkilində fəal iştirak edən Cibir kənd məktəbinin şagirdlərinə təşəkkürnamələr təqdim edərək, təşkilatçılara və iştirakçılara minnətdarlıq bildirdi.

**NigarƏləsgərli**
**Xəzər Universiteti,**
**Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası, 1-ci kurs**

# KHAZAR UNIVERSITY AND QUSAR DISTRICT JIBIR VILLAGE SCHOOL CELEBRATE NOVRUZ TOGETHER




*Əlövsət Əmirbəyli, Nəcibə Zeynalova*

On March 18, a joint Novruz celebration was held in Qusar district, organized by Khazar University and Jibir Village School. Associate Professor Aynur Gazanfarqizi, Coordinator of Khazar University's Institute of Cultural Anthropology and Folklore, and Najiba Zeynalova, an Azerbaijani language and literature teacher at Jibir Village School and a Khazar University alumna, delivered congratulatory speeches. They emphasized the significance of preserving cultural values through traditional celebrations and highlighted the joy of students and pupils coming together for this special occasion.

Alovsat Amirbeyli, Director of Public Relations and Media at Khazar University, spoke about the profound role of Novruz in Azerbaijani culture, describing it as a festival that unites people and strengthens friendships.

The event also featured remarks from Ildirim Zeynalov, a representative of the Qusar Education Sector, Uzbek guest Dilbar Haydarova, Acting Dean of Khazar University's School of Humanities and Social Sciences Aygun Verdiyeva, and university lecturer Elmira Kekech.

The Novruz festivities included vibrant performances by Jibir Village School students, who presented theatrical sketches and traditional dances dedicated to the holiday. Additionally, Khazar University's lecturer, Ashiq Ramin Garayev, captivated the audience with his musical performances, while the university's dance ensemble added to the festive atmosphere with a dynamic showcase.

At the conclusion of the event, Aynur Gazanfarqizi expressed gratitude to all participants and organizers. She also presented certificates of appreciation to the students of Jibir Village School for their active involvement in the celebration.

**Nigar Alasgarli**
**Khazar University,**
**First-year student, Azerbaijani Language and Literature Teaching**



# NOVRUZ XONÇASININ DİZAYN EDİLMƏSİ MÖVZUSUNDA USTAD DƏRSİ

# MASTERCLASS ON DESIGNING THE NOVRUZ KHONCHA

Martın 18-də Xəzər Universitetində CozyByMadi markasının yaradıcısı Mədinə Quliyevanın təqdimatı ilə ilhamverici və bayram təntənəsi ilə dolu bir ustad dərsi keçirilib. Tədbir İqtisadiyyat və menecment fakültəsinin tələbələri və əməkdaşlarını bir araya gətirərək, mədəniyyəti, yaradıcılığı və turizm innovasiyasını birləşdirən praktiki bir təcrübə təqdim etdi.



*Mədinə Quliyeva*



Ustad dərsinin əsas mövzuları "Turizm üçün dizayn və dekorasiya" və "Novruz hazırlıqları" idi. İştirakçılar, turizm sənayesi üçün mədəni köklərə əsaslanan və vizual cəhətdən gözəl görünən dekorasiya üsulları öyrəndilər. Ustad dərsi zamanı xüsusilə Novruzun ənənəvi elementlərinə diqqət yetirildi.

Mədinə Quliyeva iştirakçılara Novruzla əlaqəli səməni, ənənəvi şirniyyatlar, meyvələr və əl işləri kimi elementlərdən istifadə edərək, təbii və simvolik əşyalarla bayram süfrələrinin və dekorativ nümayişlərin dizaynı prosesini izah etdi. O, bu sahədə öz təcrübələrini bölüşərək, tələbələri belə gözəl sənət əsərləri yaratmağa ilhamlandırdı.

On March 18, Khazar University hosted an inspiring and festive masterclass led by Madina Guliyeva, the founder of the CozyByMadi brand. The event brought together students and staff from the School of Economics and Management, offering a hands-on experience that blended culture, creativity, and tourism innovation.

The masterclass centered around two main themes: “Design and Decoration for Tourism” and “Novruz Preparations.” Participants explored culturally rooted and visually captivating decoration techniques tailored for the tourism industry. Special emphasis was placed on the traditional elements of the Novruz holiday.

During the session, Madina Guliyeva guided participants through the process of designing festive displays and tables using symbolic and natural items such as samani, traditional sweets, fruits, and handmade crafts—all associated with Novruz. By sharing her own experiences in the field, she inspired students to create their own works of festive art.

## MAFİ-NİN KOORDİNATORU *AZƏRBAYCAN DÖVLƏT RADİOSU*NDA

Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstututunun koordinatoru Dos. Aynur Qəzənfərqızı martın 11-də *Azərbaycan Dövlət Radiosu*nda çərşənbələrlə bağlı çıxış edib.

Verilişdə Novruz bayramının dörd çərşənbəsi - Su, Od, Yel və Torpaq çərşənbələrinin mənası, tarixi və xalq inanclarındakı rolu müzakirə olunub. Aynur Qəzənfərqızı çərşənbələrin qədim türk mifologiyası ilə bağlılığına toxunaraq, onların Azərbaycan xalqının mənəvi dəyərləri, adət-ənənələri ilə bağlılığı haqqında danışıb. Mövzu ilə bağlı verilən sualları cavablandıran Aynur Qəzənfərqızı çərşənbələrin gənc nəsillərə doğru şəkildə çatdırılmasının, milli irsin qorunması və gələcək nəsillərə ötürülməsinin vacibliyini qeyd edib. Dinləyicilərin böyük marağına səbəb olan bu veriliş Novruz ənənələrinin daha dərindən anlaşılmasına kömək olub.

## CAFI COORDINATOR FEATURES ON *AZERBAIJAN STATE RADIO*

The coordinator of Khazar University's Cultural Anthropology and Folklore Institute (CAFI), Associate Professor Aynur Gazanfargizi, made an appearance on *Azerbaijan State Radio* on March 11 discussing the traditions of "charshanba" (Tuesday celebrations) related to Nowruz.

During the broadcast, the four charshanba celebrations of Nowruz holiday - Water, Fire, Wind, and Earth Tuesdays - were discussed, exploring their significance, historical context, and role in folk traditions. Aynur Gazanfargizi highlighted the connection between these celebrations and ancient Turkic mythology, elaborating on their deep-rooted relationship with the spiritual values and customs of the Azerbaijani people. Addressing questions on the topic, she emphasized the importance of properly conveying these Tuesday traditions to younger generations and preserving this national heritage for future generations. The broadcast, which generated significant interest among listeners, contributed to a deeper understanding of Nowruz traditions.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ DOS. TELMAN NÜSRƏTOĞLUNUN İŞTİRAKI İLƏ *AZƏRBAYCAN DÖVLƏT TELEVİZYASI*NDA HAZIRLANAN ANALİTİK PROQRAMIN NÖVBƏTİ XÜSUSİ BURAXILIŞI YAYIMLANIB

## SPECIAL EDITION OF ANALYTICAL PROGRAM FEATURING ASSOC. PROF. TELMAN NUSRATOGLU, HEAD OF THE DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY, BROADCAST ON *AZERBAIJAN STATE TELEVISION*

Martın 17-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlunun iştirakı ilə *Azərbaycan Dövlər Televizyası*nda hazırlanan Hədəf proqramının növbəti analitik buraxılışı yayımlanıb. Verilişdə Qafqazda Erməni məsələsinin tarixi, 44 günlük Vətən müharibəsindən sonra sülh müzakirələri ətrafında Ermənistan dövlətinin apardığı ziddiyətli siyasətin səbəbləri geniş şəkildə təhlil edilmişdir. Proqramın linkini təqdim edirik

On March 17, a new analytical edition of the "Hadaf" (Target) program was broadcast on *Azerbaijan State Television*, featuring Assoc. Prof. Telman Nusratoglu, Head of the Department of History and Archaeology at Khazar University. The broadcast extensively analyzed the historical context of the Armenian question in the Caucasus, and the reasons behind Armenia's contradictory policy regarding peace negotiations following the 44-day Patriotic War.

*https://youtu.be/TAqLO9kA-dI?si=Kx2XZdQ3eN0CZ4HT*

## *“XƏZƏR”İN MÜƏLLİMİ “CLIMATE CHANGES AND GHG EDUCTION IN CITY ENVIRONMENTS” ADLI KURİKULUM MATERİALI HAZIRLAMIŞDIR*

## *KHAZAR UNIVERSITY INSTRUCTOR DEVELOPS CURRICULUM ON “CLIMATE CHANGE AND GHG REDUCTION IN CITY ENVIRONMENTS”*

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müəllimi, Alman Beynəlxalq Əməkdaşlığı EU4Climate Resillence və PROGRESS layihələrinin məsləhətçisi Dr. Rövşən Abbasov “Climate Changes and GHG reduction in city environments” adlı kurikulum materialı hazırlamışdır. Bu kursun əsas məqsədi tələbələrə şəhər ərazilərində iqlim dəyişikliyinin təsirləri, iqlim riskinin azaldılması, təsirin azaldılması və uyğunlaşma tədbirlərinin təşkili və idarə edilməsi haqqında lazımi biliklər verməkdir.

Kurs 240 dəqiqəlik olmaqla təkcə tələbələr üçün deyil, həm də qərarverici şəxslər və iqlim dəyişmələrinin şəhər mühitində təsirləri və onlara hazırlıq məsələləri ilə maraqlananlar üçün gərəkli ola bilər.

Kurs 2024-2025-ci dərs ilində tələbələrə tədris edilmişdir. Kurs çərçivəsində Rövşən Abbasov EU4Climate Resillence və PROGRESS layihələri ilə həyata keçirilən fəaliyyətlər barədə də ətraflı izahat vermişdir.

Kursla bağlı ilk məlumat 2024-cü ilin oktyabrında Xəzər Universitetində təşkil olunmuş “COP29 ərəfəsində: təhsil, ictimai səhiyyə və davamlı inkişafın koordinasiyası” adlı beynəlxalq simpoziumda verilmişdir.

Dr. Rovshan Abbasov, a lecturer at the Department of Geography and Environment of Khazar University and an advisor to the German International Cooperation’s EU4Climate Resilience and PROGRESS projects, has prepared a curriculum material titled “Climate Changes and GHG reduction in city environments”. The main goal of this course is to provide students with the necessary knowledge about the impacts of climate change in urban areas, climate risk reduction, the organization and management of mitigation and adaptation measures.

This course, being a 240-minute course, may be of interest not only to students, but also to decision-makers and all those interested in the impacts of climate change in urban environments and their preparedness.

The course was taught to students in the 20024-2025 academic year. Within the framework of this course, Rovshan Abbasov also provided detailed information about the activities carried out within the framework of the EU4Climate Resilience and PROGRESS projects.

The first informaiton about the course was delivered at the International Syposium “On the Eve of COP29: Coordination of Education, Public Health and Sustainable Development”, organized at the Khazar university in October, 2024.

## *“XƏZƏR”İN DOKTORANTINA FƏLSƏFƏ DOKTORU DİPLOMU TƏQDİM EDİLİB*

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2025-ci il tarixli qərarı ilə Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin və Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin doktorantı Şeyda Çevikelə 5901.01 – Beynəlxalq münasibətlər ixtisasında siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir.

Fəlsəfə doktoru diplomu Şeyda Çevikelə martın 18-də təqdim edilmişdir.

## *PHD DIPLOMA AWARDED TO KHAZAR UNIVERSITY DOCTORAL STUDENT*

By the decision of the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan dated March 3, 2025, Sheyda Chevik, a doctoral student at the Department of Political Science and Philosophy and the School of Science and Engineering at Khazar University, was awarded the academic degree of Doctor of Philosophy (PhD) in Political Science, specializing in 5901.01 – International Relations.

The PhD diploma was officially presented to Sheyda Chevik on March 18.

## *“XƏZƏR”İN MÜƏLLİMLƏRİ ERASMUS ROTTERDAM UNİVERSİTETİNDƏ*

Martın 25-də Erasmus Rotterdam Universiteti (Niderland) Azərbaycanda su təhlükəsizliyi və Qlobal Avropa yayınmaları haqqında bir seminara ev sahibliyi etmişdir. "Su haqqında: Azərbaycan və Xəzər dənizi nümunəsi" adlı bu seminarda Xəzər Universitetinin nümayəndələri - Coğrafiya və ətraf mühit departamentinin müəllimləri Dr.Rövşən Abbasov və Dr. Rövşən Kərimovun müxtəlif mövzularda çıxışları olub.

Seminarda Erasmus Rotterdam Universitetinin və Xəzər Universitetinin əməkdaşları, o cümlədən doktorant tələbələr iştirak etmişlər.

Erasmus University Rotterdam

## *KHAZAR UNIVERSITY INSTRUCTORS AT ERASMUS UNIVERSITY ROTTERDAM*

On March 25, Erasmus University Rotterdam hosted a workshop on water security and global European challenges in Azerbaijan. The seminar, titled "Talking about water in countless ways: The case of Azerbaijan and the Caspian Sea," featured presentations on various topics by Khazar University representatives Dr. Rovshan Abbasov and Dr. Rovshan Karimov.

The seminar was attended by Erasmus Rotterdam University and Khazar University staff, as well as doctoral students and postgraduate students.

## *DEPARTAMENT MÜDİRİ VƏ TƏLƏBƏLƏR BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ DİPLOMATİYA ÜZRƏ YAZ MƏKTƏBİNDƏ*

## *DEPARTMENT HEAD AND STUDENTS PARTICIPATE IN THE SPRING SCHOOL ON INTERNATIONAL RELATIONS AND DIPLOMACY*

Martın 24-28-də Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev və departamentin bir qrup tələbəsi Beynəlxalq Münasibətlər və Diplomatiya üzrə Yaz Məktəbində iştirak ediblər. Yaz Məktəbi Strateji Düşüncə Tələbə Diplomatiya Mərkəzi və Bir Könüllü Tələbə Təşkilatı tərəfindən təşkil olunub.

Tədbir çərçivəsində Dos. Orxan Vəliyev “Qeyri-müəyyənlik dövründə türk refleksi: Türk Dövlətləri Təşkilatı” mövzusunda məruzə ilə çıxış edib. Təlim zamanı iştirakçılara qeyri-müəyyənlik şəraitində Türk Dövlətləri Təşkilatının regional əməkdaşlıqda rolu, türkdilli ölkələrin geosiyasi yanaşmaları və gələcək perspektivləri haqqında ətraflı məlumat verilib.

Yaz Məktəbində Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin magistrantları Firuzə İsmayılova, Mələk Hüseynova, bakalavr tələbələrindən isə Azər Həsənov, Mir Aqşin Əlizadə, Seyid Həsənli, Elçin Aşurlu və İbrahim Ələsgərli iştirak ediblər. Beş gün davam edən proqram çərçivəsində tələbələr həm nəzəri biliklərini artırıb, həm də qrup işləri və təqdimatlar vasitəsilə öyrəndiklərini praktik şəkildə tətbiq etmək imkanı qazanıblar.

From March 24 to 28, Associate Professor Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy at Khazar University, along with a group of students from the department, participated in the Spring School on International Relations and Diplomacy. The program was organized by the Strategic Thinking Student Diplomacy Center and the One Volunteer Student Organization.

As part of the event, Associate Professor Orkhan Valiyev delivered a lecture titled "The Turkic Response in Times of Uncertainty: The Organization of Turkic States." During the session, participants were provided with in-depth insights into the role of the Organization of Turkic States in regional cooperation under conditions of uncertainty, the geopolitical approaches of Turkic-speaking countries, and their future perspectives.

The Spring School was attended by Khazar University’s graduate students Firuza Ismayilova and Melek Huseynova, as well as undergraduate students Azer Hasanov, Mir Aqshin Alizade, Seyid Hasanli, Elchin Ashurlu, and Ibrahim Alasgarli. Over the course of the five-day program, students not only enhanced their theoretical knowledge but also had the opportunity to apply what they learned through group work and presentations.



*Dilbər Haydarova, Füzuli Bayat, Aynur Qəzənfərqızı*

## ÖZBƏK DOKTORANTIN XƏZƏR UNİVERSİTETİNDƏ ELMİ TƏCRÜBƏSİ

## UZBEK DOCTORAL STUDENT'S ACADEMIC INTERNSHIP AT KHAZAR UNIVERSITY

Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinin doktorantı Dilbər Haydarova 2025-ci ilin mart ayında Xəzər Universitetində elmi təcrübə keçib. O, universitetin Mədəni Antropologiya və Folklor İnstitutuna (MAFİ) gələrək, elmi-tədqiqat fəaliyyəti ilə tanış olub, folklor araşdırmaları aparıb və bu sahədəki bilik və təcrübəsini artırıb.

Dilbər Haydarova elmi təcrübəsini Mədəni Antropologiya və Folklor İnstitutunun koordinatoru Dos. Aynur Qəzənfərqızının rəhbərliyi altında keçib. Bu müddətdə əsas diqqət onun dissertasiya mövzusu – "Özbəkistan və Azərbaycan miflərində qadın obrazları" ilə bağlı elmi nəşrlərin toplanması və tədqiqinə yönəldilib. Bundan əlavə, Dos. Aynur Qəzənfərqızının təşəbbüsü ilə Dilbər Haydarova Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda tanınmış folklorşünaslarla görüşlər keçirib və elmi müzakirələr aparıb. Xüsusilə, professor Füzuli Bayatın Türk dünyası miflərində qadın obrazları mövzusunda təqdim etdiyi məruzə onun üçün əhəmiyyətli olub.

Azərbaycan folklorunun canlı nümunələri ilə yaxından tanış olmaq məqsədilə Aynur Qəzənfərqızı və Dilbər Haydarova Azərbaycanın Qusar rayonuna səfər ediblər. Burada özbək doktorant İlaxır Çərşənbənin qeyd olunması ənənələrini müşahidə edərək, maraqlı məlumatlar toplayıb.

Təcrübə müddətini uğurla başa vurduğuna görə Dilbər Haydarovaya sertifikat təqdim edilib. Qeyd edək ki, onun elmi işinin ikinci rəhbəri Xəzər Universitetinin Mədəni Antropologiya və Folklor İnstitutunun koordinatoru Dos. Aynur Qəzənfərqızıdır.

In March Dilber Haydarova, a doctoral student from the Navoi Tashkent State University of Uzbek Language and Literature, completed an academic internship at Khazar University. During her stay, she visited the Institute of Cultural Anthropology and Folklore (MAFI) at the university, where she familiarized herself with the research activities, conducted folklore studies, and enhanced her knowledge and experience in this field.

Dilber Haydarova carried out her internship under the supervision of Associate Professor Aynur Qazanfargizi, the coordinator of the Institute of Cultural Anthropology and Folklore. The primary focus during this period was on collecting and studying scientific publications related to her dissertation topic, "Female Figures in the Myths of Uzbekistan and Azerbaijan." In addition, at the initiative of Associate Professor Aynur Qazanfargizi, Dilber Haydarova had meetings and scientific discussions with prominent folklorists at the Institute of Folklore of the Azerbaijan National Academy of Sciences. Notably, the presentation by Professor Fuzuli Bayat on the subject of female figures in Turkic world myths was particularly significant for her.

To gain firsthand experience of Azerbaijan's living folklore, Aynur Qazanfargizi and Dilber Haydarova visited the Quba region of Azerbaijan, where she observed the traditions of celebrating Ilakhir Charshanba and gathered valuable information.

Upon successfully completing the internship, Dilber Haydarova was awarded a certificate. It is worth noting that her second academic supervisor is Associate Professor Aynur Qazanfargizi, the coordinator of the Institute of Cultural Anthropology and Folklore at Khazar University.

## *PSİXOLOGİYA DEPARTAMENTİ ƏMƏKDAŞININ HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ “MİLLİ NEVROLOGİYA JURNALI”NDA*

Azərbaycan Tibb Universiteti Yoluxucu xəstəliklər kafedrasının professoru, Tibb elmləri doktoru Mirzamin Muxtarov və Xəzər Universiteti Psixologiya departamentinin əməkdaşı Mirsadiq Muxtarovun “Bir sıra infeksion xəstəliklərin bəzi yoluxucu və psixiatrik patologiyaların, həmçinin psixoloji pozuntuların klinik təzahüründəki roluna müasir baxış” adlı birgə məqaləsi Ali Attestasiya Komissiyasının siyahısına daxil olan “*Milli Nevrologiya Jurnalı*”nda (təsisçi: Nevroloqların Milli Assosiasiyası) dərc olunmuşdur (№ 1 (25) 2024).

Müəlliflər məqalədə müxtəlif infeksion xəstəliklərin psixi pozuntulara təsiri və infeksiyaların sinir-psixi pozuntuların inkişafındakı rolunu müasir ədəbiyyatlara istinadən araştıdmışlar. Məqalədə tədqiqatlar nəticəsində infeksion xəstəliklərin psixiatrik və psixoloji pozuntuların etiologiyasını anlamaq baxımından rolunun mühüm əhəmiyyət kəsb etdiyi vurğulanmışdır.




Müəlliflər infeksion xəstəliklərin psixiatrik patologiyalar və psixoloji pozuntular üzərində təsirini daha dərindən öyrənmək üçün multidissiplinar tədqiqatların aparılmalı olduğunu tövsiyyə etmişlər.

## *ARTICLE CO-AUTHORED BY PSYCHOLOGY DEPARTMENT STAFF MEMBER PUBLISHED IN "NATIONAL JOURNAL OF NEUROLOGY"*

A collaborative research paper titled "A Contemporary Perspective on the Role of Various Infectious Diseases in the Clinical Manifestation of Certain Communicable and Psychiatric Pathologies, as well as Psychological Disorders" co-authored by Professor Mirzamin Mukhtarov, Doctor of Medical Sciences from the Department of Infectious Diseases at Azerbaijan Medical University, and Mirsadiq Mukhtarov, a researcher from Khazar University's Psychology Department, has been published in the "*National Journal of Neurology*" (founded by the National Association of Neurologists), which is included in the Higher Attestation Commission's list (No. 1 (25) 2024).

In this groundbreaking publication, the authors have meticulously investigated the profound impact of diverse infectious diseases on mental disorders and comprehensively explored the pivotal role of infections in the development of neuropsychiatric disturbances, drawing extensively from contemporary literature. The article emphatically underscores the paramount significance of understanding infectious diseases as a crucial factor in elucidating the complex etiology of psychiatric and psychological disorders, as corroborated by substantial research findings.

The authors have advocated for the implementation of robust multidisciplinary investigations to further elucidate the intricate mechanisms through which infectious diseases exert their influence on psychiatric pathologies and psychological disturbances, potentially revolutionizing approaches to diagnosis and treatment in this interdisciplinary field.

## RİYAZİYYAT DEPARTAMENTİ PROFESSORUNUN MƏQALƏSİ “*URAL MATHEMATICAL JOURNAL*” JURNALINDA

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin “Spectral expansion for singular beta Sturm-Liouville problems” (“Singulyar beta Şturm-Liuvill məsələləri üçün spektral ayrılış”) adlı məqaləsi “Ural Mathematical Journal” jurnalında dərc olunmuşdur (2024, Cild 10, № 2). Qeyd edək ki, “*Ural Mathematical Journal*” jurnalı “Web of Science” və “Scopus” verilənlər bazalarında indekslənib.

Məqalədə beta Şturm-Liuvill məsələləri tədqiq edilir. Belə tənliklər üçün singulyar halda spektral funksiya qurulur. Bu funksiyanın köməyi ilə spektral ayrılış düsturu əldə edilir.

## MATHEMATICS DEPARTMENT PROFESSOR'S ARTICLE PUBLISHED IN "*URAL MATHEMATICAL JOURNAL*"

Professor Bilender Allahverdiyev from Khazar University's Mathematics Department has published an article titled "Spectral expansion for singular beta Sturm-Liouville problems" in the "Ural Mathematical Journal" (2024, Volume 10, No. 2). It is worth noting that the "*Ural Mathematical Journal*" is indexed in both the "Web of Science" and "Scopus" databases.

In this study, beta Sturm-Liouville problems are discussed. For such equations, the spectral function is established in the singular case. A spectral expansion is given with the help of this function.

*https://umjuran.ru/index.php/umj/issue/view/21/showToc*
*https://umjuran.ru/index.php/umj*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ “*DEMOKRATİZATSİYA: THE JOURNAL OF POST-SOVIET DEMOCRATIZATION*” - DA

Xəzər Universitetinin siyasi elmlər və fəlsəfə departamentinin müəllimi, siyasi elmlər doktoru Prof. Vəsilə Hacıyevanın “The Dilemma of Monopoly and Democracy in Azerbaijani Party Politics” (“Azərbaycan partiya siyasətində monopoliya və demokratiya dilemması”) mövzusunda məqaləsi “*Demokratizatsiya: The Journal of Post-Soviet Democratization*” - da dərc edilmişdir (2024-cü il, cild 32, sayı 3),

Məqalədə Azərbaycanda siyasi partiyaların daxili quruluşu və partiya sisteminin demokratiyaya təsiri təhlil edilir. Araşdırmada həm iqtidar, həm də müxalifət partiyalarının daxili idarəçiliyi və demokratik dəyişikliyə töhfə vermək potensialı qiymətləndirilir. Məqalənin nəticəsinə görə, Azərbaycanda konstitusional səviyyədə demokratik dəyişikliklərə nail olmaq üçün əvvəlcə partiya sistemində islahatlar aparılmalıdır.

Qeyd edək ki, “*Demokratizatsiya: The Journal of Post-Soviet Democratization*” jurnalı Scopus elmmetrik bazasına daxildir.

## ARTICLE BY PROFESSOR OF THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY PUBLISHED IN “*DEMOKRATIZATSIYA: THE JOURNAL OF POST-SOVIET DEMOCRATIZATION*”

The article “The Dilemma of Monopoly and Democracy in Azerbaijani Party Politics” by Prof. Vasila Hajiyeva, a lecturer of the Department of Political Science and Philosophy at Khazar University, has been published in “*Demokratizatsiya: The Journal of Post-Soviet Democratization*” (2024, Volume 32, Issue 3).

The article analyzes the internal structure of political parties in Azerbaijan and the impact of the party system on democracy. The study assesses the internal governance of both the ruling and opposition parties and their potential to contribute to democratic change. According to the article, in order to achieve democratic changes at the constitutional level in Azerbaijan, reforms must first be carried out in the party system.

It should be noted that *Demokratizatsiya: The Journal of Post-Soviet Democratization* is indexed in the Scopus scientometric database.

*https://muse.jhu.edu/pub/280/article/953961*




## *TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ QUBA SOYQIRIMI MEMORYAL KOMPLEKSİ ÖNÜNDƏN CANLI YAYIMDA*

## *HEAD OF THE DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY IN A LIVE BROADCAST FROM THE QUBA GENOCIDE MEMORIAL COMPLEX*

Martın 31-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu Azərbaycan Dövlət Televiziyasının – *AZTV*-nin Quba Soyqırımı Memoryal Kompleksi önündən həyata keçirdiyi canlı yayımın qonağı olmuşdur.

Departament müdiri Cənubi Qafqazda Erməni terrorunun tarixi, Xalq Cümhuriyyətinin 15 iyul 1918-ci ildə yaratdığı Fövqaladə Təhqiqat Komisyasının hazırladığı 1918-ci il Mart soyqırımı ilə bağlı çoxcildlik sənədlər və istintaq materialları haqqında tamaşaçılara geniş məlumat vermişdir.



*Telman Nüsrətoğlu*

On March 31, Associate Professor Telman Nusratoglu, Head of the Department of History and Archaeology at Khazar University, participated as a guest in a live broadcast by Azerbaijan State Television (*AZTV*) from the Quba Genocide Memorial Complex.

During the broadcast, Professor Nusratoglu provided an extensive overview of the history of Armenian terrorism in the South Caucasus, as well as the multivolume documentary and investigative materials prepared by the Extraordinary Investigation Commission, which was established by the Azerbaijan Democratic Republic on July 15, 1918, to investigate the March 1918 genocide.




# *RONALDO GİNNESİN REKORDLAR KİTABINA DÜŞDÜ*

Portuqaliya millisinin hücumçusu Kriştiano Ronaldo adını Ginnesin Rekordlar Kitabına yazdırıb.

40 yaşlı ulduz buna milli komandalar tarixində ən çox – 132 qələbə qazanan futbolçu kimi nail olub. Bununla bağlı sertifikat ona Millətlər Liqası çərçivəsində baş tutan Danimarka ilə matçdan əvvəl təqdim olunub.

Qeyd edək ki, milli komandada çıxış etdiyi bütün müddət ərzində futbolçu 218 oyun keçirib, 135 qol vurub və 46 məhsuldar ötürmə edib.

**moderator.az**
**24 Mart 2025**

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynın iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi
* Memarlıq
* Biotexnologiya
* İnformasiya təhlükəsizliyi

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi